Azərbaycan Tibb Universitetinin

İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının

# YEKUN HESABATI

2023-cü il

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Eyvazov Təyyar Haşım oğlu - Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Tədris işləri üzrə prorektoru, tibb üzrə fəlsəfə doktoru, dosent

**Üzvlər:**

2. Qafarov Teymur Əli oğlu - Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Psixiatriya və narkologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor
3. Əzizov Abdulsəyid Əbdülhəmid oğlu - Bakı Dövlət Universiteti, Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının professoru, kimya elmləri doktoru, professor
4. İskəndərov Emil Alməmməd oğlu - TƏBİB-in Tibbi təhsil və innovasiyalar departamentinin Davamlı tibbi təhsil şöbəsinin müdiri, tibb elmləri doktoru, dosent
5. Səmədova Elza Nizami qızı - Xəzər Universiteti, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, dosent
6. Ağayeva Gülnarə Şamil qızı - İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Daxili xəstəliklər departamentinin rəhbər müavini, tibb üzrə fəlsəfə doktoru, dosent
7. Eldarov Məhəmməd Eldar oğlu - Xəzər Universiteti, Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil fakültəsinin dekan müavini, biologiya üzrə fəlsəfə doktoru
8. Əfəndiyeva Mətanət Tələt qızı - Milli İdman Tibbi və Reabilitasiya Elmi-praktiki İnstitutu, tibb elmləri doktoru
9. Rəsulova Turanə Natiq qızı - Badam Tibb Mərkəzi, Anestezioloq-reanimatoloq, uzman həkim
10. Həsənov Rəşad Adil oğlu -“German Hospital” MMC, Qastroenteroloq-hepatoloq, dissertant
11. Nurullayeva Afaq Nazim qızı - ETN akademik Abdulla Qarayev adına Fiziologiya Institutu, elmi işçi, dissertant
12. Rəsulzadə Elnarə Üzeyir qızı - Azərbaycan Milli Antidopinq Agentliyi PHŞ, direktor müavini
13. Maykl Paul Luzmor (Michael Paul Loosemore) - London İmperial Kollecinin professoru, idman və fiziki müalicə üzrə professor.

## Mündəricat


**Giriş** ........................................................ 4

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar** ........................................................ 4

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri** ........................................................ 5

**Qiymətləndirmənin icmalı** ........................................................ 5

**1. STRATEJİ İNKİŞAF** ........................................................ 5

**2. KEYFİYYƏT TƏMİNATI** ........................................................ 11

**3. TƏLİM VƏ TƏDRİS** ........................................................ 18

**4. ELMİ TƏDQİQAT** ........................................................ 57

**5. İDARƏETMƏ SİSTEMİ** ........................................................ 79

**6 .İNFRASTRUKTUR** ........................................................ 95

**7. BEYNƏLMİLƏLLƏŞMƏ** ........................................................ 100

**Komissiyanın istiqamətlər üzrə təhlili** ........................................................ 110

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri** ........................................................ 124

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi** . 124

## Giriş
## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Tibb Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Azərbaycan Respublikası Təhsil Nazirliyi 19 dekabr 2017-ci il tarixli, 446 nömrəli əmri ilə 22 dekabr 2017-ci ildə, 5 il müddətinə verilmişdir. |
| Təhsil müəssisəsinin rəhbəri | Professor, tibb üzrə elmlər doktoru Gəray Gəraybəyli |
| Fakültələrin sayı | 6 (Altı) |
| Kafedraların sayı | 60 (Altmış) |
| Bakalavriat (əsas (baza ali) tibb təhsili pilləsi üzrə ixtisasların sayı | 8 (Səkkiz) |
| Rezidentura pilləsi üzrə ixtisasların sayı | 60 (Altmış) |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas: 4 (Dörd)<br>İxtisaslaşma: 9 (Doqquz) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 3 (Üç) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Bakalavriat: 6996<br>Rezidentura: 620<br>Magistratura: 90<br>Doktorantura:77<br>Elmlər doktorluğu proqramı üzrə: 34 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 1166 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 294 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | www.amu.edu.az<br>admin@amu.edu.az<br>(+99412) 597-38-98 |
| Müəssisənin hüquqi ünvanı | Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi 14, AZ1022 |
| Müəssisənin faktiki ünvanı | Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi 14, AZ1022 |

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri**
**Qiymətləndirmənin icmalı**

Azərbaycan Tibb Universitetinin (ATU) institusional akkreditasiya qiymətləndirilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 2022-ci il 14 noyabr tarixli, F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq aparılmışdır. Qiymətləndirmənin məqsədi təhsil müəssisəsinin davamlı olaraq təkmilləşdirilməsi və daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək, o cümlədən ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır.

ATU-nun institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun olaraq seçilmişdir. 2023-cü il 03 mart tarixindən etibarən 3 ay müddətində ATU tərəfindən Özünütəhlil Hesabatı hazırlanmış və 2023-cü il 2–6 oktyabr tarixlərində Akkreditasiya Komissiyası tərəfindən ali təhsil müəssisəsində (ATM) sahə baxışı həyata keçirilmişdir. Yekun Hesabatda əks olunmuş bütün cədvəl və qrafiklər ATU-nun Özünütəhlil Hesabatına əlavə olaraq ATM tərəfindən təqdim olunmuş məlumatlar əsasında tərtib edilmişdir. Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. STRATEJİ İNKİŞAF

### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na (https://president.az/az/articles/view/9779 ) müvafiq ATU-nun Strateji İnkişaf planı Universitetin Elmi Şurasının 19 mart 2015-ci il tarixli iclasında (pr.№ 7) müzakirə olunaraq qəbul edilmişdir. Bu sənəddə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı fəaliyyət planına https://amu.edu.az/storage/files/6/Audit/2b.D%C3%B6vl%C9%99t.Strateg_Feal_Plani.pdf uyğun olaraq ATU-nun planlı, mütənasib və balanslaşdırılmış şəkildə inkişaf etdirilməsi, tarixən əldə edilmiş ənənələr və nailiyyətlər itirilmədən universitetin gələcək inkişafı, tibb təhsilinin, tədris metodik işlərin, elmi-tədqiqatların, təşkilati idarəetmə və maliyyə fəaliyyətinin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi qarşıya məqsəd qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, SİP-də müəyyən edilmiş əsas inkişaf istiqamətləri üzrə 2017/2018-2021/2022-ci tədris illəri intervalında kifayət qədər iş görülməsinə baxmayaraq Özünütəhlil Hesabatının Strateji inkişaf istiqaməti əhatəli yazılmamış, TKTA-nin müəyyən etdiyi indikatorlara dolğun cavab verilməmişdir. Bunun əsas səbəbi SİP-in günün tələblərinə cavab verən bir sənəd kimi işlənilib hazırlanmamasıdır.

Strateji inkişaf planı universitetin növbəti yeddi il ərzində əsas məqsəd və təşəbbüslərini özündə cəmləşdirərək, ATU-nu Azərbaycanda tibb təhsili, elmi tədqiqatlar və səhiyyə xidmətləri sahəsində lider müəssisə mövqeyinə çıxarmaq məqsədi daşıyır. Əsas diqqəti təhsil, elm, tərəfdaşlıq, infrastruktur və cəmiyyətə təsir üzərində cəmləyərək, universitet öz missiyasını yerinə yetirməyə və gələcəyə baxışı həyata keçirməyə çalışır.

SİP-in hazırlanmasında əsas maraqlı tərəflər keyfiyyətli tibb təhsili arzusunda olan təhsilalanlar, onlara bu təhsili verən professor-müəllim heyəti, universitetin idarə edilməsində çalışan inzibati işçi heyəti, səhiyyə təşkilatları, tədqiqat institutları, dövlət orqanları, beynəlxalq tərəfdaşlar və yerli ictimaiyyət iştirak etmişdir. Bu məqsədlə gələcəyə baxışı, missiyanı, inkişaf strategiyasını və fəaliyyət planını yeniləmək üçün universitetin idarəedici heyətinə, struktur bölmə rəhbərlərinə və onların əməkdaşlarına 10 həftəlik “Effektiv Strateji planlaşdırma və proqram qiymətləndirilməsi“ adlı təlim keçirilmişdir. Təlim ATU-da ABŞ-ın Azərbaycan Respublikasında səlahiyyətli səfirliyi tərəfindən həyata keçirilən English Language Fellow proqramı üzrə fəaliyyət göstərən Tiffany Tillman tərəfindən aparılmışdır (https://amu.edu.az/news/3568/atu-nun-rektoru-taninmis-mutexessise-sertifikat-teqdim-edib). Bu tədbirin keçirilməsini komissiya müsbət hal kimi qəbul etsə də, professor-müəllim heyəti, struktur rəhbərləri, təhsilalanlarla görüşlər, müsahibələr zamanı onların əksər hissəsinin məlumatsızlığı ortaya çıxmışdır. 18 may 2023 il tarixində “Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” (https://amu.edu.az/news/3546/atu-da-olkenin-boyuk-tibbi-ve-elmi-tedqiqat-merkezleri-xestexana-rehberleri-ile-gorus-kecirilib) adlı görüşdə Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən əksər elmi-tədqiqat institutları və müəssisələr, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Təhsilin İnkişaf Fondu, dövlət və özəl xəstəxanaların, iri klinikalar və tibb xidmətləri sferasındakı bir sıra qurumların rəhbərlərinin iştirakı ilə aparılan müzakirələr əsasında təklif olunmuş missiya və baxışın ölkənin əmək bazarına, cəmiyyətin gözləntilərinə və iqtisadiyyatın inkişafına uyğun olduğu müəyyənləşdirilmişdir. Həmin görüşün əsasında inkişaf strategiyasının prioritet istiqamətləri işlənib hazırlanmışdır. Hazırlanmış SİP ATU-nun Elmi Şurasının 25 may 2023-cü il tarixli qərarı ilə qəbul olunmuş və ATU-un rektorunun 3 iyul 2023-cü il tarixli əmri ilə Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün inkişaf strategiyası (uzunmüddətli) və Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün inkişaf strategiyası üzrə fəaliyyət planı (ortamüddətli) təsdiq olunmuşdur.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

2015-ci ildə təsdiqlənmiş SİP-də universitetin missiyası, gələcəyə baxışı prioritetlər üzrə qarşıya qoyulan vəzifələr və məqsədlər kifayət qədər aydın şəkildə müəyyən olunmadığı üçün missiyanın ATU-nun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu dərəcəsi komissiya tərəfindən əsaslı şəkildə aydınlaşdırılması mümkün olmamışdır.

Universitetin 2023-2030-cu illər üçün inkişaf strategiyasında universitetin əsas prioritetləri təhsil, elm, tərəfdaşlıq, infrastruktur, dünya reytinqləri, cəmiyyətə töhfə vermək və bu prioritetlər üzrə universitetin fəaliyyətinin əsas məqsədləri isə, tibbi təhsilinin keyfiyyətinin və əhəmiyyətinin artırılması; elmi-tədqiqatların təkmilləşdirilməsi və innovasiyaların stimullaşdırılması; strateji tərəfdaşlıq və əməkdaşlıqların qurulması; müasir infrastrukturun və texnoloji imkanların hazırlanması; dünya reytinqlərində yer tutaraq universitetin tanınma siyasətini həyata keçirmək; səhiyyə sahəsində təşəbbüslər vasitəsilə ictimaiyyətə əhəmiyyətli töhfə verməkdir.

Göründüyü kimi, 2015-ci ildə təsdiq olunmuş SİP-lə müqayisədə bu sənəd təkmildir və universitetin müəyyən edilən missiyası onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğundur.

Təhlillər zamanı müəyyən edilmişdir ki, ATU-nun fəaliyyət istiqamətindəki sahələr üzrə həyata keçirilən işlər, universitetin İnkişaf Strategiyasına uyğun olaraq yüksək keyfiyyətli təhsil, tədqiqat, sosial və tibbi xidmətlər göstərən universitetə çevrilməsinə xidmət edir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Universitetin 2023-2030-cu illər dövrünü əhatə edən SİP-də müəyyən edilən Gələcəyə baxışı: təhsil, tədqiqat və səhiyyə sahəsində mükəmməlliyə görə tanınan və cəmiyyətin rifahına töhfə verən səriştəli səhiyyə işçiləri yetişdirməklə, regionda aparıcı tibb universiteti olmaqdır. Nəticə çıxarmaq olar ki, SİP-də müəyyən edilən strateji baxış ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğundur.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

2015-ci ildə qəbul edilən SİP-də universitetin prioritet istiqamətləri aydın şəkildə formalaşdırılmamışdır. 2023-2030-cu illəri əhatə edən SİP-da isə prioritet istiqamətlər: təhsil, elm, tərəfdaşlıq, infrastruktur, dünya reytinqləri, cəmiyyətə töhfə vermək kimi müəyənləşdirilmişdir. SİP-də müəyyən edilən prioritet istiqamətlərin universitet qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu komissiya tərəfindən müsbət hal kimi qiymətləndirilmişdir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

2015-ci ildə təsdiq edilmiş SİP-də natamamlıqlar olduğu üçün strateji baxış və qoyulmuş strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflər müəyyən edilməmişdir.

2023-2030-cu illəri əhatə edən SİP-də isə strateji baxışda qoyulmuş əsas strateji istiqamətlər təhsil, tədqiqat və səhiyyə sahəsində mükəmməlliyə görə tanınan və cəmiyyətin rifahına töhfə verən səriştəli səhiyyə işçiləri yetişdirməklə, regionda aparıcı tibb universiteti olmaqdır. Bu strateji istiqamətlərə nail olunması üçün SİP-də 6 prioritet istiqamət və hər bir istiqamətin məqsədləri müəyyən edilmişdir.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Universitet SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirləri əks etdirən fəaliyyət planlarını komissiyaya təqdim etmədiyindən indikator üzrə qiymətləndirmənin aparılması mümkün olmamışdır.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

SİP-də müəyyən edilmiş 6 prioritet istiqamət üzrə əsas effektivlik göstəriciləri universitetin fəaliyyətinin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləridir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

Universitetin qısa və orta müddət üçün fəaliyyət planlarının hazırlanması zamanı nəzərdə tutulmuş fəaliyyətləri icra etmək məqsədilə insan, maliyyə və infrastruktur resurslarının ayrılması tövsiyə olunur.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

Universitetin 2018-2022-ci illər üzrə gəlir və xərclər smetası, SİP-in maliyyə təminatının ATU-da büdcə planlaşmasında nəzərə alınması vəziyyəti komissiya tərəfindən təhlil edilmişdir. Bu illər üzrə universitetin maliyyə təminatı 22 parametr üzrə təqdim olunmuşdur. Komissiya hesab edir ki, statistik məlumatlar qənaətbəxşdir.

SİP-in maliyyə təminatı universitetin büdcə planlamasında nəzərə alınsa da, yeni gəlir mənbələrinin təmin edilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

SİP-də sosial məsuliyyət hissinin formalaşdırılması üçün təhsilalanların (bakalavr, magistrantlar, rezidentlərin) cəmiyyətdəki xidmət təşəbbüslərində iştirak etməsi, ATU-nun tədqiqat sahəsinə etdiyi töhfələri nümayiş etdirmək və tanınma dərəcəsini artırmaq üçün tədbirlərin görülməsi, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamlar müəyyənləşdirilmişdir.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

ATU-nun 2015-ci ildə qəbul olunmuş Strateji inkişaf planında strateji prioritetlər, məqsədlər müəyyən olunmadığı üçün cari ilin SİP-i hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması səviyyəsini aydınlaşdırmaq mümkün olmamışdır. Cari il üçün SİP hazırlanarkən universitetin əvvəlki SİP-ə uyğun fəaliyyət planında icra edilməyən və ya qismən icra edilən məsələlərə dair məlumatın əks olunması və ehtiyac varsa həmin məsələlərin yeni SİP-də də öz əksini tapması məqsədəuyğun hesab edilir.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

Universitetdə maraqlı tərəflərlə (tələbə, professor-müəllim və inzibati heyət, işəgötürənlər, pasiyentlər) aparılan müsahibələr əsasında tərtib olunmuş SWOT-təhlil (GZİT-təhlil) missiyanı, baxışı, strateji prioritetləri, məqsədləri və əsas effektivlik göstəriciləri müəyyən etməyə kömək etmişdir. GZİT-təhlili ATU-nun inkişaf strategiyasından əlavə mövcud 4 klinikanın ATU-nun strateji planına əsaslanaraq öz SİP və fəaliyyət planını tərtib etməli olduğunu ortaya çıxartmışdır. İnkişaf strategiyasında qeyd olunmuş əsas fəaliyyət istiqamətlərinin icrasına dair fəaliyyətlərə cavabdeh struktur bölmələr müəyyənləşmişdir.

GZİT-təhlilin əsasında SİP-də hər seçilmiş istiqamət üzrə məqsədlər və əsas effektivlik göstəriciləri formalaşdırılmışdır. Bununla yanaşı, komissiya hesab edir ki, ATU-nun GZİT təhlilinin nəticəsinə uyğun zəif tərəflərin aradan qaldırılması istiqamətində tədbirlər planının hazırlanması məqsədəuyğundur.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

SİP-in hazırlanmasında ATU Rektorluğu, ATU kollektivi, ATU tələbə təşkilatları ilə müzakirələr aparılmış və tərəflərin təklifləri, fikirləri nəzərə alınmışdır. SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakını təmin etmək və onların məsləhətlərini ümumiləşdirmək məqsədilə ATU-da 18 may 2023 il tarixində “Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” (https://amu.edu.az/news/3546/atu-da-olkenin-boyuk-tibbi-ve-elmi-tedqiqat-merkezleri-xestexana-rehberleri-ile-gorus-kecirilib) adlı görüş təşkil edilmişdir. Görüşdə Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən əksər elmi-tədqiqat institutları və

müəssisələr, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Təhsilin İnkişaf Fondu, dövlət və özəl xəstəxanaların, iri klinikalar və tibb xidmətləri sferasındakı bir sıra qurumların rəhbərləri iştirak etmişlər. Aparılan müzakirələr əsasında təklif olunmuş missiya və baxışın ölkənin əmək bazarına, cəmiyyətin gözləntilərinə və iqtisadiyyatın inkişafına uyğun olduğu müəyyənləşdirilmişdir. Həmin görüşün əsasında inkişaf strategiyasının prioritet istiqamətləri işlənib hazırlanmışdır.

ATM-in institusional akkreditasiya qiymətləndirilməsi zamanı aparılan görüşlər nəticəsində müəyyən edilmişdir ki, bəzi struktur bölmə rəhbərləri, müəllimlər və təhsilalanlar müəyyən struktur bölmələrin strateji məqsəd və hədəflərini mənimsəməmişlər və SİP-in həyata keçirilməsi üçün müvafiq sahələr üzrə mövcud vəziyyətin təhlili, atılacaq addımların planlaşdırılması və bu kimi mövzular haqqında əlavə müzakirələrə ehtiyac vardır.

#### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

Universitetin İnkişaf strategiyasında müəyyən edilən məqsəd və hədəflərin reallaşdırılması istiqamətində ATU prorektorları, onların kurasiyasında olan struktur bölmələr arasında iş bölgüsü aparılmışdır. Struktur bölmələr öz fəaliyyət planlarını ATU-nun İnkişaf Strategiyası əsasında tərtib etmişdir və görüləcək işlərin monitorinqi və hesabatlılığını təmin edəcək daxili mexanizm, prosedurlar müəyyən edilmişdir. Universitetdə Tədris departamenti, Rezidentura və magistratura şöbəsi, Beynəlxalq əlaqələr, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi, Kadrlar şöbəsi, İnformasiya texnologiyaları departamenti, İmtahan mərkəzi, İctimaiyyətlə əlaqələr şöbəsi və s. struktur bölmələri SİP-in icrası üzrə məsuldurlar.

### *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

#### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

ATU-nun struktur bölmələrinin hesabatları mövcud olsa da, SİP-in icrasına dair ayrıca hesabat mövcud deyildir. SİP-in qısa və ortamüddətli dövr üzrə icrası planının hazırlanması və onun nəticəsində həmin dövrlər üzrə yarımillik və illik hesabatlarının tərtib olunması tövsiyə olunur.

#### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

ATU-nun struktur bölmələrinin hesabatı Elmi Şura iclaslarında müzakirə edilir. SİP-in icrasına dair hesabat ayrılıqda deyil, struktur bölmələrin ümumi hesabatı əhatəsində müzakirə edilmişdir. Ümumiyyətlə, struktur bölmələrin illik hesabatlarından kənar, ayrılıqda “SİP-in icrasına dair hesabat”-ın hazırlanması daha məqsədəuyğundur.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

SİP-in icrası ilə bağlı ayrı-ayrı strukturların hesabatlarında məlumatlar vardır. ATM-də SİP-in icrası ilə bağlı sistemli monitorinq həyata keçirilmir. Universitetin daxili keyfiyyət təminatı standartlarının hazırlanmasına baxmayaraq SİP-in icrasının monitorinqi prosesinə bu standartların tətbiq edilməsi və uyğun hesabatların hazırlanmasına ehtiyac vardır.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

SİP-in icrası ilə bağlı məlumatlar ayrı-ayrı strukturların hesabatlarında əksini tapır. Lakin onun icrasına dair monitorinq və yaxud vahid hesabatlılıq aparılmır.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

Sözügedən indikator üzrə universitetin fəaliyyətsizliyinin aradan qaldırılması tövsiyə olunur.

## 2. KEYFİYYƏT TƏMİNATI

*2.1 Keyfiyyət təminatı siyasəti*

### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

ATU-da Keyfiyyət Təminatı Siyasəti sənədi mövcuddur. Sənəd universitetdə 04.07.23-ci il tarixində H/1- 4072023KT/S nömrəsiylə qeydiyyatdan keçmişdir (https://amu.edu.az/storage/files/6/1%20Universitet/Siyas%C9%99t/Keyfiyy%C9%99tin%20T%C9%99minat%20Siyas.pdf ). Sənəd keyfiyyət təminatı siyasətinin məqsədi, fəaliyyət dairəsi, missiya, gələcəyə baxış, keyfiyyətin təminatı siyasətinin əsaslandığı prinsiplər bölmələrindən ibarətdir.

Missiya: Azərbaycan Tibb Universitetində keyfiyyət təminatında insanların və bütövlüklə ictimaiyyətin rifahının və sağlamlığının möhkəmləndirilməsinin təşviqinə diqqət yetirməklə, tibbi təhsil, tədqiqat və səhiyyə xidmətlərində yüksək nailiyyətlərə müvəffəq olmaqdır. ATU peşəkar səhiyyə mütəxəssislərinin yetişdirilməsini, qabaqcıl tədqiqatlar vasitəsilə biliklərin əldə edilməsini və ən yüksək beynəlxalq standartlara cavab verən xəstə mərkəzli qayğının təmin edilməsini həyata keçirir.

Gələcəyə Baxış: Tibbi biliklərin daima inkişaf etməsinə, səhiyyə təcrübəsinin təkmilləşdirilməsinə və cəmiyyətin sağlamlıq ehtiyaclarının ödənilməsinə verdiyi töhfə ilə tanınan, tibb təhsili və tədqiqat baxımından region üzrə əhəmiyyətli yer tutan bir müəssisə olmaqdır. ATU gələcək səhiyyə liderlərini yetişdirən, innovasiyaları təşviq edən və Azərbaycanda və onun hüdudlarından kənarda fərdlər və icmalar üçün ümid və şəfa işığı kimi xidmət edən mükəmməllik mərkəzi olmağı hədəfləyir.

Sənəd İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi tərəfindən tərtib olunub. Komissiya universitetdə maraqlı tərəflərlə müsahibələrdə müəyyən etdi ki, sənədin hazırlanmasında iştirak

etməyiblər və keyfiyyətin təmin olunması sahəsində məqsəd və əsas prinsiplər haqqında məlumatsızdırlar. Sənədin maraqlı tərəflərlə müzakirəsinə ehtiyac var.

### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Keyfiyyət təminatı siyasəti məqsəd, fəaliyyət dairəsi, missiya, gələcəyə baxış, keyfiyyətin təminatı siyasətində əsaslanılan prinsiplər bölmələrindən ibarət olub 3 səhifədən ibarətdir və məzmun və məna baxımından anlaşılan və icrası mümkün sənəddir. Sənəd tərtib olunarkən “Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar” sənədinin (ESG-də) əsas müddəaları nəzərə alınıb (http://www.twinning4he.edu.az/uploads/component/document/esg.pdf). Keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsinə baxmayaraq daxili və xarici maraqlı tərəflərin iştirakı təmin edilmədiyi və onların rəyləri nəzərə alınmadığı üçün universitet heyəti sözügedən sənəd haqqında məlumatsızdır. Sənədin maraqlı tərəflərlə müzakirəsi tövsiyə olunur.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

ATU-nun keyfiyyət təminatı siyasəti sənədi universitetin rəsmi veb saytında yerləşdirilmişdir (https://amu.edu.az/storage/files/6/1%20Universitet/Siyas%C9%99t/Keyfiyy%C9%99tin%20T%C9%99minat%20Siyas.pdf ). Özünütəhlil Hesabatında Keyfiyyət təminatı siyasətini bilmək və həyata keçirməyin bütün universitet işçiləri üçün məcburi olduğu qeyd edilmişdir. Ancaq strukturlar və əməkdaşların sözügedən sənədlə necə və hansı mexanizmlə məlumatlandırılması haqqında informasiyaya rast gəlinməmişdir. Universitetdə müsahibələr zamanı müəyyən edilmişdir ki, universitet heyəti bu sənədlə tanış deyildir. Universitetdə istifadə edilən korporativ e-mail və ya məlumat lövhələri vasitəsilə əməkdaşların bu sənədlə tanışlığının təmin edilməsi tövsiyə edilir.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

ATU-nun keyfiyyət təminatı siyasəti təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri sahələrində aşağıdakı prioritetləri əhatə edir:

1. Təhsildə mükəmməllik: Tələbələri yüksək peşəkarlığa malik səhiyyə işçisi kimi yetişdirmək üçün zəruri olan bilik, bacarıq və etik dəyərlərlə təmin edən hərtərəfli tibbi təhsil proqramı təqdim etmək. ATU-da yüksək akademik standartları qoruyub saxlamaq, davamlı təhsil mədəniyyətini inkişaf etdirmək və tədris metodlarında innovasiyaları təşviq etmək.
2. Qabaqcıl tədqiqatlar: Tibb elmini, səhiyyə təcrübəsini və xəstələrə qayğını inkişaf etdirən tədqiqat fəaliyyətlərini təşviq etmək və dəstəkləmək. Fənlərarası əməkdaşlığı inkişaf

etdirmək üçün bu sahəni ən müasir imkanlar və resurslarla təmin etmək və yaradıcılığı və intellektual marağı təşviq edən tədqiqat üçün əlverişli mühit yaratmaq.

3. Xəstə mərkəzli qayğı: Xəstələrin rifahını prioritet saymaq və şəfqətli, fərdiləşdirilmiş, sübuta əsaslanan səhiyyə xidmətləri göstərməyə çalışmaq. Klinik təcrübədə beynəlxalq standartlara müvafiq olmağa, xəstələrin təhlükəsizliyini təmin etməyə və tibbi xidmətin keyfiyyətini və səmərəliliyini daim yüksəltməyə çalışmaq.

4. Davamlı Təkmilləşdirmə: Universitetin hər bir üzvünün təkmilləşmə imkanlarını müəyyən etmək və müsbət dəyişikliklərə töhfə vermək səlahiyyətinə malik olduğu davamlı təkmilləşmə mədəniyyətinə sadiq qalmaq. ATU-da mütəmadi olaraq fəaliyyəti qiymətləndirmək, ölçülə bilən məqsədlər qoymaq və bütün proseslərə nəzarət etmək və təkmilləşdirmək üçün etibarlı keyfiyyət idarəetmə sistemlərini tətbiq etmək.

5. Etik və Peşəkar Standartlar: ATU-nun bütün fəaliyyətində ən yüksək etik və peşəkar standartlara riayət etmək; dürüstlüyü, müxtəlifliyə hörməti və etik prinsiplərə və tövsiyələrə riayət etməyin vacibliyini vurğulamaq. Peşəkarlığı, komanda işini və məsuliyyəti təşviq edən mühit yaratmaq.

6. Universitetin keyfiyyət və standartlar sahəsində siyasətinin və mexanizmlərinin formalaşmasına əsas töhfələrin tələbələr və digər maraqlı şəxslər tərəfindən verilməsi.

7. Universitetin professor-müəllim heyəti həm fərdi, həm də qrup halında tədrisin keyfiyyətinin yüksəldilməsinə, tələbələr isə yetkin təhsilalanlar kimi öz təhsillərinə görə məsuliyyət daşımalıdır.

8. Əməkdaşlığı artırmaq və ən qabaqcıl təcrübələri bölüşmək məqsədilə, təkmilləşdirmək potensialı olan sahələrin müəyyən edilməsi və ciddi xarici qiymətləndirməsi.

9. Universitet prosedurlarının əsasını akademik standartların digər aparıcı müəssisələrlə müqayisəsi (bençmarkinq) təşkil etməlidir.

10.Keyfiyyət və standartlara aid bütün siyasət və prosedurlar, sürətlə dəyişən xarici və daxili mühitdə məqsədlərə uyğunluğunun davamlı olmasını təmin etmək üçün müntəzəm olaraq nəzərdən keçirilməlidir.

## *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

ATU-da daxili keyfiyyət təminatı sistemi İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi tərəfindən həyata keçirilir. Şöbə rektorun 5 may 2022-ci il tarixli 304/K saylı əmrinə əsasən yaradılmışdır. Rektorun birbaşa tabeçiliyində təhsil, elm, əməkdaşlıq, infrastruktur üzrə keyfiyyət siyasəti, akkreditasiya və beynəlxalq reytinq sistemləri istiqamətləri üzrə fəaliyyət göstərən müstəqil struktur bölmədir.

ATM-in rəsmi veb saytında İnnovasiya və keyfiyyətin idarəolunması şöbəsinin əsasnaməsi və Özünütəhlil Hesabatları bölməsi mövcud olsa da müvafiq sənədlər uyğun bölmələrə

yerləşdirilməmişdir. (https://amu.edu.az/page/5248/esasname,https://amu.edu.az/page/5179/ozunutehlil-hesabatlari-ve-nesrler ).

ATU-da keyfiyyət təminatı üzrə Komissiyanın 2023-cü ilin sentyabrında fəaliyyətə başlayacağı qeyd edilsə də komissiya belə bir fəaliyyətin şahidi olmadı. Bu sahədə işlərin intensivləşdirilməsi tövsiyə olunur.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Universitetdə Keyfiyyət təminatı komissiyasının fəaliyyət göstərmədiyi və fəaliyyət planının mövcud olmadığı həm Özünütəhlil Hesabatından həm də sahə səfəri zamanı aydın olmuşdur. Komissiya yaradılıb fəaliyyətə başlayan zaman komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğunun nəzərə alınması tövsiyə olunur.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

ATU-da İnnovasiya və keyfiyyətin idarəolunması şöbəsinin 2023/24-cü tədris ili üçün ənənəvi formada hazırladığı işçi planda il ərzində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlərin icra, nəzarət və düzəliş mexanizmləri, konkret vaxt eləcə də iş bölgüsü barədə qeyri müəyyənlik müşahidə olunur. ATU-da keyfiyyət təminatı üzrə komissiyanın yaradılması və bu komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması, qeyd olunan sorğuların keçirilməsi və təhlil edilməsi, alınan qərarlara, təkliflərə dair konkret nümunələrin illik Özünütəhlil Hesabatında qeyd olunması tövsiyə edilir.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

ATU-nun keyfiyyət təminatı siyasətində tədrisin keyfiyyətinin qiymətləndirilməsi meyarları, tibbi diaqnostik fəaliyyətinin keyfiyyət meyarları və metodları, tərbiyə işi fəaliyyətinin qiymətləndirilməsi meyarları və metodları müəyyənləşdirilmişdir. Bu meyarların müxtəlif struktur bölmələrin müvəqqəti işçi qrupları tərəfindən müntəzəm olaraq yoxlanıldığı və əldə edilmiş məlumatların struktur bölmələrinin hesabatlarında qeyd edildiyi və müvafiq komissiya eləcə də şuraların müzakirəsinə verildiyi müəyyən edilsə də, keyfiyyətin təmin olunması hesabatlarının ayrılıqda tərtib olunaraq müzakirə olunması daha məqsədəuyğundur.

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Azərbaycan Tibb Universitetinin Özünütəhlil Hesabatından və universitetdə görüşlər zamanı müsahibələrdə müəyyən olundu ki, daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş

fəaliyyət planı təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s. əhatə edir və təhsil fəaliyyəti; tərbiyəvi iş; müalicə və diaqnostika fəaliyyəti; professor-müəllim heyətinin və tibb işçilərinin təkmilləşdirməsi; elmi-tədqiqat fəaliyyəti; maddi-texniki təminat; kadr təminatı; informasiya təminatı üçün spesifikasiya uyğun olaraq keyfiyyətin qiymətləndirilməsi meyarları və metodları işlənib hazırlanır. Bütün bu prosedurların 2023-cü il sentyabr ayından etibarən müvafiq qanunvericilik sənədləri əsasında həyata keçiriləcəyi nəzərdə tutulmuşdur.

**2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin fəaliyyəti haqqında məlumatlar və keyfiyyət təminatı siyasəti universitetin rəsmi veb saytında yerləşdirilmişdir (https://amu.edu.az/page/2799/bolmelerimiz). Keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) hazırlanması istiqamətində işlərin getdiyi bildirildi. ATU-da keyfiyyət təminatı ilə əlaqədar sənədləri, təlimat və əsasnamələri özündə əks etdirən vahid Qaydalar toplusunun hazırlanması və müvafiq struktur bölmələrlə paylaşılması, maraqlı tərəflər üçün əlçatanlığın təmin edilməsi üçün veb saytda yerləşdirilməsi tövsiyə edilir.

**2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

ATU-nun KİS prosesləri təhsil fəaliyyəti; tərbiyəvi iş; müalicə və diaqnostika fəaliyyəti; professor-müəllim heyətinin və tibb işçilərinin təkmilləşdirməsi; elmi-tədqiqat fəaliyyəti; maddi-texniki təminat; kadr təminatı; informasiya təminatı üçün spesifikasiya uyğun keyfiyyətin qiymətləndirilməsi meyarları və metodları işlənib hazırlanmışdır. Eyni zamanda 2023-cü ildən İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi tərəfindən tədris, klinik və sosial mühiti yaxşılaşdıra biləcək aşağıdakı əlavə keyfiyyət meyarları təqdim edilib:

- Rezidenturaya qəbul zamanı ballar;
- Rezidenturaya qəbul imtahanlarının nəticələri;
- Magistraturaya qəbul imtahanlarının nəticələri;
- Seçmə fənlərin kataloqu;
- Xarici tərəfdaş universitetlərlə birgə təhsil proqramlarının sayı;
- İnteqrasiya edilmiş seçmə fənlərin payı;
- DİM tərəfindən tövsiyə olunan professor-müəllim heyəti tərəfindən buraxılan materialların payı;
- universitetin elektron resurslarında yerləşdirilən tədris-metodiki materialların payı;
- təhsilalanın dərsliklərlə təmin edilməsi - azərbaycan, rus və ingilis dillərində tədris ədəbiyyatı daxil olmaqla;
- tədris fənlərində istifadə olunan innovativ texnologiyaların (PBL, TBL, işgüzar oyunların ssenariləri) payı;
- Tələbələrin və professor-müəllim heyətinin cədvəldən məmnunluq indeksi;
- Öz ixtisası üzrə işləyən məzunların payı;

- İşəgötürənlərin məzunların keyfiyyətindən məmnunluğu;
- Rezidentlərin attestasiyasının nəticələri.
- Videokonfrans sistemi olan sinif otaqlarının sayı;
- Universitetin elektron kataloqunda tam mətnli nəşrlərin sayı;
- Fənlər üzrə tədris proqram təminatının sayı;
- Proqrama uyğun olaraq videotekanın, mediatekanın tədris materialları ilə təminatının tam olması;
- Standartlaşdırılmış xəstələrin mövcudluğu;
- Metodik və məlumat materialları ilə təmin edilməsi;
-Müştəri məmnuniyyətinin dərəcəsi.

Universitetdə təhsilalanlarla məmnunniyyətin ölçülməsi üzrə sorğular aparılır, professor-müəllim heyəti ilə reytinq qiymətləndirmə mexanizmi mövcuddur. Ümumilikdə ATU-da reytinq qiymətləndirmə sistemi səmərəli və nəticəyönümlü təşkil edilmişdir. Şöbənin fəaliyyətini əsasən qeyd olunan istiqamətlərdə görülən işlər təşkil edir. Reytinq qiymətləndirilməsinə dair təlimat mövcuddur və onun əsasında reytinq cədvəlləri tərtib olunur. Reytinq qiymətləndirilməsinin nəticəsinə müvafiq olaraq akademik heyətin vəzifədə irəliləməsi təqdirəlayiq haldır, lakin məqsədəuyğundur ki, bu proses hər ilin yekununda tətbiq edilsin.

Universitetdaxili bütün sorğuların təşkili ilə bağlı ümumi mexanizmin yaradılması, onların təhlilinin nəticəsinə uyğun tədbirlər planı hazırlanması, bu prosedurun vahid sistemdən idarə edilməsi məqsədəuyğundur.

İnnovasiya və keyfiyyətin idarəedilməsi şöbəsinə keyfiyyət təminatı sisteminin qiymətləndirmə üzrə müəyyənləşdirdiyi meyarları, iş planını və veb saytda yerləşdirilən funksiyaları uyğunlaşdırması və daha konkretləşdirməsi, bunu da fəaliyyət planında daha sistemli şəkildə tərtib etməsi tövsiyə edilir.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Komissiya ATU-da keyfiyyət təminatı siyasəti, ixtisas proqramlarının hazırlanması və təsdiqlənməsi, tələbə mərkəzli təlim, tədris və qiymətləndirmə, müəllim heyəti, informasiya idarə edilməsi, ictimai məlumat, proqramların davamlı monitorinqi və mütəmadi olaraq nəzərdən keçirilməsi, beynəlmiləlləşmə siyasətinə dair fəaliyyətlərin kəmiyyət və keyfiyyət göstəricilərini özündə ehtiva edən illik Özünütəhlil Hesabatlarının hazırlanmasını, universitetin Elmi Şurasında müzakirəsinin təşkil edilməsini tövsiyə edir.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

Sonuncu (2017-ci il) Akkreditasiya Komissiyasının Yekun Hesabatında göstərilən 33 irad və təkliflər ilə əlaqədar görülən işlər və nəticələr haqqında ATU-nun Özünütəhlil Hesabatında məlumat vermişdir. Akkreditasiyada göstərilən iradlar istiqamətində görülən və ya görüləcək tədbirlər əks edilsə də, konkret fəaliyyət planı formasında hazırlanmamışdır. ATU-nun

akkreditasiyanın yekunlarına dair məlumat xarakterli hesabatla yanaşı, görüləcək işlərə dair qısa və uzunmüddətli fəaliyyət planının hazırlanması tövsiyə olunur.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

Universitetdə tələbələr arasında məmnunluq sorğuları keçirilir, onların əsasında təhsil prosesinin və onun komponentlərinin təkmilləşdirilməsi ilə bağlı işlər aparılır. Eyni zamanda kadr siyasəti, infrastruktur, kitabxana fondu, eləcə də sosial və maliyyə təminatının keyfiyyətinin yüksəldilməsi məqsədilə işəgötürənlər, məzunlar və PMH arasında sorğular keçirilir. Özünütəhlil Hesabatına əlavə edilən ATU-nun ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusu, fənlər üzrə məmnunluq sorğusu, karyera xidmətlərindən məmnunluq sorğusu, təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu, məzunlar arasında keçirilmiş sorğu, akademik heyət arasında keçirilmiş sorğu, inzibati və tədris-köməkçi heyət arasında keçirilmiş sorğu kimi sorğuların nəticələri göstərilsə də sahə səfəri zamanı keçirilən görüşlərdən tələbələr və müəllimlərin bu haqda məlumatlarının az olduğu aydın olmuşdur. Tələbələrlə görüşdə onlar fənlərlə bağlı sorğularda iştirak etdiklərini qeyd etdilər. Eyni zamanda universitetin e-tədris platformasında da fənlərlə bağlı məmnuniyyət sorğusu yerləşdirilmişdir.

Komissiya İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinə əməkdaşlar, tələbələr və məzunlarla sorğuların təşkili, illik hesabatların hazırlanması, hesabatlar əsasında təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirildiyi fəaliyyət planı formalaşdırmağı tövsiyə edir.

## *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Universitetdə kommunikasiyanın aşağıdakı üsullarla həyata keçirildiyini qeyd etmək olar: görüşlər; ümumi kargüzarlıq sistemi çərçivəsində (əmrlər, bildirişlər, yazılı formalı işgüzar qeydlər/müraciətlər), universitetin internet saytında məlumatların yerləşdirilməsi və sorğuların keçirilməsi.

Sahə səfəri zamanı əlaqədar məsələlərin kafedra iclaslarında müzakirələr və məlumatlandırma yolu ilə, tələbələrlə ünsiyyətin isə tələbə dekanlar və seçilmiş qrup nümayəndələrinin dekanlıqlardakı tyutorlar tərəfindən vatsap mobil tətbiqi vasitəsilə məlumatlandırıldığı aydın olmuşdur. Sahə səfəri zamanı universitetdə elektron sənəd dövriyyəsi sisteminin kifayət qədər geniş tətbiq edilmədiyi də aydın olmuşdur.

ATU-da daxili kommunikasiyanın yaradılmasında, maraqlı tərəflərə məlumatların çatdırılmasında korporativ e-mail, müxtəlif informasiya proqramlarından istifadə edilməsi və e-universitet platformasının imkanlarının genişləndirilməsi, mövcud imkanlardan aktiv istifadənin təmin edilməsi tövsiyə edilir. Eyni zamanda universitetin struktur bölmələri arasında səmərəli

kommunikasiya şəbəkəsinin qurulması üçün elektron sənəd dövriyyəsi sistemindən istifadə edilməsi tövsiyə edilir.

#### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Keyfiyyət təminatı sahəsində ATU-da əks-əlaqə İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin rəhbərliyi və əməkdaşları vasitəsilə həyata keçirilir. Bu məqsədlə yaradılacaq komitənin də imkanlarından istifadə etmək nəzərdə tutulur. Bu baxımdan lazımi informasiya ötürülür, lakin informasiyanın əlçatanlığının araşdırılması aydın olmur. Keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi, yeni baxışın universitet kontingenti tərəfindən qəbul edilməsi məqsədi barədə maraqlı tərəflərlə, xüsusilə universitetin strukturları ilə maarifləndirici görüşlərin keçirilməsi, görüşlərdən sonra dəyişikliyin dinamikasının izlənilməsi, ona müvafiq olaraq alternativ kommunikasiya vasitələrinin müəyyənləşdirilməsi tövsiyə olunur.

#### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

ATM rəhbərliyi keyfiyyət təminatı sisteminin inkişafında birbaşa iştirak edir. İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin təklifi əsasında işçi qrupun formalaşdırılması, reytinq qiymətləndirilməsinin keçirilməsi, təkliflərin müzakirəsinin və sənədlərin təsdiqinin rəhbərlik səviyyəsində aparılması bunun təzahürüdür.

#### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi tədris, elm, beynəlxalq əlaqələr, informasiya-texniki təminat, təminat məsələləri üzrə aidiyyəti strukturlarla qarşılıqlı əməkdaşlıq edir. Şöbənin aidiyyəti strukturlardan məlumat əldə etmə imkanı mövcuddur. Eləcə də, ATU-nun Elmi Şurasında qəbul edilən qərarlar struktur rəhbərləri ilə paylaşılır. Bununla yanaşı, məhz keyfiyyət təminatına dair məsələlər şöbənin əməkdaşları tərəfindən strukturlara və ya maraqlı tərəflərə ötürülür.

ATU-da strukturlararası əlaqənin korporativ e-mail vasitəsilə həyata keçirilməsinin genişləndirilməsi tövsiyə olunur.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ATU-da ali təhsilin bakalavriat səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat

(əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na (https://e-qanun.az/framework/41438) uyğun olaraq, magistratura səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na (https://e-qanun.az/framework/20015) uyğun olaraq və doktorantura səviyyəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na (https://e-qanun.az/framework/23253 ) uyğun olaraq tələbə, magistrant və doktorant (dissertant) qəbulu həyata keçirilir. Rezidentura pilləsinə qəbul "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli qərarını (https://e-qanun.az/framework/34840 ) rəhbər tutaraq həyata keçirilir. Azərbaycan Tibb Universitetində 6 fakültə fəaliyyət göstərir. ATU-da orta ixtisas təhsili, bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura, rezidentura və doktorantura səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır. Bakalavr səviyyəsində 3 ixtisas, əsas (baza ali) tibb təhsili üzrə 5 ixtisas, magistratura səviyyəsində 4 ixtisas (9 ixtisaslaşma) rezidentura səviyyəsində 60 ixtisas və orta ixtisas təhsili səviyyəsində 1 ixtisas (feldşer), doktorantura səviyyəsində 3 ixtisas (elm sahələri üzrə) üzrə kadr hazırlığı aparılır.

Tələbə qəbulu üzrə planlaşdırma ATU-nun təhsil və elm üzrə prioritetləri, əmək bazarının tələbləri, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialı, məzunların işədüzəlmə və təhsilini artırma imkanları əsasında müəyyənləşdirilir və formalaşdırılır, mütəmadi olaraq işəgötürənlərlə və əməkdaşlıq əlaqələri olan qurumlarla müzakirələr aparılır, həmçinin Azərbaycan Respublikasının inkişaf strategiyaları əsasında gələcəkdə tələb olunan kadr bazasının formalaşmasına yönəlmiş siyasət üzrə proqnozlaşdırılır və optimallaşdırılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli kvalifikasiyalar Çərçivəsi"nə (e-qanun.az/framework/39622) uyğun olaraq qəbul olunmuş tələbələrin əvvəlki kvalifikasiyaları uyğun təhsil sənədləri əsasında tanınır.

Digər ali təhsil müəssisələrindən köçürülən tələbələr üçün əvvəlki akademik dövrdə öyrənilmiş fənlər fakültənin işçi tədris planının fənləri ilə müqayisə edilir və akademik fərq müəyyən olunur. Əvvəlki təhsilin kreditlərinin tanınması təhsil proqramlarının, əsas fənlərin məzmununun, həcminin, əldə edilmiş biliklərin, bacarıqların, səriştələrin və təhsilin nəticələrinin müqayisəsi əsasında aparılır. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında AR Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli 75 saylı Qərarı ilə təsdiq olunmuş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın (https://e-qanun.az/framework/19531 ) tələbləri ödənilir.

ATU-nun tələbə kontingentinin formalaşması Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Müdafiə Nazirliyi tərəfindən təsdiq olunmuş qəbul planlarına əsasən Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi test imtahanlarının nəticələrinə görə həyata keçirilir.

Təhsil səviyyələri üzrə təhsilalanların qəbulunun illər üzrə artım dinamikası:












Diaqramlardan göründüyü kimi ATU-ya bütün təhsil səviyyələri üzrə planlaşdırılmış qəbul yerləri ilə faktiki qəbul yerləri arasında təqribi eynilik var. ATU-da ixtisaslar üzrə də qəbul planına nisbətən faktiki qəbul 92%-dən çoxdur. Yalnız hərbi tibb ixtisası üzrə faktiki qəbul planın 50%-ə qədərini əhatə edir. Son illər universitetə qəbul olunan xarici tələbələrin də sayının

artmasını nəzərə alaraq Komissiya bu sahədə ATU-nun fəaliyyətinin kifayət qədər yüksək olduğunu qeyd edir.

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Universitetdə tələbə qəbulu sifarislərini optimallaşdırarkən əmək bazarının tələblərinə üstünlük verilir, müəyyən müzakirələr aparılır, görüşlər keçirilir. Bu məqsədlə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Dövlət Məşğulluq Agentliyi" ilə əks-əlaqə qurulmuşdur. Bu müzakirələrdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin və TƏBİB-in müvafiq strukturları iştirak etmişdir. Buna baxmayaraq, bu istiqamətdə geniş və ətraflı təhlillərin, müzakirələrin, sorğu və araşdırmaların aparılması daha məqsədəuyğundur. Müxtəlif ixtisaslar üzrə əmək bazarının real vəziyyətinin müəyyənləşməsi tələbə qəbulu proqnozunun faydalılığını artırır. ATU-da sahə səfəri zamanı sözügedən prosesin həyata keçirilməsi ilə bağlı təsdiqedici sənədlər təqdim olunmadığından Komissiya hesab edir ki, əmək bazarının öyrənilməsi istiqamətində işlərin inkişaf etdirilməsi və görülən işlərin sənədləşdirilməsinə ehtiyac var.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Tələbə qəbulu üzrə proqnoz yerlərinin müəyyənləşdirilməsi üçün keçirilən iclasların protokollarını, bu protokollar əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilən proqnoz yerləri barədə təqdimat məktublarını və həmçinin Nazirlikdən gələn müvafiq sənədləri təhlil etdikdən sonra müəyyən olundu ki, tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı təmin edilir.

ATU-nun fəaliyyətinin əsas istiqaməti tibb kadrları hazırlığı olduğu üçün Səhiyyə Nazirliyi və TƏBİB -in işəgötürən kimi rolu yüksəkdir. Hərbi-tibb fakültəsində tələbə qəbulu yerləri üzrə sifarişlər güc strukturlarının (sifarişçilərin) tibb kadrlarına ehtiyacına görə müəyyən edilir. Hərbi-tibb fakültəsinin tələbə-kursantları Dövlət hesabına təhsil alır və təqaüdlə təmin olunur.

Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı istiqamətdə daha geniş müzakirə auditoriyasına müraciət olunması məqsədəuyğundur.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti:

AR Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli kvalifikasiyalar Çərçivəsi"nə (e-qanun.az/framework/39622 ) uyğun olaraq qəbul olunmuş tələbələrin əvvəlki kvalifikasiyaları uyğun sənədlər əsasında tanınır.

Digər ali təhsil müəssisələrindən köçürülən tələbələr üçün əvvəlki akademik dövrdə öyrənilmiş fənlər, fakültənin işçi tədris planının fənləri ilə müqayisə edilir və akademik fərq müəyyən olunur. Əvvəlki təhsilin kreditlərinin tanınması təhsil proqramlarının, əsas fənlərin

məzmununun, həcminin, əldə edilmiş biliklərin, bacarıqların, səriştələrin və həmçinin təhsilin nəticələrinin müqayisəsi əsasında aparılır.

### *3.2 Təhsil proqramları*

#### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

ATU-da 6 fakültədə, 60 kafedrada 8 ixtisas üzrə bakalavr səviyyəsində, 4 ixtisas (9 ixtisaslaşma) üzrə magistratura səviyyəsində, 3 ixtisas (elm sahəsi üzrə) doktorantura səviyyəsində kadr hazırlaya biləcək, ştatda olan 1166 professor-müəllim heyəti fəaliyyət göstərir.

ATU-da bakalavriat və magistratura üzrə kadr hazırlığı AR Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş ali təhsil səviyyəsinin Dövlət Standartlarına-ixtisas üzrə Təhsil Proqramlarına əsasən hazırlanmış tədris planlarına və tədris proqramlarına əsaslanır. Dekanlıqlar kafedralarla birlikdə tədris planları hazırlayır və fakültənin Elmi Şurasının iclaslarında müzakirə olunduqdan sonra müvafiq struktur bölmələrində uyğun prorektorların iştirakı ilə baxılır və rektor tərəfindən təsdiq edilir. Tədris planlarına daxil edilən seçmə fənlər məzunlar və işəgötürənlərlə müzakirə olunur, əmək bazarı, cəmiyyətin və ölkə iqtisadiyyatının tələbləri nəzərə almaqla yenilənir. ATU-da əmək bazarının tələbatına uyğun olaraq orta ixtisas təhsili, əsas (baza ali) tibb təhsili, bakalavriat, magistratura, rezidentura və doktorantura səviyyələri üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

#### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

ATU-da tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğundur, Universitetin missiyasını həyata keçirməyə xidmət edir. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarının, ixtisas çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarının, qiymətləndirmə üsullarının, təlim nəticələrinin, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələblərin, tələbənin təcrübəkeçmə, işədüzəlmə və təhsilini artırma imkanlarının müəyyən edilməsi;
- Bolonya prosesinin prinsipləri əsasında təhsil mühitinin yaradılması və təkmilləşdirilməsi yolu ilə dünya standartları səviyyəsində təhsilin təmin edilməsi;
- elm, təhsil, innovasiya və səhiyyənin sıx inteqrasiyası prinsipləri əsasında yüksək ixtisaslı kadrların hazırlanması;
- cəmiyyətin inkişafı üçün innovativ texnologiyaların, proqram təminatının, metodiki və intellektual resursların təqdimatı ilə kadr hazırlığının keyfiyyətini birləşdirərək səhiyyənin müxtəlif sahələri və sosial sahə üçün mütəxəssislərin hazırlanması;
- təhsil prosesinə müasir təhsil texnologiyaları və metodlarının tətbiqi ilə səriştə əsaslı yanaşmanın həyata keçirilməsi.

Tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyətinin öyrənilməsi və öyrənmə mexanizminin daim təkmilləşdirilməsi vacib məsələlərdən

biridir. Əmək bazarının nümayəndələri ilə mütəmadi görüşlərin keçirilməsi, həmin görüşlərin protokollaşdırılması, protokolun nəticələrinin və bütün maraqlı tərəflərin təkliflərinin Elmi Şurada müzakirə olunması tövsiyə olunur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

2020-ci ildə Təhsil Nazirliyi tərəfindən bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil Proqramları təsdiq edilmişdir. Sənəddə təhsil Proqramlarının sonunda məzunun hansı ümumi və peşə kompetensiyalarına yiyələnməsi müəyyən olunmuşdur. Magistratura səviyyəsinin ixtisas üzrə təhsil proqramları 2012-ci ildə Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur. Sənəddə məzunun ixtisas xarakteristikası və kompetensiyaları, o cümlədən məzunun hansı peşə kompetensiyalarına yiyələnməsinin zəruriliyi müəyyən olunmuşdur. Rezidentura səviyyəsində təhsil "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli qərarında dəyişikliklər edilməsi barədə AR Nazirlər Kabinetinin 21 noyabr 2013-cü il 330 saylı qərarına (https://e-qanun.az/framework/27089 ) əsasən aparılır. Təlim nəticələrinin və səriştələrin təhsil proqramlarında əks olunması həm bütün proqram səviyyəsində, həm də modul, ayrıca bir fənnin səviyyəsində formalaşdırılır. Bu sənədlərə əsaslanaraq Universitetdə tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu həmişə təmin olunur. Universitet məzununun ümumi kompetensiyaları ümumi təhsilə, sosial-etik kompetensiyalara, xüsusi kompetensiyalara olan tələblər əsasında formalaşır.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

ATU-da tədris olunan təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (https://e-qanun.az/framework/39622) tələblərinə uyğundur. 6,7,8-ci səviyyələr üçün bilik və anlama, bacarıqlar, müstəqillik və məsuliyyət müəyyən edilmişdir. İxtisas üzrə təhsil proqramlarında və bu proqramlar əsasında formalaşdırılmış tədris planlarında bu tələblər nəzərə alınmışdır.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Təhsil proqramlarında təlim nəticəsi və hər bir fənn üzrə təlim nəticələri müəyyənləşdirilmişdir. Fənlərin və təhsil proqramlarının təlim nəticələrinin matrisi əsasında Universitet Təhsil proqramlarının təlim nəticələrinin əldə olunmasına necə dəstək verəcəyini müəyyən edir. Fakültə və kafedraların akademik kollektivləri təhsil Proqramlarının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədi ilə fənlərin sillabuslarını müntəzəm şəkildə yeniləşdirir. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələri və məzmun standartları

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 28.06.2020-ci il tarixli F-386 nömrəli əmri ilə təsdiq edilmiş əsas (baza) ali tibb təhsilinin ixtisas üzrə təhsil proqramları ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğun olaraq tərtib edilir. Komissiya müəyyən etdi ki, sillabusların tərtibi üçün struktur rəhbərləri və professor-müəllim heyətinə xarici ekspertlərin moderatorluğu ilə metodoloji seminar keçirilib və tətbiq üçün nümunəvi sillabus forması hazırlanıb.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

ATU-da təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğun aparılır**.** Belə ki, Universitetdə təhsil Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili- Qaydaları”na (https://e-qanun.az/framework/27030) uyğun həyata keçirilir.

Təhsil proqramlarının məzmununu formalaşdırarkən akademik heyət ixtisas üzrə təhsil proqramlarını əsas götürür. Universitet tələbələrinin həftəlik maksimal tədris yükü həcmi 45 saatdır (auditoriya və auditoriyadankənar məşğələlər nəzərə alınmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmaması tədris planlarının tərtib olunması zamanı nəzərə alınır. Universitet tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakter daşıyır və tələbələrin xarici proqramlarda iştirakına şərait yaradır. İxtisaslar üzrə tələbələrin təhsili Dövlət Təhsil Standartlarına müvafiq kredit sisteminə uyğun tədris planı və fənn proqramları əsasında müəyyənləşdirilir. Tədris fənləri təhsil proqramının tələblərinə uyğundur. Tədris planında fənlər vacibliyinə, məzmununa və mənimsənilmə ardıcıllığına görə 3 qrupa bölünür: məcburi və ardıcıl öyrənilən fənlər; məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər; tələbələrin öz seçimi əsasında öyrənilən fənlər. ATU da tədris olunan bütün ixtisaslar üzrə tədris planlarının tərtibində peşəyönümü bilik və bacarıqlar nəzərə alınır.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Təhsil Proqramına əsasən 24 kredit ümumi fənlər bölümünə və 6 kredit bu bölümün seçmə fənlərinə ayrılır. İxtisas fənlərinə (o cümlədən Mülki müdafiə) 120 kredit ayrılır. Bu bölümün seçmə fənlərinə isə 60 kredit ayrılır. Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq kafedraların akademik heyəti tərəfindən müəyyən edilir. Bu fənlər tələbələr üçün seçmə xarakter daşıyır, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaradır. Təhsil proqramları fənlərin ardıcıllığına uyğun olaraq və tədris yükünün semestrlər üzrə rasional bölüşdürülməsi nəzərə alınmaqla tədrisin ardıcıllığını əks etdirir. Təhsil proqramını formalaşdırarkən akademik fənlərin mənimsənilməsinin məntiqi ardıcıllığı nəzərə alınır. Fənlərin öyrənilməsinin məntiqi ardıcıllığı təhsil prosesinin bütövlüyünü təmin edir və lazımi kompetensiyaları əldə etməyə imkan verir.

Hərbi-Tibb fakültəsində təhsil proqramları hərbi hissələrdən məzunlarla əlaqədar gələn rəylər əsasında yenilənir. Tədris prosesinin daha da yaxşılaşdırılması üçün təhsil proqramları hər 5 ildən bir yenidən baxılaraq hazırlanır və təsdiq olunur. Tədris planları təhsil proqramlarına müvafiq tərtib edilmişdir. Tədris planlarının təkmilləşdirilməsi ATU tərəfindən əvvəlki tədris planlarının yenidən baxılması, islahatların aparılması hesabına həyata keçirilmişdir, yeni ixtisaslarla bağlı profil yönümünün tələbinə uyğun fənlər daxil edilmişdir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatların həcmi ümumi həftəlik yükün 50 %-dən çox deyil. Bunları nəzərə alaraq hesab etmək olar ki, həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarı təhsil proqramlarına uyğundur.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələri Universitetin rəsmi internet saytında yerləşdirilmişdir https://amu.edu.az/page/5060/sillabuslar və ictimaiyyət üçün əlçatandır.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Komissiya hesab edir ki, bu indikator üzrə görülən işlər qənaətbəxş deyil və təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı mexanizminin hazırlanmasına ehtiyac vardır.

## *3.3 Tədrisin təşkili*

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

İxtisasların tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28.06.2020-ci il tarixli F-386 nömrəli əmri ilə təsdiq edilmiş əsas (baza ali) tibb təhsilin ixtisas üzrə təhsil proqramlarında əksini tapmış qaydalara uyğun şəkildə və Avropa Kredit Transfer Sisteminin (AKTS) prinsiplərinə uyğun olaraq tərtib edilmişdir. İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300-360 kredit, magistraturada təhsilin normativ müddəti, 2 (iki) il olduğu halda isə 120 kredit müəyyənləşdirilir.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Ali təhsil müəssisəsinin rəhbəri tərəfindən təsdiq edilmiş ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris prosesinin qrafiki mövcuddur

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Tədris planları tədris olunan bütün ixtisaslar üzrə peşəyönümlü bilik və bacarıqlar nəzərə alınmaqla dövlət standartlarına uyğun olaraq tərtib olunmuşdur və seçim fənlər blokunun formalaşması tələbələrin maraq dairəsi və ixtisas çərçivəsində əhəmiyyətli ola bilən fənlərin nəzərə alınması əsasında aparılmışdır. Tədris planlarında məcburi və seçim fənlər bloku üzrə saatların nisbətində balans təmin edilmişdir.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.06.2020-ci il tarixli F-386 nömrəli əmri ilə təsdiq olunmuş təhsil proqramlarında əksini tapmış qaydalara uyğun şəkildə ixtisaslar üzrə Tədris planında ümumi və ixtisas fənləri arasında balans qorunur. Belə ki, 300 (5 il) AKTS kreditindən ibarət Təhsil proqramına uyğun olaraq tərtib edilmiş Tədris planında ümumi və ixtisas fənləri arasında balans (30:170), 240 (4 il) AKTS kreditindən ibarət Təhsil proqramına uyğun olaraq (30:140) və 360 (6 il) AKTS kreditindən ibarət Təhsil proqramına uyğun olaraq isə (30:200) şəklində saxlanılır.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Fənlərin və Təhsil proqramının təlim nəticələrinin matrisi əsasında tədris olunan fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilir. Bu mexanizm ilə uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, onlara nəzarət və qiymətləndirilmə prosesləri həyata keçirilir. Hər bir fənnin təlim nəticələri müvafiq fənn sillabuslarında qeyd olunur.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Universitet üzrə vahid sillabus forması tətbiq olunur.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Tədris planlarının tərtibində fənn bölümləri üzrə saatların optimal nisbəti nəzərə alınmışdır. Tələbələrin auditoriyada maksimal tədris yükü həftədə 30 saatdır. Ümumiliklə, tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verilir.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin ad və soyadlarını əks etdirən fərdi tədris planı mövcuddur (Forma 4). Birinci kursa qəbul olunan tələbələr üçün fərdi tədris planı fakültədə akademik məsləhətçilər tərəfindən hazırlansa da, növbəti tədris ilində tələbələr ixtisasın tədris planı əsasında öz fərdi tədris planını hazırlanmasına cəlb olunurlar. Özünütəhlil Hesabatında da göstərildiyi kimi fərdi tədris planında yalnız sentyabr ayının 10-na kimi dəyişiklik edilməsinə icazə verilir. Sentyabr ayının 10-na kimi FTP-da akademik borc yaranan fənn (fənlər) qeyd olunmadığı və ödəniş edilmədiyi təqdirdə həmin fənn (fənlər) üzrə tələbə tədrisə cəlb olunmur.

Göstərilən tarixlərdə tələbə tərəfindən tərtib edilməyən və dəyişiklik aparılmayan FTP-lər sentyabr ayının 10-dan sonra Universitet tərəfindən tərtib edilir, tələbə həmin FTP əsasında təhsil almaq məcburiyyətindədir; Payız semestrində akademik borcu yaranan tələbə fevral ayının 10-na kimi FTP-də dəyişiklik etməlidir. Əks təqdirdə Universitet tərəfindən müəyyən olunmuş FTP ilə təhsil alır.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

ATM-də ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planları (Forma 3) baxış keçirilən fakültələrdə mövcuddur, tədris planlarına müvafiq hazırlanmış və kredit sisteminin tələblərinə uyğundur.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Hər bir kafedrada müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı (5 illik) mövcuddur.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

Tədrisin təşkili tədris növləri üzrə (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlər) uyğunluq təmin olunmaqla "Tədrisin təşkilinə dair universitetdaxili qaydalar"a və 348 nömrəli qərara əsasən həyata keçirilir və bu zaman hər bir fənin spesifikası və səciyyəvi xüsusiyyətləri nəzərə alınır.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Məsləhət xidmətinin təşkilində təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər (tyutorlar) işinin təşkili nəzərdə tutulur. Bütün fakültələrdə (Əczaçılıq fakültəsi istisna olmaqla) tyutorlar var. Onların tədrisin təşkili prosesində yaxından iştirakları müşahidə olunur.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Sərbəst işin hazırlanmasının təşkili, təməl fənlərdə şifahi sorğu (məs. İnsan anatomiyası və tibbi- terminologiya kafedrasında mulyaj və sümük üzərində sorğu) və prezentasiya, klinik fənlərdə isə bacarıqların qiymətləndirilməsi aparılır. Əczaçılıq fakültəsində Klinik fənlərin olmaması səbəbindən fakültənin tələbələri sərbəst işlərini prezentasiya şəklində təqdim edirlər. Hər fəndən semestr ərzində 2 sərbəst iş təhvil verilməlidir. Tələbələrin sərbəst işinin hazırlanması müəllimin rəhbərliyi altında aparılır, təqdimat, video materiallar, xüsusi iş dəftərləri və layihə şəklində təqdim olunur. Sərbəst işlərin mövzuları tələbələrə semestrin əvvəlində təqdim edilir. Son təhvil verilmə tarixi haqqında məlumat həm şifahi şəkildə səsləndirilir, həm də ETS sistemində göstərilir. Sərbəst işlərin hazırlanması prosesində yaranan suallar müəllim tərəfindən cavablandırır və müvafiq məsləhətlər verilir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Universitetdə tədris və istehsalat təcrübələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” 10 sentyabr 2008-ci il tarixli 221 №-li qərarı ilə təsdiq edilmiş Əsasnamənin tələblərinə müvafiq olaraq universitetin rektoru tərəfindən təsdiq edilmiş “Azərbaycan Tibb Universitetində təcrübələrin təşkili və keçirilməsi Qaydaları”na əsasən həyata keçirilir. İctimai səhiyyə fakültəsinin tələbələri üçün Gigiyena Epidemioloji Mərkəzlərdən, Respublika Taun Əleyhinə stansiyadan, stomatologiya fakultəsi tələbələri üçün Uşaq Stomatoloji Mərkəzindən, uşaq stomatoloji poliklinikalarından, əczaçılıq fakültəsi tələbələri üçün kliniki xəstəxanalar nəzdində apteklərdən, “Buta farm” MMC, “Zeytun Pharmaceuticals” MMC, “Herba Flora” və s. müəssisələrdən təcrübə bazası məqsədilə istifadə olunur. Müalicə-profilaktika fakültələrinin III, IV, V kurs tələbələri tədris planına və istehsalat təcrübəsi proqramına uyğun olaraq elmi-tədqiqat institutlarında – Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Elmi-Tədqiqat Pediatriya İnstitutu, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutlarında, həmçinin akademik Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzi, çoxprofilli şəhər kliniki xəstəxanalarında təcrübə keçirlər.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

2014-cü il standartında təhsil alan tələbələr III kursda orta tibb işçisi “(TCK TTK), IV kursda, Ailə həkiminin köməkçisi” poliklinikalarda, V kursda isə Terapiya, Cərrahiyyə, Mamalıq və Uşaq xəstəlikləri fənləri üzrə Bakı Sağlamlıq Simulyasiya mərkəzində staj keçirlər. 2020-ci il standartında təhsil alan tələbələr isə I, II, III kurslarda klinik bacarıqlar, IV kursda ilkin tibbi yardım, təcili tibb fənlərini tədris edirlər. VI kursda isə ancaq staj keçirlər.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Kurs işi mövzuları payız semestrində tələbələrə verilir. Prezentasiya şəklində və ya yazı formatında təqdim edilə bilər. 20-25səh.olur. İşdə aktuallıq məqsəd, vəzifələr, giriş, eksperimental hissələrdən, nəticə və ədəbiyyat siyahısından ibarətdir. 10 bala qədər qiymətləndirilidi. Xüsusi blankda qeydiyyatı aparılır və kafedranın jurnalında əks olunurdu. Həmin jurnallar 5 il ərzində saxlanılır.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ATU-da Buraxılış işi nəzərdə tutulmayıb. Magistr hazırlığı Rezidentura və Magistratura şöbəsi tərəfindən “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunmasi və müdafiəsi qaydaları haqqında əsasnamə”nin təsdiqi barədə Azərbaycan Respublikası Təhsil Nazirinin 20 aprel 1998-ci ildə qəbul edilmiş 202 saylı əmrinə uyğun şəkildə həyata keçirilir. Magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclasında aparılır. İŞ magistrlik dissertasiyalarının müdafiəsi üçün qoyulan tələblərə əməl olunması və müdafiə qaydalarının pozulması halları aşkar edilərsə, ali təhsil müəssisəsinin rəhbəri şuranın fəaliyyəti ilə bağlı təşkilati tədbirlər görə bilər. İŞ işinə təhsil müəssisəsinin təqdimatı əsasında Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş kadr rəhbərlik edir. Şuraların işinə nəzarət isə nəzdində olduqları fakültənin dekanı, eləcə də ATU-nu rəhbəri və tədris işləri prorektoru tərəfindən həyata keçirilir.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

Fakültənin tərtib etdiyi təqdimat əsasında Tədris departamentinin rəhbərliyi tərəfindən təşkil olunur. I və II kurslarda imtahan qabağı 50 balın, 10 balı sərbəst işlərdən, 40 bal midterm (aralıq qiymətləndirmə) test üsulu ilə kompüter vasitəsilə aparılır. İmtahan sessiyasında maksimum toplamalı olduğu 50 bal, 25 sual hər sual 2 bal olmaqla test üsulu ilə kompüter vasitəsilə aparılır. Digər kurslarda isə imtahan qabağı 50 balın, 10 balı sərbəst iş, 10 balı davamiyyət balı, 30 bal isə midterm test üsulu kompüter vasitəsi ilə aparılır. İmtahan sessiyasında isə eyni qaydada 25 sual hər sual 2 bal olmaqla test üsulu kompüter vasitəsilə aparılır. Özünütəhlil hesabatında Bakalavr təhsil səviyyəsində hər semestrdə imtahanların sayı bir qayda olaraq 7-8-dən çox olmaması qeyd edilsə də bu bütün ixtisaslar üzrə gözlənilməyib

və bir semestrdə imtahanların sayının 9 hətta 10 olması müşahidə edilir (Stomatologiya, I Müalicə-profilaktika, II Müalicə-profilaktika fakültələri)

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

Fakültənin tərtib etdiyi təqdimat əsasında Tədris departamentinin rəhbərliyi tərəfindən təşkil olunur. Kafedralarda yay məktəbinin təşkilinə dekanlıq nəzarət edir. Yay semestri ödənişli əsaslarla aparılır. 5 həftə tədris, 1 həftə imtahan sessiyası olmaqla, 6 həftədən ibarətdir. Yay məktəbində tələbə onun üçün xam olan (fənnin tədrisində heç və ya 50 % dən az iştirak edən ) fənni götürə bilməz. (Qeyri tibbi və ya ictimai fənlər istisna haldır). Yay məktəbində 1 tələbə 10 kreditdən artıq fənn götürə bilməz. Yay məktəbində tələbə, fənnin qiymət artımı ilə əlaqədar olaraq da iştirak edə bilər. Əgər tələbə əvvəlki qiymətindən aşağı nəticə əldə edərsə, əvvəlki qiymət qüvvədə qalır. Yay məktəbində müəllimlərin cəlb olunması könüllülük prinsipi ilə aparılır. Yay semestrində (yay məktəbi) üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələrə payız semestri başlamazdan əvvəl bir dəfə imtahan verməsi üçün şərait yaradılır. Yay semestrində ayrılan əlavə imtahan vaxtında yalnız yay semestrinin imtahanını üzrlü səbəbdən buraxanlar iştirak edə bilərlər, digər semestrlərdən (payız və yaz) akademik borcu qalanlar iştirak edə bilməz.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikasının əks olunduğu cədvəldən göründüyü kimi, 2017-ci ildən sonrakı 5 il ərzində kredit borcu olan tələbələrin sayında ciddi azalma müşahidə edilir.

**Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası**

| İllər / Fakültələr | 2017 / 2018 | 2018 / 2019 | 2019 / 2020 | 2020 / 2021 | 2021 / 2022 | Bu illər ərzində toplam təhsilalan sayı |
|---|---|---|---|---|---|---|
| **I Müalicə-profilaktika** | 259 | 264 | 109 | 5 | 63 | 10723 |
| **İctimai Səhiyyə** | 24 | 30 | 8 | 3 | 20 | 2226 |
| **Stomatologiya** | 268 | 282 | 138 | 134 | 193 | 5926 |
| **Hərbi tibb** | 44 | 46 | 2 | 2 | 11 | 1962 |
| **II Müalicə-profilaktika** | 167 | 153 | 84 | 97 | 75 | 10845 |
| **Əczaçılıq** | 27 | 25 | 22 | 20 | 17 | 2276 |
| **Cəmi:** | **789** | **800** | **363** | **261** | **379** | |

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Kredit borcu yaranmış fənlərin ümumi sayının tədris illəri üzrə dinamikasının əks olunduğu cədvəldən göründüyü kimi, 2017-ci ildən sonrakı 5 il ərzində kredit borcu yaranmış fənlərin ümumi həcmində azalma müşahidə olunur.

**Kredit borcu yaranmış fənlərin ümumi sayının tədris illəri üzrə dinamikası**

| Fakültələr \ İllər | 2017 / 2018 | 2018 / 2019 | 2019 / 2020 | 2020 / 2021 | 2021 / 2022 |
|---|---|---|---|---|---|
| **Hərbi tibb** | 58 | 50 | 59 | 57 | 39 |
| **İctimai Səhiyyə** | 24 | 30 | 8 | 3 | 20 |
| **Stomatologiya** | 66 | 60 | 43 | 72 | 61 |
| **II Müalicə-profilaktika** | 100 | 140 | 95 | 97 | 88 |
| **I Müalicə-profilaktika** | 51 | 45 | 11 | 7 | 24 |
| **Əczaçılıq** | 60 | 53 | 53 | 54 | 45 |
| **Cəmi** | **359** | **378** | **269** | **290** | **277** |

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Tədris ili boyunca tədris prosesinin səmərəliliyi və təkmilləşdirilməsi vəziyyəti müvafiq dekanlıq tərəfindən mütəmadi nəzarətdə saxlanılır. Bu məsələlərə həmçinin innovasiya və keyfiyyətin idarə olunması şöbəsi də nəzarət edir.

## *3.4 Tədris metodları və üsulları*

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Özünütəhlil Hesabatında və müəllimlərlə sahə səfəri zamanı ATU-da tədris prosesinin təşkilində həm ənənəvi mühazirə və seminar, həm də innovativ və interaktiv təlim üsullarının tətbiq edildiyi müəyyən edildi. İnteraktiv mühazirələr, praktik və seminar məşğələləri, laboratoriya işləri, xəstələrlə bilavasitə iş, istehsalat və tədris təcrübələri, elmi-tədqiqat işləri, sərbəst işlər və layihələr.
ATU-nun fakültə və kafedralarında tədrisin təşkili zamanı alternativ təlim metodlarından (tapşırıq əsaslı öyrənmə, klinikəsaslı öyrənmə, probleməsaslı öyrənmə, nümunə (case) əsaslanan öyrənmə, dəyirmi masa kimi tibb təhsilinə uyğun daha interaktiv metod və texnologiyalardan istifadə edilməsi tövsiyə edilir.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Özünütəhlil Hesabatında universitetdə tədris proseslərində tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktik tətbiqə əsaslanan tədris

yanaşmalarından istifadə edildiyi qeyd olunmuşdur. Eyni zamanda fənnin xüsusiyyətlərindən asılı olaraq problem yönümlü tədris (həm klinik, həm nəzəri fənlərin tədrisində), situasiya məsələləri əsaslı, səriştə əsaslı (əsasən, klinik fənlərdə) tədris metodları istifadə olunduğu və bu metodların sillabuslarda öz əksini tapdığı ifadə olunsa da sillabuslarda bu üsulların istifadə edildiyi haqqında məlumatlar yer almamaqdadır.

Sahə səfəri zamanı müxtəlif kafedraların fənlərinə video çarxlar və təqdimatların nümayiş etdirildiyi müşahidə olunmuşdur. Eyni zamanda Cərrahiyə kafedrasında əməliyyatların translasiya yoluyla tədrisdə canlı nəqli vasitəsilə dərslərin praktiki və nümunə əsaslı tədrisinin aparıldığı da müəllimlər tərəfindən qeyd edilmişdir. Stomatologiya fakültəsində də tədrisin maksimum dərəcədə praktiki təşkili müşahidə edilmişdir.

ATU-da bu prakiti tədrisin bütün ixtisaslarda tətbiqi prosesinin davamlılığının izləməsi, tələbəyönümlü tədrisi dəstəkləməsi üçün lazımi maddi texniki bazanı təmin etməsi tövsiyə edilir.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATU-də təhsilin əyani forması tətbiq edilir. Rezindenturada təhsilin əsasən praktiki və tədqiqatyönümlü təşkil edildiyi müşahidə edilmişdir.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

ATU-da dərslərin əsasən mühazirə və seminar şəklində təşkil edildiyi universitetin veb-saytında yerləşdirilmiş sillabusların tədqiqi vasitəsilə ortaya çıxarılmışdır. Özünütəhlil Hesabatında qeyd edilən təlim metodlarının bəzilərinin əslində tibb təhsilinə uyğun olmadığı, sillabusların araşdırlıması zamanı da aşkarlanmışdır. Sillabuslarda qeyd olunan üsullardan bəzilərinin də fənnin spesifikasına uyğun olmadığı müşahidə edilir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Məsələn rollu oyun, masanın mərkəzində qələm və s. Özünütəhlil Hesabatında qeyd olunan bu üsullar sahə səfəri zamanı nə dərslərdə, nə tələbələrlə nə də müəllimlərlə görüşlərdə müşahidə edilmişdir.

ATM-yə sillabusların təkmilləşdirilməsi, sillabusların komponentləri baxımından uyğunlaşdırılması, müəllimlərin təlim prosesində istifadə edə biləcəkləri, daha interaktiv və motivasiyaedici üsullarla bağlı beynəlxalq təcrübənin araşdırlıması, peşəkar təlimlərin təşkil edilməsi tövsiyə edilir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

ATU-da mühazirə dərsləri xaricində dərslərin kiçik qruplarla təşkili, eyni zamanda kafedralarda tələbələrə yaradılan şərait, tələbələrlə fərdi işin təşkili sahə səfəri zamanı müşahidə olundu. Həm bakalavr, həm magistratura və rezidentura tələbələrinin fərdi maraq və xüsusiyyətlərinə görə şərait yaradıldığını söyləmək mümkündür. ATU-da tələbə-müəllim münasibətlərinin işgüzar mühitdə təşkili üçün şərait yaradıldığı müşahidə olunur.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

Tədris prosesində ümumilikdə nəzəri fənlərin tədrisində ənənəvi mühazirə seminar yanaşması tətbiq edilsə də , ayrı-ayrı kafedralarda fənnin xüsusiyyətindən asılı olaraq təlimin ATU-nun maddi texniki bazasının imkan verdiyi səviyyədə praktikiləşdirildiyini söyləmək mümkündür. Əslində tibb təhsilinin xüsusiyyəti baxımından icra edərək öyrənmə yanaşmasından daha çox müşahidə edərək öyrənmə yanaşmasının istifadə edildiyi müşahidə olundu. ATU-da yeni açılan Tibb bacısı işi ixtisasının xüsusi ilə aktiv öyrənməni təşviq edən texnoloji yanaşmalar əsasında qurulduğu müşahidə olunmuşdur.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında universitetdə bu istiqamətdə müxtəlif təlimlərin təşkil edildiyi qeyd olunur. Hesabatda qeyd olunan təlimlər əsasən planlaşdırma və sillabusların hazırlanması ilə əlaqədardır.

Universitetdə son bir ildə fəaliyyət göstərən İnnovasiya və Keyfiyyətin idarəolunması şöbəsinin iş planından aydın olur ki, universitetdə bu tədris ili ərzində bu istiqamətdə tədbirlər planı həyata keçirilməsi planlaşdırılır.

ATM-ə tibb sahəsində aktiv öyrənməni təşviq edən yeni təlim metod və texnologiyalara dair əməkdaşlığı olduğu universitetlərlə müxtəlif seminar, təlim və görüşlərin təşkili, təcrübə mübadiləsi proqramının təşviqi tövsiyə edilir.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

Universitetin 32 klinik kafedrasının tədris və elmi prosesi universitetin 4 tədris tibb klinikası (Tədris Onkoloji Klinikası, Tədris Cərrahiyyə Klinikası və Tədris Terapevtik Klinikası) eləcə də Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, 2 saylı Psixiatriya xəstəxanası, Respublika Dəri-Zöhrəvi Dispanserində, stomatoloji profilli kafedralar universitetin Tədris Stomatoloji Klinikasında təşkil edilir. Terapevtik və cərrahi kafedralarda universitetdən asılı olmayan səbəblərdən xəstələrin sayının az olması xarici və yerli tələbələrin narazılığına səbəb olur ki, bu da tələbələrin praktik peşə vərdiş və bacarıqlarına yiyələnməsini çətinləşdirir. Məsələnin aidiyyəti qurumlarla qısa müddət ərzində həlli tövsiyə olunur, əks halda bu, tələbələrin digər universitetlərə axınını artıra və Azərbaycan Tibb Universitetinin reytinqini zəiflədə bilər. Xəstələrin sayının tədris klinikasında artmasına nail olunması praktiki dərslərin keyfiyyətinin yaxşılaşdırar, tələbələrin təcrübi bilik və vərdişlərini daha da artıra və universitetdən tələbə axınına müsbət təsir edə bilər.

Azərbaycan Tibb Universitetində İnformasiya idarəetmə sistemi 2018-ci ildə yaradılmışdır və inkişaf etdirilərək tam fəaliyyət göstərir və universitetin həyatında əsas prosesləri əhatə edir. Bu sistem universitetimizin tədris prosesinin idarə edilməsi sahəsində

qərarlar qəbul etmək üçün istifadə olunan analitik məlumatların toplanması, saxlanması, emalı və verilməsi üçün nəzərdə tutulmuşdur.

İnformasiya sisteminin tərkib hissələri modul prinsipi əsasında qurulub, hər bir modul xüsusi funksiyası olan informasiya massividir. Bu modullar aşağıdakılardır:

- Elektron Tədris Sistemi (ets.amu.edu.az)
  - dərs qeydiyyatı modulu (davamiyyət),
  - sərbəst iş modulu,
  - qiymətləndirmə modulu,
  - anket modulu,
  - tədris materialları modulu,
  - midterm modulu,
  - final imtahan modulu;
- Tələbə Məlumat Sistemi (tms.amu.edu.az)
  - təkrar imtahan modulu,
  - fənn qeydiyyatı modulu,
  - tədris planları modulu,
  - qruplar modulu,
  - tələbə axtarış modulu;
- Tələbə şəxsi kabineti (my.amu.edu.az)
  - arayış modulu,
  - transkript modulu;
- ATU əməkdaşlarının xarici ölkələrdə ezamiyyəti sistemi (international.amu.edu.az);
- Azərbaycan Tibb Universitetinin rəsmi internet saytı (amu.edu.az)
- İmtahan Mərkəzi. ATU-nun mövcud strukturuna uyğunlaşdırılıb. Universitetin bütün kurslarına aid tələbələrin hamısının eyni zamanda bu sistem üzərindən mərkəzləşdirilmiş vahid imtahan sistemi vasitəsilə imtahanlarını vermələri üçün şərait yaradır.
- Korporativ email sistemi –*@amu.edu.az* (Gmail)

Bir-birinə bağlı olan modullar vahid informasiya mühitini təşkil edirlər. İstifadəçilər öz səlahiyyətinə uyğun olaraq gündəlik yenilənən məlumatlardan yararlanırlar.

ATU-nun İnformasiya idarəetmə sistemində səlahiyyətlər ATU-nun Tədris departamenti, Fakültə dekanlıqları, Kafedralar və İmtahan Mərkəzi arasında bölünüb.

Bütün universitet binalarında yerləşən dərs otaqları mərkəzləşdirilmiş internetlə, İT avadanlıqlarla təchiz olunub. Zərurət yarandığı halda Elektron Təhsil Sistemi vasitəsilə distant dərslər təşkil edilir.

Universitetin istənilən tələbəsi, müəllimi və əməkdaşı lazımi məlumatı təkcə ATU-nun divarları daxilində deyil, həm də Universitetdən kənarda əldə edə bilər. Sistemdən ümumi istifadəçi sayı: tələbə - 10209, personal – 1978 nəfər təşkil edir.

İnformasiya idarəetmə sistemi vasitəsi ilə tələbələr semestr ərzində keçdiyi fənlərin tədris olunma keyfiyyətinə öz münasibətlərini bildirirlər. Semestr sonunda tələbə Anket moduluna daxil olaraq fənni tədris edən müəllim, fənnin sillabusu, dərs otağı, dərsin aparılma

şəraiti, dərs zamanı istifadə edilən avadanlıqlar haqqında öz fikirlərini qeyd edir və bu anket sorğusunun nəticələri müzakirə olunaraq dərhal tədbirlərin görülməsini təmin edir. İmtahanlar yekunlaşdıqda isə tələbələrin biliyi və bacarıqları nəticələri çıxarılıq ki, bu statistikanın müşahidəsi aparılan dərslərin mükəmməlliyi haqqında nəticə çıxarmağa kömək edir.

İnformasiya idarəetmə sisteminin saxlanılması, təhlükəsizliyi, məxfiliyi və etibarlılığı universitetin 13.03.2023-cü il 09 saylı müqaviləsinə əsasən təmin edilir.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Tədris binalarında dərslərin keçirilməsi və tələbələrin gündəlik ehtiyaclarının təmin edilməsi üçün infrastruktur yaradılıb-kafedraların əksəriyyətində proyektor, kompüter, kafedranın öz kitab fondu, ayəni vasitələr mövcuddur. Lakin kompüter laboratoriyalarında tam işlək kompüterlərin sayı azdır, Tədris terapevtik korpusda kompüterlərlə təmin olunma zəifdir, internet və wi-fi mövcud deyil. Farmakoloji laboratoriyalarında bəzi reaksiyaların aparılması üçün otaqda xüsusi temperaturun olmasını tələb olunan hallara baxmayaraq kondisionerlərin sayı məhduddur.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

Azərbaycan Respublikası Təhsil Nazirinin təsdiq etdiyi 11.09.2008-ci il tarixli 1060 nömrəli Əsasnaməyə uyğun olaraq Tələbələrin dərsdə iştirakı və aktivliyinin təmin edilməsi üçün elektron jurnal bölməsi fəaliyyət göstərir. Dərs zamanı tələbənin dərsdə olması, qiymətləndirmə müəllim tərəfindən elektron jurnalda müvafiq olaraq “qaib”, “iştirak edir” və ya “bal yazılması” ilə aparılır. Professor-müəllim heyəti auditoriyalarda elektron tədris platformasından və jurnaldan müvafiq təlimatlara uyğun istifadə edir. Lakin internet kəsilmələri elektron jurnallarla yanaşı kağız daşıyıcılarından da istifadəni labüd edir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Universitetdə tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu qismən təmin edilib və bu istiqamətdə təkmilləşmə işləri görülür. İstənilən təhsil proqramı üçün müasir rəqəmsal xidmətlərin və texniki təminatın mövcudluğu vacibdir. Bu baxımdan universitetdə müəyyən auditoriyaların proyektor, kompüter və internetə çıxış ilə təmin edilməsi, kompüterlərlə təchiz olunmuş laboratoriyalar və elektron kitabxananın mövcud olması və təhsilalanların universitetin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışının təmin edilməsi istiqamətində görülən işlər təqdirəlayiqdir. Bu sahədə Universitet daha da çox iş görməli, mövcud texniki infrastrukturu daha da inkişaf etdirərək bütün mühazirə və məşğələ otaqlarını proyektor, kompüter və internetə çıxış ilə təmin etməlidir. Eləcə də universitetin bütün ərazisindəki mövcud laboratoriyalarda (computer labs) kompüterlərin internetə çıxışının hər kəs üçün əlçatan olmasının təmin edilməsi zəruridir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Tədris binalarında dərslərin keçirilməsi və tələbələrin gündəlik ehtiyaclarının təmin edilməsi üçün bütün infrastruktur yaradılıb. Auditoriyalar müasir texniki və nümayiş qurğuları ilə təchiz olunub. Universitet departamentləri və təhsil bölmələri kompüter avadanlığı ilə təmin edilib və internetə çıxış imkanı əldə edir. 1 GB tutumuna malik olan yerli internet şəbəkəsi 300-ə yaxın stasionar kompüterlə özündə birləşdirir. Universitetin fəaliyyətdə olan 4 yataqxanası internetə qoşulmuşdur. Xarici və daxili əlaqələr onlayn vasitəsi ilə həyata keçirilir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

ATM-də auditoriya fondu 13952 kv.m. təşkil edir. Bundan 4750 kv.m. mühazirə zallarının, 7620 kv.m. məşğələ otaqlarının, 1582 kv.m. isə laboratoriyaların payı təşkil edir. Bir təhsilalana düşən sahə 22,08 kv.m. təşkil edir və normativə uyğundur.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 241 otaqdan (sahəsi 2856 kv.m.), inzibati heyətin fəaliyyətini təmin edən otaq fondu 95 otaq(2865 kv.m.) təşkil edir. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası uyğun hesab olunur.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Tədris prosesinin informasiya komponenti universitetin əsaslı kitabxanası tərəfindən təmin edilir. Kitabxananın lokal şəbəkəsini 16 kompüter, 1 server, surət çıxaran avadanlıq və skanerlər birləşdirir. 2010-cu ildə kitabxana prosesinin avtomatlaşdırılması məqsədi ilə Rusiyanın "İRBİS64+" elektron kitabxanası layihəsi əldə edilmişdir. Bu proqram əsasında fondun elektron kataloqunun yaradılması prosesinə başlanılıb. Bu proses hazırda da davam etdirilir. Kafedralarda 550 nüsxədən ibarət yardımçı fondlar yaradılmışdır. Əksər kafedralarda yeniləşmiş dərsliklər mövcuddur, bir neçə sahələrə həsr olunmuş metodik tövsiyyələr və müəyyən xəstəliklərin müalicəsi üçün protokollar hazırlanır.

Azərbaycan Tibb Universitetinin Əsaslı kitabxanası tələbələrin istəyini nəzərə alaraq, 2022-ci il may ayından həftənin 3 günü 24 saat, digər günlər isə (bazar günü və bayram günləri istisna olaraq) 12 saat (9.00-21.00) xidmət göstərir. İyul-avqust aylarında – həftənin 5 günü 9.00-17.00 rejimdə fəaliyyət göstərir. Kitabxana həftənin 1-3-5 günləri 24 saat çalışması tədris prosesinə kifayət qədər uyğundur. Digər ölkələrin universitetləri ilə beynəlxalq çərçivəsində yeni ixtisaslar (tibb bacısı işi və s.) tədrisi üçün müxtəlif dillərdə dərs vəsaiti və dərsliklər daxil olub. Kitabxana başqa universitetlərin kitabxanalarından fərqli olaraq bütün il boyu fəaliyyət göstərir və bu da yay aylarında ehtiyacı olan rezidentlərə, diqər tələbə və dissertantlar üçün geniş imkan yaradır. Kitabxananın əsas kitab fondu Rusiyanın "İRBİS64+" elektron kitabxanası layihəsi əsasında elektron kataloquna yerləşdirilmişdir ki, bu da kitabın axtarışını və seçilməsini daha

da asanlaşdırır. Kitabxanada rus dilində çap olunan 31 Rusiya tibb jurnallarına universitetin vasitəsi ilə abunə olunmuşdur.

Kitabxanada müasir tibbi ədəbiyyatının sayının artırılması, kitabxanada İnternetin istifadəsinin artırılması və oxu zallarının kompüterlərlə təmin olunması kitabxananın daha müasir səviyyəyə çatmasna şərait yaradardı.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Cari (ümumi) kitab sayı 437232 ədəd, kitabxana fonduna daxil olan son 5 ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) sayının fondda olan kitabların ümumi sayına nisbəti 3.7 təşkil edir. ATU-nun beynəlxalq elmi-metrik bazaya ("EBSCO" elektron kitab bazası) çıxışı mövcuddur.

ATU-nun kitabxanasında fondun yenilənməsi və zənginləşdirilməsi istiqamətində son illər xeyli iş görülmüşdür. Kitabxana fondunun komplektləşdirilməsinin strateji istiqamətləri müəyyənləşdirilmişdir. Tələbə və müəllim heyətinin kitabxanaya olan tələbatını ödəmək üçün müvafiq ixtisas kafedralarının sifarişləri əsasında kitabxana fondu dövrü olaraq yeniləşir, mübadilə əsasında digər Universitet kitabxanaları, dövri nəşrlər, internet resurslarından geniş istifadə olunur. Digər ölkələrin universitetləri ilə beynəlxalq çərçivəsində yeni ixtisaslar (tibb bacısı işi və s.) tədrisi üçün müxtəlif dillərdə dərs vəsaiti və dərsliklər daxil olub. Rezidentlər üçün nəzərdə tutulmuş 8 fənn üzrə 159 nüsxə dərs vəsaiti kitabxanaya daxil olmuşdur.

Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

| Tədris ili | Vahid oxucu bileti üzrə | Oxucu gəlişi | Kitab verilişi | Ümumi fond | Artım dinamikası |
|---|---|---|---|---|---|
| 2017-2018 | 11201 | 128906 | 993009 | 631430 | 1,57 |
| 2018-2019 | 10807 | 134241 | 1081993 | 636571 | 1,69 |
| 2019-2020 | 10616 | 139803 | 1094392 | 641204 | 1,70 |
| 2020-2021 | 11056 | 42682 | 717300 | 643916 | 1,11 |
| 2021-2022 | 11300 | 61454 | 776455 | 641582 | 1,21 |
| 2022-2023 | 11795 | 242477 | 1572283 | 642125 | 2,24 |

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Kitabxananın dərslik fondunda rus dilində dərsliklər 329446, ingilis dilində isə 64728 təşkil və onların müəyyən hissəsi köhnədir, xüsusən də ingilis dillərində kitab fondunun

mövcudluğu və artım dinamikası qənaətbəxş deyil. Elektron kitabların sayı 250 təşkil edir və sayı kifayət qədər deyildir.

Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası (İngilis, Azərbaycan və Rus dilləri üzrə)

| Tədris ili | Daxil olan dərsliklərin sayı | Fondun ümumi sayı | Artım dinamikası |
|---|---|---|---|
| 2017-2018 | 1932 | 631430 | 0.3 |
| 2018-2019 | 4448 | 636571 | 0,6 |
| 2019-2020 | 4115 | 641204 | 0,6 |
| 2020-2021 | 2536 | 643916 | 0,6 |
| 2021-2022 | 2373 | 641582 | 0,3 |
| 2022-2023 | 1136 | 642125 | 0,3 |

| Tədris ili | Daxil olan kitab sayı | İngilis fondunun ümumi sayı | Artım dinamikası |
|---|---|---|---|
| 2017-2018 | 144 | 64386 | 0,2 |
| 2018-2019 | 186 | 64626 | 0,2 |
| 2019-2020 | 62 | 64634 | 0,2 |
| 2020-2021 | 19 | 64654 | 0,2 |
| 2021-2022 | 58 | 64713 | 0,2 |
| 2022-2023 | 82 | 64748 | 0,2 |

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Kitabxana resurslarının yenilənməsi və elektron kitabxananın tətbiqi üçün ayrılan vəsait 2018-2022-ci illər üçün 2000 manat, 2023-cü ildə isə 2500 manat təşkil etmişdir. Beləliklə, bu məqsədlər üçün ayrılan vəsaitin miqdarı və onun artım dinamikası yetərli deyil, məsrəflərin müasir ədəbiyyatın əldə edilməsi istiqamətində artırılması tövsiyə olunur.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

Universitetdə mövcud təlim və tədris resursları istifadə olunur və yenilənmə prosesi mütəmadi olaraq davam edir. Yeni kompüter laboratoriyalarının və tədqiqat laboratoriyalarının istifadəyə verilməsi, ağıllı lövhələr, proyektorlar və s. avadanlıqların alınması, elektron kitabxana fondunun zənginləşməsi, simulyasiya mərkəzinin yaradılması və inkişaf etdirilməsi və s. kimi işlərin görülməsi bu sahədə müsbət hal kimi qiymətləndirilə bilər.

**3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti**

ATU-da təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı ümumilikdə təmin edilir. Əlavə tam işlək vəziyyətdə olan və sürətli internetlə təmin olunan kompüterlərin sayının mövcud tələbə sayına uyğun olaraq daha da artırılması tövsiyə olunur. Tədris resurslarının təhsilalanlar üçün əlçatanlığı təmin edilir. Kafedralarda kitab fondu və universitetin öz nəşriyyatı mövcuddur.

**3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti**

Universitetə qəbul olunan şəxslər sağlamlıq haqqında arayış təqdim edirlər.

ATU-da sağlamlığında qüsuru olan (1-ci və 2-ci qrup əllik) 10 tələbə ödənişli əsaslarda təhsil alır. Bu tələbələr təhsil haqqı ödənişindən azad olunmuşlar. 15 tələbə Valideyn Himayəsindən Məhrum (VHM) sosial qrupuna aiddirlər. Bu kateqoriyada olan tələbələrə aşağıdakı qaydalara müvafiq sosial dəstək göstərilir:

- ödənişli əsaslarla təhsil aldıqda təhsil haqqından azad olunur.
- Bununla yanaşı topladığı bala uyğun 2 misli miqdarında təqaüd və 50 manat maddi yardım alır (ildə bir dəfə birdəfəlik dərslik və dərs ləvazimatı əvəzinə). ÜOMG sıralamasına adı düşdükdə, müvafiq miqdarda təqaüd ödənilir.
- Universiteti bitirdikdə yaşı 23 tamam olmayıbsa, mövcud qanunvericiliyə görə ATU-nun xərclər smetası hesabına respublika üzrə əmək haqqının 2 mislindən az olmamaqla, birdəfəlik pul vəsaiti ilə, eyni zamanda 265 manat (mövsümü paltar və ayaqqabı) maddi yardım verilir.

İnstitutun əsas inzibati binasında lift yoxdur. Yaşlı əməkdaşların hərəkətini asanlaşdırmaq məqsədilə binanın liftlə təmin olunması məqsədəuyğundur.

ATU-da həmçinin Qaçqın və məcburi köçkün ailələrin övladları (192 tələbə), şəhid, müharibə əlili, qazi övladları (34 tələbə) təhsil alır. Bu qrup tələbələr təhsil haqqı ödənişindən azad olunmuşlar.

**3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti**

Professor-müəllim heyəti 5 ildən bir təkmilləşmə kurslarına cəlb olunurlar. Pedaqoji heyət üçün Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə TOT təlimləri təşkil olunmuş, müəllim heyəti tibb elmlərinin tədris metodlarına yiyələnmələri haqqında müvafiq sertifikatlar almışlar .Rektorun əmrinə əsasən bu sertifikat müəllim heyətinin vəzifəyə təkrar seçilməsi üçün müsabiqəyə buraxılması zamanı zəruridir. Bundan başqa professor-müəllim heyəti xarici ölkələrdə bir sıra elmi-tədris tədbirlərində iştirak edirlər. Xarici ezamiyyətlərin sayının artırılması və buna ayrılan maliyyə vəsaitlərinin daha da artırılması məqsədəuyğundur.

**3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

ATU-nun 5812 kv. metr ümumi sahəsi olan 5 mərtəbəlik Tədris İdman Kompleksi, o cümlədən sahəsi 1683 kv. metr olan üzgüçülük hovuzu mövcuddur.

2017/2023-cü tədris ilində "Təbib" idman klubu öz iş fəaliyyətini Rektor tərəfindən təsdiqlənmiş Əsasnaməyə uyğun olaraq, illik İş Planı əsasında qurmuşdur. Klubda məşqçi-müəllimlər tərəfindən həftənin şənbə günləri də daxil olmaqla, cədvəl üzrə Hərbi Tibb Fakültəsinin tələbələrinə və Tibb Məktəbinin (Feldşer) I-II kurs kursantlarına fiziki tərbiyə dərsləri keçirilir. Bu illər ərzində "Təbib" idman klubunda 12 idman növü üzrə 11 nəfər yüksək dərəcəli ixtisasçı məşqçi-müəllim və 1 kompüter üzrə operator çalışır. Onlardan 1 nəfər professor, 2 nəfər pedaqogika elmləri üzrə fəlsəfə doktoru, 3 nəfər Respublikanın Əməkdar məşqçisi, 5 nəfər idman ustası, 2 nəfər beynəlxalq dərəcəli hakim, 2 nəfər Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, 1 nəfər Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi fəxri adlarına layiq görülmüş kadrlardır. Klubun məşqçi-müəllimləri hər tədris ilinin sentyabr ayında I kurs tələbələrinin sənəd qəbulunda iştirak edir, tələbələrlə idmanın insan orqanizminə müsbət təsiri haqqında maarifləndirici söhbətlər aparır, eləcədə asudə vaxtlarını səmərəli keçirmək və zərərli vərdişlərdən uzaqlaşdrmaq üçün həvəsi olan tələbələri idman bölmələrinə cəlb edirlər.

2017/2021-cİ tədris illərində "Təbib" idman klubu, ali təhsil müəssisələri arasında keçirilən Universiada və Spartakiada yarışlarında iştirak edirdilərsə, 2021/2022-ci tədris ilindən ATU-da bir çox mədəni və kütləvi idman tədbirləri təşkil olunmağa başlamışdır. Sosial dəstək çərçivəsində ATU-da müxtəlif tələbə kateqoriyalarına planlı yardım göstərilir.

### 3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

Azərbaycan Tibb Universitetinin Elmi Şurasının qərarına əsasən, universitetin nəzdində psixoloji yardım mərkəzi yaradılıb.

Mərkəzdə professor-müəllim və işçi heyətinə, o cümlədən tələbələrə psixoloji yardım göstərilir. Şəxsi həyatında, sosial mühitlə bağlı, həmçinin adaptasiya olunmaqda çətinliklər yaşayan həkim, müəllim və ya inzibati-texniki işçilər, eləcə də tədrisdə problemləri olan tələbələr bu mərkəzə müraciət edə bilərlər.

Mərkəz ATU-nun beş klinik psixoloqunun fəaliyyətini əhatə edir. Belə ki, Tədris Terapevtik Klinikada 3, Lökbatan poliklinikasında 1 və Yasamal rayonunda yerləşən 16 saylı poliklinikada 1 nəfər olmaqla, mütəxəssislər ehtiyacı olanları qəbul edir. Bununla əməkdaşlara və tələbələrə yaxın yerləşmək məsələsi nəzərə alınıb.

İş qrafiki səhər saat 9-dan axşam saat 6-ya kimidir. Konsultasiyalar 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparıldığından, xarici tələbələr də müraciət edə bilər.

Psixoloji yardım ödənişsiz əsaslarla həyata keçirilir. Mərkəzin əsasnaməsi mövcuddur.

***Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi***

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

Universitetdə semestr imtahanlarında tapşırıqların hazırlanması üçü hazırlanmış metodiki vəsait universitetin rəsmi veb saytında yerləşdirilmişdir. ("Test tapşırıqlarına olan tələblər, onların tərtibi qaydaları və ekspertizası", "Klinik və təcrübi bacariqlarin qiymətləndirilməsinə dair metodik tövsiyələr") Həm qapalı tapşırıqların, həm də klinik və təcrübi bacarıqların qiymətləndirilməsini əhatə edən bu tapşırıqlar test üsulu ilə keçirilməsinə dair metodik tövsiyələrin, nümunələrin olduğu təlimatın həm elmi, həm struktural, həm də qrammatik baxımdan yenidən işlənib hazırlanmasına ehtiyac var. Hazırlanmış metodiki təlimatda əsasən

qapalı tapşırıqların tərtibatına dair qaydalar və nümunələr yer almaqdadır və bu nümunələr Blum taksonomiyasının bilik səviyyəsini əhatə edir. Daha üst səviyyələri ölçməyə imkan verən situasiya tapşırıqlarının hazırlanmasına və qiymətləndirilməsinə dair nümunələr mövcud deyil. Hesabatda da qeyd olunduğu kimi imtahanlar sadəcə faktiki biliklərin ölçüldüyü qapalı tapşırıq növlərindən ibarət testlər vasitəsilə virtual imtahan mərkəzində, hazır cavabların yerləşdirildiyi komputer proqramları vasitəsilə həyata keçirilir. Özünütəhlil hesabatında bu mövzuda bütün kafedraların test hazırlayan ekspert müəllimləri ilə təlimlərin keçirildiyi qeyd olunsa da, bu təlimlərlə bağlı faktlar və əlavə məlumatlar təqdim olunmamışdır. Bununla belə, təhsilalanların bilik və bacarıqların qiymətləndirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 sentyabr 2008-ci il tarixli 1059 nömrəli "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında Əsasnamə"nin tələblərinə uyğun qaydalarla tənzimlənir.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ATU-da istifadə edilən qiymətləndirmə meyarları fənn sillabuslarında öz əksini tapmamışdır. Sillabuslarda 100 balın bölgüsü göstərilmiş, ancaq bu bölgü üzrə qiymətləndirmələrin hansı meyarlar üzrə aparılacağı və ya hazırlanacaq sərbəst işlərə qoyulan tələblər qeyd olunmamışdır. Bununla belə, özünütəhlil hesabatında ATU-da cari, aralıq və yekun qiymətləndirmə üçün tətbiq olunan bütün metodların (müsahibə sualları, peşəkar yönümlü situasiya tapşırıqları, testlər) etibarlılığının yoxlanılması prosedurundan istifadə edildiyi - məzmunun əsaslılığının və qiymətləndirmə metodlarının uyğunluğunun müəyyən edilməsi prosedurunun əvvəlcə kafedranın iclasında, sonra aparıcı müəllimlər tərəfindən yoxlanılması prosesində, sonra kafedrada müzakirə zamanı həyata keçirildiyi, testlərin etibarlılığının qiymətləndirilməsi ilə bağlı bütün məlumatların ATU-nun Test Mərkəzində toplanması və hər sessiyadan sonra kafedralar tərəfindən təhlil olunması qeyd olunmuşdur. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olmasını təmin edən bir mexanizm yaradılması tövsiyə olunur.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

Tələbənin nəzəri biliklərinin və praktik bacarıqlarının qiymətləndirilməsinə dair müxtəlif formalardan istifadə olunması vəziyyəti qənaətbəxşdir. Özünütəhlil Hesabatında qeyd edildiyi kimi kafedralar fənlər üzrə tədris prosesinin təşkilində fənlərin xüsusiyyətlərini nəzərə almaqla tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün geniş spektrli metodlardan istifadə edirlər. Qeyri-ixtisas fənləri istisna olmaqla, digər fənlərdə açıq tipli test tapşırıqlarından istifadə olunur.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Təhsilalanların biliklərinin qiymətləndirilməsinə xidmət edən imtahanlar kompüterlər vasitəsilə keçirilir. İmtahan nəticələrinin qiymətləndirilməsi mexanizmi Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında Əsasnamə"nə uyğun olaraq müəyyənləşdirilmişdir. Qeyd etdiyimiz amillər

qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyətinin qənaətbəxş hesab etməyə əsas verir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Tələbələrin sərbəst işin mövzusunu seçərək onunla bağlı təqdimat hazırlaması sərbəst öyrənmə istəyinin yaradılmasına xidmət etsə də, qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınmasına ehtiyac var.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Təhsilalanların biliklərinin qiymətləndirilməsinə xidmət edən imtahanların kompüterlər vasitəsilə keçirilməsi, “Moodle” proqram təminatından istifadə olunması elektron tədris sisteminin formalaşmasına müsbət təsir göstərən amillərdəndir. Bu sahə üzrə fəaliyyəti daha da genişləndirmək məqsədəuyğundur.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

İstər Özünütəhlil Hesabatında, istərsə də, sahə səfəri zamanı ATU-da sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması ilə bağlı hər hansı məlumat əldə edilməmişdir. Təhsilalma infrastrukturu məhduddur və bu sahədə işlərin inkişaf etdirilməsi tövsiyə olunur

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Cari qiymətləndirmə üsullarından biri tələbələrin sərbəst işlərinin qiymətləndirilməsidir. Tələbələr sərbəst işlərini təqdimat, video materiallar, xüsusi iş dəftərləri, esse və ya layihə şəklində təqdim edirlər. Fənn sillabuslarında bu tapşırıqların hazırlanmasına dair meyarlar mövcud deyil, eyni zamanda qiymətləndirmə vasitələrinin hazırlanmasına dair təlimatlarda da yer verilməmişdir. Özünütəhlil hesabatında tapşırıqların son təhvil verilmə tarixi haqqında məlumatların həm şifahi şəkildə səsləndirildiyi, həm də ETS sistemində göstərildiyi qeyd olunsa da, ETS sistemində bir çox səhifələrin boş olduğu və məlumatlar, dərs materialları və qiymətləndirmə meyarlarının olmadığı müşahidə edilmişdir.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ATU-da Yekun Dövlət Qiymətləndirilməsinin təşkili sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun olaraq həyata keçirilir. Belə ki, təhsilalanların biliklərinin dövlət attestasiyası

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Ali təhsil pilləsinin dövlət standartı proqramı"nın təsdiq edilməsi haqqında" 2010-cu il 23 aprel tarixli 75 nömrəli, "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarlarına, Azərbaycan Respublikası Təhsil Nazirinin 27.01.1997-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 30.10.1996-cı il tarixində nömrə 26 ilə qeydə alınmış "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"si, Ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində, əsas baza ali (tibb təhsili) və Azərbaycan Milli Elmlər Akademiyası magistratura səviyyəsində kredit sistemi üzrə tədris prosesinin təşkili Qaydaları"na müvafiq olaraq təşkil olunur. Özünütəhlil hesabatında qeyd edildiyi kimi, Yekun Dövlət Qiymətləndirməsinin nəticələrinin şəffaflığını təmin etmək üçün kənardan mütəxəssislərin cəlb edilməsi ilə aparılır. Bu şəxslər əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin aparıcı elmi-tədqiqat institutlarından və tibb müəssisələrindən cəlb olunurlar.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Testlərin etibarlılığının qiymətləndirilməsi ilə bağlı bütün məlumatların ATU-nun Test Mərkəzində toplanması və hər sessiyadan sonra kafedralar tərəfindən təhlil olunması, tələbələrin imtahan nəticələri ilə bağlı şikayətlərin ümumiləşdirilməsi və təhlillər aparılması özünütəhlil hesabatında öz əksini tapmışdır. TKTA-nın tələbələr arasında aparılan sorğuda iştirak etmiş tələbələr tərəfindən klinik fənlərdən imtahanın testlə verilməməsi, klinik fənlər üçün pasiyent və maketlərlə işləmək üçün şərait yaradılması kimi təkliflər səsləndirilmişdir. Qeyd olunan təkliflərin nəzərə alınması və bu istiqamətdə işlərin aparılması tövsiyə olunur.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşüləndir və tələbələr üçün əlçatanlığı təmin olunur. Universitetin rəsmi internet saytında da normativ sənədlər yerləşdirilmişdir. https://amu.edu.az/page/2864/idareedici-senedler

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2014 tarixli 144 saylı "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir.

## *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Universitetdə akademik heyətin işə qəbul prosesi Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 07.08.1996-cı tarixli 401 saylı və 05.02.2018-ci il tarixli F-100 nömrəli əmirlərinə əsasən şəffaf şəkildə həyata keçirilir. Azərbaycan Tibb Universitetinin saytında və "Təbib" qəzetində elan dərc olunaraq ictimaiyyətə əlçatanlılığı təmin edilir. Karyerada yüksəliş və digər vəzifəyə təyinat prosesi isə Tədris işləri üzrə prorektorun, dekanın və kafedra müdirinin təqdimatına əsasən həyat keçirilir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

ATM-də akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdırmaq üçün bir sıra tədbirlər görülür.

Azərbaycan Tibb Universitetinin Elmi Şurasının 25.02.2021-ci il tarixli qərarına əsasən:
-ildə üç dəfə - Qurban, Ramazan və Novruz bayramlarında, Azərbaycan Tibb Universitetinin Qəbul portalında əcnəbi və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı və onlayn müsahibələri prosesi tam şəffaflıq şəraitində icra edilməsini nəzərə alaraq, komissiyanın üzvlərinə mükafatlandırılmalar;
- Universitetin ictimai həyatında uzun müddətli aparıcı rolunu, səmərəli elmi –pedaqoji fəaliyyətini nəzərə alaraq və doğum günü, yubileylərin münasibətilə, "Təşəkkür"lə, "Fəxri Fərman"la təltif və bir aylıq əmək haqqı məbləğində mükafatlandırılmalar;
- Tədris ilinin payız semestrinin, qış imtahan sessiyasının, yaz aralıq qiymətləndirmənin , yaz semestrinin yay imtahan sessiyasının təşkilində və Dövlət Attestasiyası imtahanlarının mütəşəkkil və obyektiv keçirilməsində fəal iştirak etmiş universitetin əməkdaşlarının mükafatlandırılmaları həyata keçirilir.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

ATU-da akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş mütəmadi sistemli təlimlər keçirilir. Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yaranmasından öncə "Təlimçinin təlimi" proqramı 2021-ci ilin dekabrından 2022-ci ilin iyuluna qədər on bir (11) qrupda həyata keçirilmişdir. Təlimdə Azərbaycan Tibb Universitetində fəaliyyət göstərən dekanlar, dekan müavinləri, müxtəlif kafedraların tədris işləri üzrə müdir müavinləri, professorlar, dosentlər, assistentlər və baş laborantlar olmaqla ümumilikdə 127 nəfər iştirak etmişdir. Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yarandıqdan (07.09.2022) sonra isə 24 yanvar-10 fevral 2023 tarixlərində 3 qrup olmaqla ümumilikdə 45 nəfər müxtəlif kafedraların dosent və assistentlərinə "Pedaqoji peşəkarlığın inkişafı" kursu verilmişdir. Bununla yanaşı, 24 yanvar-10 fevral 2023 tarixlərində müalicə profilaktika, əczaçılıq və stomatologiya fakültələrinə bağlı olan kafedraların ekspertlərinə "Çoxseçimli testlərin

hazırlanması, tətbiqi və analizi” kursu keçirilmişdir. Kursda ümumilikdə 100 ekspert iştirak etmişdir.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununun 48-ci maddəsinə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 179-cu maddəsinin “h” bəndinə uyğun olaraq, ATM-in professor-müəllim heyəti ixtisasartırma və peşəkarlıq səviyyələrini artırılması üçün mütəmadi olaraq Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirilməsi İnstituta və orta tibb heyəti “Tibb bacısının işi” üzrə ixtisasartıma kurs keçmələri üçün isə 2 saylı Bakı Baza Tibb Kollecinə göndərilirlər.

Universitetin apardığı kadr siyasəti müəllimlərin bütün fəaliyyət növlərinin tanınmasına təminat verir. Müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi tədris, metodik, elmi, klinik fəaliyyətin nəticələrinə görə həyata keçirilir. Universitet işçilərin peşəkar inkişafına birbaşa təsir edən maddi və qeyri-maddi həvəsləndirmə və peşə sahəsində nailiyyətlərə görə həvəsləndirmənin müxtəlif üsullarından istifadə edir.

Müəllimlərin əməyinin nəticələri pedaqoji heyətin reytinq qiymətləndirməsində öz əksini tapır ki, bu da işin güclü və zəif tərəflərini müəyyən etməyə imkan verir. Reytinq qiymətləndirməsi müəllimin fəaliyyətinin bütün sahələrində ən yüksək nəticə göstərən müəllim heyətini müəyyən etməyə imkan verir. Peşəkar fəaliyyətindəki nailiyyətlərə görə işçilər dövlət, idarə, respublika mükafatları ilə təltif edilirlər.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Akademik heyətin beynəlxalq mübadilə proqramları çərçivəsində mobilliyi Orhun, Erazmus+ və Viseqrad proqramları üzrə həyata keçirilir. Bu proqramlar üzrə iştirakçıların sayının artırılması istiqamətində fəaliyyətin artırılması məqsədəuyğundur və universitetin beynəlxalq reytinginin artmasına kömək edə bilər.

Qrant layihələrin aparılması kafedraların tədris və elmi-tədqiqat fəaliyyətini daha da aktivləşdirir və müasirləşdirir. Universitetin nəzdində Lokal Bioetik komitə olduğu halda beynəlxalq tədqiqatlara qoşulması kifayət sayda deyil. Universitetin beynəlxalq tədqiqatlarda iştirakını artırmaqla tələbələrin və rezidentlərin elmi işə həvəslərini və universitetin reytinqini qaldlrmaq mümkün olardı. Farmakoloqiya fakültəsinin köməyi ilə universitetə maddi cəhətdən xeyir görsədən istehsalat fabrikasının yaradılması və orada fakültənin əməkdaşlarının çalışması həm elmi, həm təhsil sahələrinə müsbət təsir göstərə bilərdi

Universitet işçilərin peşəkar inkişafına birbaşa təsir edən maddi və qeyri-maddi həvəsləndirmə və peşə sahəsində nailiyyətlərə görə həvəsləndirmənin müxtəlif üsullarından istifadə edir. Lakin İngilis dilində dərslərin aparılmasına stimullaşdırılması mexanizmləri zəifdir. Terapevtik və diqər kafedraların kitab fondundan professorlar tərəfindən Tələbə Elmi Cəmiyyətinin qaliblərinin mükafatlandırılması və bununla elmi işə həvəsləndirilməsi həyata keçirilir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Universitet tərəfindən sillabusların tərtib olunmasına dair təlimat mövcuddur. Həmin təlimata innovativ üsullular göstərilmişdir:

Fənn üzrə sillabus tərtib olunanda göstərilmiş metodlardan biri seçilir. Sillabus İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinə təqdim olunur. Şöbə sillabuslara qeydiyyat nömrəsini verir. Aşağıdakı fəaliyyət alqoritmi vasitəsilə sillabuslara qeydiyyat nömrəsini verilmə prosedurunda şöbə iştirak edir:

- fənlərin "Silabusların tərtib olunmasına dair təlimat"a uyğunluğu;
- bençmark aparılması;
- innovativ metodlarların tədrisə tətbiqi;
- yeni qiymətləndirmə üsullarının tədrisə tətbiqi;
- mövzu planlarına sahə üzrə ekspertlərin rəyləri;
- Elmi Şurada baxılması üçün şöbə müdiri tərəfindən təqdimatın verilməsi;
- universitetin Elmi Şurasının müsbət qərarı olduğu halda rektorun əmri ilə qeydiyyat nömrəsinin verilməsi.

Mövcud alqoritm şöbənin əsasnaməsində öz əksini tapmışdır.

- Kafedra rəhbəri kafedranın müəllimləri tərəfindən hazırlanmış innovativ və fəal tədris metodlarından istifadənin nəzərdə tutulduğu dərs cədvəlini təqdim edir.
- Rəhbər məsul şəxsləri dərslərdə iştirak etmək üçün təyin edir, onlar sillabusda göstərilmiş innovativ üsullu müşahidə edirlər, nəticələri rəy formasında sənədləşdirilir.
- Dərsin video çəkilişi aparılır.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq qərarlarına əsasən dərs bölgüsü zamanı hər müəllimin dərs yükünün 500 saatdan az olmamaq şərtilə bölgüsü aparılır. Buna əsaslanaraq ATU-nun 03.07.2019-cu il tarixli 329/T nömrəli əmrinə əsasən professor-müəllim heyətinin tədris yükünün norması 530 saat müəyyənləşdirilmişdir (mühazirə, seminar, laborator və praktik məşğələlərə ayrılan vaxtın həcmi dərs yükünün 60%-dən – 318 saatdan az olmamalıdır). Bu qanuna əsaslanaraq kafedraların dərs yükü ştata uyğun olduğu halda akademik heyət arasında tam şəffaf və dürüst bölüşdürülür. Kafedraların dərs yükü ştatdan artıq olduğu halda bölgü aparıldıqdan sonra əlavə əmələ gələn saatlar kafedranın (müəllimləri) akademik heyəti arasında saathesabı qaydada əmək haqqı ödənilməklə yerinə yetirilir. Artıq qalan saatlar isə kənardan cəlb olunan akademik heyət arasında bölüşdürülür.

Dərs yükünün akademik heyət arasında bölgüsü, kafedra əməkdaşlarının müəllimlik professionallığı, dil biliyi nəzərə alınmaqla aparılır. Həmçinin, əməkdaşların ştat vahidi, hansı sahə üzrə göstəricilərinin olması, həmin mövzudan mühazirə aparması zamanı nəzərə alınmaqla aparılır. Xəstələndikdə, ezamiyyətdə olduqda, ixtisasartırmaya göndərildikdə

müəllim bütün yüklərdən azad olunur. Bu müddətdə onun dərs yükü kafedranın müəllimləri tərəfindən saathesabı qaydada əmək haqqı ödənilməklə yerinə yetirilir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Fakültələr üzrə məlumatlar:
*I Müalicə-profilaktika fakültəsi* 19 kafedrada fəaliyyət göstərən professor-müəllim heyətinin ümumi sayı 375 nəfər, fakültədə təhsil alan tələbələrin ümumi sayı isə 2266 nəfərdir. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/6-dır.

1) *II Müalicə-profilaktika fakültəsi* - 16 kafedrada fəaliyyət göstərən professor-müəllim heyətinin sayı 353 nəfər, fakültədə təhsil alan tələbələrin sayı isə 2223 nəfərdir. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/6-dır.
2) *Stomatologiya fakültəsi - 6* kafedrada 183 nəfər professor-müəllim çalışır. 2022/2023 tədris ilində fakültədə 1235 tələbə təhsil alır.
   Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/7-dir
3) *Əczaçılıq fakültəsi* - 7 kafedrada cəmi 114 nəfər professor-müəllim çalışır. 2022/2023 tədris ilində fakültədə 448 tələbə təhsil alır.
   Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/4-dir
4) *Hərbi-tibb fakültəsi* - Tələbə kursant cəmi 415, müəllim 27.
   Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/15-dir
5) İctimai Səhiyyə fakültəsi - 9 kafedrada cəmi 150 nəfər professor-müəllim çalışır. 2022/2023 tədris ilində fakültədə 554 tələbə təhsil alır.
   Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/4-dür.

Professor-müəllim heyətinin (PMH) tələbə sayına nisbətində müəyyən uyğunsuzluğun səbəbi ATU-nun spesifikası ilə izah oluna bilər. Belə ki, müxtəlif fakültələrdə təhsil alan tələbələr digər fakültələrə aid olan kafedralarda tədris prosesinə cəlb olurlar. Məsələn, Anatomiya kafedrası I Müalicə-profilaktika fakültəsinə aiddir, lakin bu kafedrada bütün fakültələrin 1-ci kurslarının tələbələri dərs keçir.

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

ATU-da tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri olması bütün fakültələrdə gözlənilir.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Tibbin sürətli dinamik inkişafı, yeni diaqnostik və müalicə üsullarının icad edilərək qısa zamanda klinik praktikaya tətbiqi, xarici ölkələrdə işləyən və ya təhsil almış şəxslərin tədris prosesinə cəlb olunması zərurəti yaradır. İnnovativ təhsil sisteminin tələblərini nəzərə alaraq tədrisin keyfiyyətinin artırılması məqsədi ilə kənardan yüksək ixtisaslı 81 nəfər saathesabı və 39 nəfər əvəzçilik üzrə cəlb edilmişdir.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

ATU- da çalışan müəllim-professor heyəti və digər köməkçi heyətin əmək haqları iki əsas bazadan:
a) əsas əmək haqqı forması olaraq Dövlət sifarişi üzrə qəbul olunan tələbələrin təhsilinə görə daxil olan vəsaitdən;
b) Əlavə əmək haqqı ödənişli əsaslarla qəbul olunan tələbələrin təhsil haqqından daxil olan vəsaitdən ödənilləndən.
Bundan əlavə olaraq 2017-ci ildən başlayaraq Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə universitetdə təhsil alan xarici tələbələrə dərs deyən ingilis dilində tədris aparan müəllim heyətinin əmək haqlarına hər ay 120 manat əlavələrin ödənilməsi, mütəmadi qaydada həyata keçirilir. 2017-ci ildən başlayaraq dərsləri ingilis dilində tədris edən müəllimlərin dil səviyyəsinin aşkar etmək üçün mütəmadi olaraq imtahanlar keçirilmişdir. Həmin imtahanlarda yüksək bal toplayan əməkdaşlar fərqli "yüksək" əmək haqqına layiq görülürlər. ATU-da professor-müəllim və inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin tətbiqi tövsiyə edilir.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

ATU-da hazırda Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin (Türkiyə, Rusiya, Ukrayna, Almaniya, Fransa və b.) nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin ayrı-ayrı pillələri üzrə təhsil alaraq məzun olmuş 35 professor-müəllim heyəti müxtəlif vəzifələrdə çalışır. Müasir dövrdə tibb elminin sürətli inkişafını, yeni, qabaqcıl innovasiyaların tibb praktikasına qısa müddət ərzində tətbiqini, eyni zamanda beynəlxalq aləmdə sübutlu təbabətə əsaslanan tibbi biliklərin tədris prosesinə daxil edilməsini nəzərə alaraq xarici ölkələrdə, əsasən Türkiyə və Avropanın qabaqcıl universitetlərində məzun olunmuş şəxslərin daha da aktiv sürətdə ATU-ya müxtəlif həvəsləndirici layihələr əsasında cəlb olunmasını diktə edir və onların sayının artırılması zəruridir.

## *3.8 Tələbəyönümlü tədris*

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Birinci kursa qəbul olunan tələbələr üçün fərdi tədris planı fakültədə akademik məsləhətçilər tərəfindən hazırlansa da, növbəti tədris ilində tələbələr ixtisasın tədris planı əsasında öz fərdi tədris planını hazırlanmasına cəlb olunurlar. Hesabatda da göstərildiyi kimi fərdi tədris planında yalnız sentyabr ayının 10-na kimi dəyişiklik edilməsinə icazə verilir. Sentyabr ayının 10-na kimi FTP-da akademik borc yaranan fənn (fənlər) qeyd olunmadığı və ödəniş edilmədiyi təqdirdə həmin fənn (fənlər) üzrə tələbə tədrisə cəlb olunmur, göstərilən tarixlərdə tələbə tərəfindən tərtib edilməyən və dəyişiklik aparılmayan FTP-lər sentyabr ayının

10-dan sonra tyutorlar tərəfindən tərtib edilir və tələbə həmin FTP əsasında təhsil almaq məcburiyyətindədir. Payız semestrində akademik borcu yaranan tələbə fevral ayının 10-na kimi FTP-də dəyişiklik etməlidir. Əks təqdirdə Universitet tərəfindən müəyyən olunmuş FTP ilə təhsil alır.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Təhsilverənlər və akademik məsləhətçilər tərəfindən tələbələrin seçiminin sərbəstliyinin təmin edilir. Belə ki hər bir tələbənin “Fərdi tədris planı” əsasında təhsil alması və seçim blokuna aid fənlərin müstəqil seçməsinə şərait yaradılır.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Email və whatsapp mobil tətbiqi üzərindən aparılan yazışmaları incələdikdən sonra qərara gəlmək olur ki, təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyi təmin edilir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

ATU-nun TKTA-ya təqdim etdiyi sənəddə təhsilalanlar arasında ETS-də sorğu anketi vasitəsilə ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi və Fənlər üzrə məmnunluq sorğusunun keçirilməsi barədə məlumat öz əksini tapmışdır. Tələbələr arasında ildə iki dəfə: semestrin sonunda tədrisin keyfiyyətindən məmnunluğu ölçmək üçün onlayn formada rəy sorğusunun keçirildiyi qeyd olunsa da, TKTA-ya təqdim olunan sənəddə son 5 il ərzində 4 sorğunun keçirildiyi məlum olmuşdur. Digər tərəfdən ETS-ə baxış zamanı ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusunun sistemə yüklənilmədiyi müşahidə olunmuşdur. Məzunlar arasında isə Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu keçirilmişdir. Sorğuların müntəzəm olaraq keçirilməsi və sistemləşdirilməsi tövsiyə olunur.

Fənlər üzrə məmnunluq sorğusunun sualları aşağıdakılardan ibarətdir:

| | | | |
|---|---|---|---|
| 1. Fənnə maraq yaradır, fənnin ixtisasınız baxımından əhəmiyyətini izah edə bilir | Bəli | Qismən | Xeyr |
| 2. Dərs zamanı tələbələrə qarşı münasibətində diqqətlidir | Bəli | Qismən | Xeyr |
| 3. Dərsi anlaşıqlı, başa düşülən tərzdə izah edir | Bəli | Qismən | Xeyr |
| 4. Sizi sərbəst çalışmağa təşviq edir, ruhlandırır | Bəli | Qismən | Xeyr |

| | | | |
|---|---|---|---|
| 5. Semestr ərzində fənnin təqvim-mövzu planında (sillabusda) nəzərdə tutulan mövzuları tam keçir | Bəli | Qismən | Xeyr |
| 6. Dərsi vaxtında başlayır və bitirir | Bəli | Qismən | Xeyr |
| 7. Fənni sizin tədris aldığınız bölmənin dilinə tam uyğun keçir | Bəli | Qismən | Xeyr |
| 8. Tədris prosesində tələbələri tədris vəsaitləri (elektron, çap variantı, slaydlar, əyani vəsait və s.) ilə təmin edir | Bəli | Qismən | Xeyr |
| 9. Sizin fənlə bağlı suallarınıza dolğun cavab verir | Bəli | Qismən | Xeyr |
| 10. Biliyi obyektiv qiymətləndirir | Bəli | Qismən | Xeyr |

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM-də tələbələr arasında keçirilən sorğular nəticəsində tətbiq olunmuş yeniliklərə nümunə kimi Psixoloji Yardım Mərkəzi yaradılması, dərsliklərin sayının artırılması, 2022/2023 tədris ilində 1-ci kursa qəbul olunan tələbələrdə qayıb-bal sistemi ləğv olunması, PMH üçün ingilis dili kurslarının təşkil edilməsini göstərə bilərik. Eləcə də, məzunların təklifi əsasında Bakı Sağlamlıq Mərkəzinin nəzdində yerləşən Tədris-Simulyasiya Mərkəzi ilə müqavilə imzalanmışdır. Tələbə və məzunlar arasında keçirilən sorğuların müntəzəm təhlillərinin aparılması, nəticələrə dair rəy və təkliflərin hazırlanaraq icra edilməsi məqsədəuyğundur.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

Keçirilən rəy sorğularına əsasən tələbələrin təklif və şikayətləri təhlil edilərək qərarvermə prosesində istifadəsinə dair aşağıdakıları qeyd etmək olar.

- Keyfiyyət siyasəti və sillabus təlimatı tərtib olunub;
- “Beynəlxalq Tələbə Festival”ına hazılıq başlanılıb;
- “Daxili xəstəliklər” fəninin ədəbiyyatı
- “İctimai sağlamlıq” fənnin mövzuları yenilənib.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

ATU-da təhsilalanların şikayət və ya təklifləri üçün müxtəlif vasitələr mövcuddur. Universitetdə İctimai nəzarət şurası yaradılıb və bu Şura tərəfindən şikayət və təklif

məktublarının atılması üçün yerləşdirilən qutudan  mütəmadi olaraq toplanan məktublar müvafiq fakultələrə yönləndirilir.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Əczaçılıq fakültəsi xaric, bütün fakultələrə tələbələrin inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər cəlb olunmuşdur

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiya dərs müddətində üzbəüz, dərsdənkənar vaxtlarda isə telefon zəngi və onlayn (e-mail, whatsapp) formada müxtəlif vasitələrdən istifadə etməklə həyata keçirilir.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

ATU-nun Özünütəhlil Hesabatında Tədris terapevtik klinikanın, Tədris cərrahiyyə klinikasının və 5N-li tədris binasının girişlərinin pandusla təmin olunduğu qeyd olunmuşdur. Sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnun digər şəxslərlə bərabər səviyyədə təmin olunması üçün bütün tədris korpuslarında uyğun infrastrukturun və tədris prosesində əlverişli şəraitin yaradılması tövsiyə olunur.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı”na və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu” uyğun olaraq qrup tələbələr üçün lazım olan şərait yaradılır.

Azərbaycan Tibb Universiteti üzrə sosial və həssas qrupa aid olan  tələbələrin statistikası aşağıdakı kimidir.

Valideyn Himayəsindən Məhrum tələbələr

| Tədris ili üzrə | Tələbə sayı |
|---|---|
| 2018/2019 | 44 |
| 2019/2020 | 34 |
| 2020/2021 | 29 |
| 2021/2022 | 22 |
| 2022/2023 | 12 |

I və II qrup əlil tələbələr

| Tədris ili üzrə | Tələbə sayı |
|---|---|
| 2020/2021 | 12 |
| 2021/2022 | 11 |
| 2022/2023 | 10 |

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində yaradılmış "Təhsil Tələbə Krediti Fondu"nun vəsaiti hesabına təhsil alan tələbələr

| Tədris ili üzrə | Tələbə sayı |
|---|---|
| 2021 payız semestri | 19 |
| 2021/2022 | 38 |
| 2022/2023 | 57 |

Azərbaycan Respublikası Prezidentinin yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə təhsil alan tələbələr

| Tədris ili üzrə | Tələbə sayı |
|---|---|
| 2019/2020 | 36 |
| 2020/2021 | 25 |
| 2022/2023 | 13 |

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" 2020-ci il 13 aprel tarixli 138 nömrəli Qərarın şamil olunduğu tələbələrin illər üzrə statistikası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

| Tədris ili üzrə | Tələbə sayı |
|---|---|
| 2019/2020 | 209 |
| 2020/2021 | 195 |
| 2021 yaz semestri | 176 |

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması ilə bağlı məlumat ATM-in özünütəhlil hesabatında öz əksini tapmamışdır. Eləcə də sahə səfəri zamanı komissiya üzvlərinə sözügedən meyarla bağlı sənəd təqdim olunmamışdır. ATU-da tələbələri təşviq

etmək üçün nəticələri yüksək olan, müxtəlif kateqoriyalarda fərqlənən tələbələrə Vətən müharibəsinin həkim qəhrəmanları adına təqaüdlər təsis etmək məqsədəuyğundur.

### *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

#### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

Tədris planındakı dərslərin işçi tədris proqramları kafedralar tərəfindən mütəmadi olaraq yenilənir, kafedra iclaslarında və fakültə Elmi Şuralarında müzakirə olunub, tövsiyə edildikdən sonra Universitetin Elmi Şurasında təsdiq olunur.

Azərbaycan Tibb Universitetinin təhsil proqramlarının (TP) monitorinqi planı mövcuddur.

| Tədbirlər | Məsul icraçılar | İcra müddəti | Nəticələr |
|---|---|---|---|
| Mövcud TP-na dəyişikliklərin edilməsi və məzunlar üçün tələblərin müəyyən edilməsi ilə bağlı işəgötürənlərlə müzakirə | Kafedra, innovasiyalar və keyfiyyətin idarə edilməsi şöbəsi | İldə 1 dəfə | İclasın protokolu, korreksiya edici tədbirlər (işçi tədris proqramlarına və seçmə fənlər kataloquna, təcrübə və staj proqramlarına yenidən baxılma) |
| Məzunların lazımi nəzəri və praktik biliklərə yiyələnməsi ilə bağlı işəgötürənlər arasında sorğu | İnnovasiyalar və keyfiyyətin idarə edilməsi şöbəsi | Məzunların işə qəbulundan 6 ay sonra | Əks əlaqələrin təhlili, korreksiya edici tədbirlər |
| Tələbələr arasında təhsil prosesindən məmnunluqla bağlı sorğu | Kafedra | Fənni mənimsədikdən sonra | Əks əlaqələrin təhlili, kafedra iclaslarının protokolları, korreksiya edici tədbirlər |
| | İnnovasiyalar və keyfiyyətin idarə edilməsi şöbəsi | Semestrda 1 dəfə | |
| Tələbələrdən carı əks əlaqənin alınması | İnnovasiyalar və keyfiyyətin idarə edilməsi şöbəsi | Şikayət və təkliflərin daxil olmasına müvafiq olaraq | Şikayət və təkliflərə baxılması, korreksiya edici tədbirlər |
| Azərbaycan Tibb Universitetində müəllimin kompetensiya səviyyəsinin bal-reytinq cədvəlinə əsasən qiymətləndirilməsi | Elmi katib, kadrlar şöbəsi | 5 ildən bir | Attestasiya komissiyasının rəyi |
| Kafedra daxili nəzarət (KDN) | Kafedra | Ayda 1 dəfə | KDN hesabatı, korreksiya edici tədbirlər |
| Keyfiyyətin idarəetmə sisteminin (KİS) daxili qeyri-maliyyə auditi | İnnovasiyalar və keyfiyyətin idarə edilməsi şöbəsi | İldə 1 dəfə | KİS daxili auditinin hesabatı, korreksiya edici tədbirlər |
| Xarici audit | Dövlət və beynəlxalq təşkilatlar | 5 ildən bir | Dövlət və beynəlxalq təşkilatların xarici ekspert komissiyasının hesabatı,<br>korreksiya edici tədbirlər |

Korreksiya edici tədbirlər Azərbaycan Tibb Universitetində keyfiyyət fəaliyyəti üzrə rəhbərlikdə göstərilmiş “Sənədləşdirilən keyfiyyət prosedurları: Düzəldici tədbirlərin idarə edilməsi” üzrə yerinə yetirilir.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Tədris proqramının və onun işlənib hazırlanmasının nəticələrinin monitorinqi innovasiya və keyfiyyətin idarə olunması şöbəsi, o cümlədən dekanlıq tərəfindən kafedraların fəal iştirakı, qarşıya qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsi və qiymətləndirilməsi ilə həyata keçirilir. Nəticələr kafedraların iclasında, fakültənin elmi şurasında, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi, Tədris departamenti, tədris proqramları üzrə komissiyada müzakirə edilərək kafedra və müəllim heyətinin diqqətinə çatdırılır. Təhsil proqramının monitorinqi dövlət standartlarının tələblərinə uyğunluğunu müəyyən etmək məqsədilə həyata keçirilir. Proqramın monitorinq edilən komponentləri bunlardır: 1) proqramın strukturu; 2) əsas və dəyişən hissələrin nisbəti; 3) seçmə fənlərin olması; 4) təcrübələrin növləri; 5) tədris-metodiki təminat; 6) elektron informasiya və təhsil mühitinin mövcudluğu; 7) kadr təminatı; 8) maddi-texniki təchizat.

Xarici Tibb Universitetlərin təcrübəsinin öyrənilməsi və yeni monitorinq strateqiyaları həyata keçirməsini daha da gücləndirmək tövsiyə olunur.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Tələbələr hər bir fənni öyrəndikdən sonra tədris olunan fənnin strukturu, həcmi və məzmunu, o cümlədən metod və vasitələrlə bağlı təkliflərini formalaşdırmaq və kafedra müdirinin, dekanların, prorektorun və rektorun nəzərinə çatdırmaq imkanına malikdirlər. Bundan əlavə, tələbələr ATU-nun Elmi Şurasında təmsil olunurlar. Korreksiyaedici tədbirlər Azərbaycan Tibb Universitetində keyfiyyət fəaliyyəti üzrə rəhbərlikdə göstərilmiş "Sənədləşdirilən keyfiyyət prosedurları: Düzəldici tədbirlərin idarə edilməsi" üzrə yerinə yetirilir. Prosedur aşağıdakı beynəlxalq standartlar əsasında hazırlanıb:

- İSO 9001:2015 BS - Keyfiyyətin idarə olunması sistemləri. Tələblər;
- İSO 9004:2009 BS - Təşkilatın dayanıqlı uğura nail olması məqsədilə idarəetmə;
- İSO 19011:2011 BS Keyfiyyətin idarə olunması sistemləri. İdarəetmə sistemlərinin auditlərinin keçirilməsi üzrə əsas təlimatlar.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Təhsil proqramlarının ixtisasları üzrə fənn proqramları hər tədris ilində aparıcı universitetlərə müvafiq olaraq uyğunlaşdırılır. Eləcə də, eyniləşdirilməsi üçün əmək bazarının tələbləri nəzərə alınır. Bununla əlaqədar ATU-da fənn proqramlarının yenilənməsi, optimallaşdırılması ilə məşğul olan komissiyanın təklifləri nəzərə alınır.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Universitetimizdə bütün ixtisaslarda təsdiq olunmuş təhsil proqramları əmək bazarının tələblərinə uyğun olaraq yenilənir. Məzunların daha çox çalışdıqları müəssisə rəhbərləri ilə görüşlər təşkil olunur. Onlar fakültə Elmi Şuralarına dəvət olunur və fənn proqramları ilə tanış olduqdan sonra irad və təklifləri nəzərə alınır.

### *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ATU–da “Karyera mərkəzi” adlı bir struktur bölməsi yoxdur. ATU – nun rektorunun 19 dekabr 2022 – ci il tarixli 877/K nömrəli əmri ilə 2022/2023 – cü tədris ilinin 05.01.2023 – cü il tarixindən etibarən ATU – da “Tədris” şöbəsi yenidən təşkil olunaraq Tədris departamenti yaradılmışdır. Bu departamentin nəzdində isə “Məzunlarla iş şöbəsi” (bundan sonra – şöbə) fəaliyyət göstərir ki, “Karyera mərkəzinin” vəzifələrini icra edir. Şöbədə 6 ştat vahidi var, hazırda 5 nəfər çalışır: Şöbə müdiri, 2 baş müfəttiş, 1 müfəttiş, 1 statistik və 1 metodist. Şöbə əməkdaşları 3 otaqda yerləşmişlər. Otaqlarda kompüter, printer və digər ofis ləvazimatları yetərincədir. Baş müfəttiş diplomların verilməsi, yenilərinin əvəzlənməsi, müfəttiş məzunların sənədlərinin kataloq üzrə qovluqlara yığılması, statistik isə diplomları elektron bazaya yerləşdirmək ilə məşğuldur. Şöbə müdiri isə əsasən Səhiyyə Nazirliyinin məzunlarının diplomlarının xarici ölkələrdə tanınması üçün lazım “Good standing” sənədinin hazırlanması üçün göndərilmiş sorğularını cavablandırır.

Tədris departamentinin əsasnaməsində və ATU – nun strateji planına uyğun hazırlanmış “İşçi plan” – da qeyd edilən şöbənin öhdəliyinə düşən fəaliyyət və tədbirlərə rast gəlinmədi. Şöbə müdiri tərəfindən hazırlanmış əsasnamə yalnız məlumat xarakterlidir və rəhbərlik tərəfindən təsdiqlənməmişdir.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Şöbə müdiri tərəfindən məzunlara canlı (face to face) görüşlər keçirilmiş və onlayn əlaqələr qurulmuşdur. Aparılmış görüşlərin və yazışmaların qrafiki tərtib edilmişdir. Göndərilmiş sorğu əsasında, məzunların universiteti bitirdikləri işlə təmin edilmələri barədə Səhiyyə Nazirliyi və TƏBİB tərəfindən daxil olan məlumatlar analiz edilmiş və son 5 ildə müvafiq dinamika izlənmişdir.

Məzunların ixtisaslarına görə son 5 ildə işə düzəlmə cədvəli qurulmuşdur. Lakin, məzunların məlumatları və iş yerlərində fəaliyyətlərini əks etdirən portal yoxdur. Şöbə yeni yarandığı səbəbdən tələbələr üçün təqdimatı aparılmamışdır. Lakin, Tibbi Universitetinin rəsmi saytında müvafiq rubrikan fəaliyyət göstərir. Karyera mərkəzi heç bir tibbi müəssisə və işə götürən ilə anlaşma memorandumu imzalanmamışdır.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmi işlənməmişdir. Tək-tək fərdlər tərəfindən daxil olan sənədlər əsasında onların hansı ölkə və hansı müəssisədə işə başlamaları haqda məlumatlar vardır. Lakin, vakant iş yerləri və ya işə götürənlərin ehtiyaclarını özündə əks etdirən portal və ya onlayn platforma yoxdur. Eləcə də, işə başlayanların əmək

kitabçalarına olan qeydlərin şöbə tərəfindən qeydiyyata alınması üçün mexanizmlərin hazırlanması tövsiyə olunur.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Bu istiqamətdə şöbə müdiri tərəfindən 6-cı kurs tələbələri arasında random qaydada sorğu aparılmışdır. Aparılan sorğuda əsas məqsəd məzun olacaq tələbələrin hansı ixtisas üzrə əmək fəaliyyətlərini davam etdirəcəyini öyrənmək olmuşdur. Tələbələrin məzun olduqdan sonra bilik və bacarıqlarını, aldıqları təhsildən məmmunluqlarını öyrənməyə yönəlmiş fəaliyyət tədbirləri hazırlanmamışdır. Eləcə də, tələbələr üçün “Karyera planlanması”, “işə müraciət qaydaları”, “ixtisasa uyğun iş yerlərinin dəyərləndirilməsi” və s. mövzularda təbliğat işlərinin aparılması tövsiyə olunur.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Məzunlar xarici ölkələrdə işə düzəlmək istədikdə və ya diplomları itdikdə şöbəyə müraciət edirlər. Yalnız bu yolla məzunlar ilə əlaqə saxlanılır. Lakin, məzunlar ilə son 5 ildə formal və ya qeyri-formal görüşlər keçirilməmişdir. Komissiya Universitetdə məzunlar assosiasiyasının yaradılmasını  təklif edir.

# 4. ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na müvafiq Azərbaycan Tibb Universitetinin strateji inkişaf Planı ATU Elmi Şurasının 19 mart 2015-ci il tarixli iclasında (pr. № 7) qəbul edilmişdir. Qeyd edilmişdir ki, ATU planlı, mütənasib və balanslaşdırılmış şəkildə inkişaf etdirilməli, tarixən əldə edilmiş ənənələr və nailiyyətlər itirilmədən universitetin gələcək inkişafı, elmi-tədqiqatların keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəldilməlidir. Universitetin əsas məqsəd və təşəbbüslərini özündə cəmləşdirərək, o cümlədən elmi-tədqiqatların keyfiyyətinin artırılması məqsədilə ATU-nun 2023-2030-cu illər üçün inkişaf Strategiyası hazırlanmışdır. Həm missiya, həm də gələcəyə baxışda elmi-tədqiqatın inkişafı perspektivləri qeyd olunmuş, strateji prioritetlərdən biri elm- elmi tədqiqatların təkmilləşdirilməsi və innovasiyaların stimullaşdırılması- qəbul olunmuşdur.

2017-2022-ci illər üçün universitetin elmi-tədqiqat fəaliyyəti ilə bağlı strateji inkişaf sənədi olmasa da ATU-da elmi-tədqiqat SİP-ə uyğun olaraq inkişaf etdirilir. Bununla belə, Azərbaycan Tibb Universitetinin Elmi şurasının 23 may 2016-cı il tarixli qərarı ilə qəbul olunmuş, 25 avqust 2016-ci il Azərbaycan Respublikasının Səhiyyə nazirliyi və 07 sentyabr 2016-ci ildə isə Azərbaycan Respublikasının Ədliyyə nazirliyi tərəfindən təsdiq olunmuş 28 səhifəlik Azərbaycan Tibb Universitetinin Nizamnaməsi (2-ci redaksiyada) də elmi-tədqiqat işlərinin aparılmasını qarşıya məqsəd kimi qoymuşdur.

2023-2030-cu illəri əhatə edən Elmi-tədqiqat strategiyası üçün Azərbaycanın qabaqçıl tibb təhsili və elmi araşdırma sahəsində milli, regional ehtiyacları qarşılamaq, cəmiyyətin xeyrinə tədqiqatlar təklif etmək, cəmiyyətin həyat keyfiyyətini yüksəltmək Missiyası və Gələcəyə Baxış üzrə "Strateji məqsəd" hazırlanmış və özünütəhlil hesabatında qeyd edilmişdir. ATU milli səviyyədə yüksək reytinq qazanmış "beyin mərkəzi" yaratmaq, doktorantura, dissertantura və magistratura təhsilini mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırmaq, qrantlar əsasında yerinə yetirilən layihələrin sayını artırmaq, "Web of Science və Scopus" elmi bazaya daxil olan nəşrlərdə çap edilən məqalələrin sayını artırmaq, nüfuzlu beynəlxalq elmi tədbiri təşkil etmək, bu bazalara daxil olan elmi jurnala sahib olmaq, hər ildə bir dəfə təhsilalanlar və gənc alimlərin beynəlxalq elmi konfransını təşkil etmək və universitetin kommersiyalaşan patentlərin sayının artırılması və tətbiqinin reallaşdırılması kimi strateji hədəfləri müəyyən etmişdir.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

SİP-də müəyyən olunan elmi-tədqiqat strategiyası ATU-nun missiya və hədəflərinə uyğundur. SWOT təhlili apararaq Universitetdə elmi-tədqiqat işlərinin inkişafı səviyyəsi müəyyən olunmuş və strateji hədəf və məqsədlər müəyyən edilmişdir. Elmin inkişaf strategiyasından irəli gələn mühüm vəzifələrdən biri əməyin stimullaşdırılmasında fərdi yanaşma metodundan istifadə edilməsi və gənclərin elmi fəaliyyətə daha geniş cəlb olunmasıdır.

Azərbaycan tibb elminin beynəlxalq aləmə inteqrasiyası ATU-nın elmi fəaliyyətini səmərəli idarəetmə modelinin yaradılması istiqamətində müvafiq addımların atılmasına ehtiyac duyulduğundan dövlətin elmi-tədqiqat sahəsində aydın hədəflərinin və qiymətləndirmə siyasətinin müəyyən edilməsi məqsədilə universitetin elmi-tədqiqat sahəsində fəaliyyətinin strateji planlaşdırılması ilə bağlı işlər aparılır. Komissiya ATU-da aparılan elmi-tədqiqat işlərinin səviyyəsinin yüksək olduğunu (xüsusilə elektron mikroskopu ilə aparılan tədqiqatlar) qeyd etməklə yanaşı elmi-tədqiqat strategiyasının və bu Strategiya əsasında fəaliyyət planının formalaşdırılmasını tövsiyə edir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

Azərbaycan Tibb Universitetinin strateji inkişaf Planında elmi-tədqiqatın əsas məqsədləri müəyyələşdirilmiş: tədqiqat infrastrukturu; əməkdaşlıqlar; müavinətlər və maliyyələşdirmə; tədqiqatların yayılması; "tədqiqat universiteti" statusunun alınması və bu məqsədlərə uyğun əsas effektivlik göstəriciləri hazırlanmışdır.

Dünyada və Azərbaycanda tibb elminin ölkə iqtisadiyyatının və elmin aktual problemlərinə aid prioritet istiqamətlər müəyyənləşdirilmişdir: tibb elminin yeni istiqamətləri üzrə tədqiqat mərkəzinin qurulması; elmi tədqiqatçı heyətinin sayının artırılması və peşəkarlığının yüksəldilməsi; Azərbaycan elminin dünya elminə inteqrasiyası; elmi fəaliyyət sahəsində struktur islahatları və idarəetmənin təkmilləşdirilməsi; elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması

məqsədi ilə elmi mərkəz və laboratoriyaların maddi-texniki bazanın yüksəldilməsi, müasir avadanlıqların alınması, avadanlıqların yardımçı sərfiyyat materialları ilə təchiz edilməsi; elmin maliyyələşdirilməsi; elm və təhsil arasında daha sıx inteqrasiyaya nail olunması və əməyin differensial qiymətləndirilməsi yolu ilə alimlərin lazımı səviyyədə stimullaşdırılması. Komissiya ATU-da elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyası hazırlanan zaman nəzərə alınmasını tövsiyə edir.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Azərbaycan Tibb Universiteti 2023-2030-cu illər İnkişaf Strategiyası və elmi-tədqiqat strategiyasının təhlili nəticəsində elmi-tədqiqat məqsədləri və məqsədlərdən irəli gələn vəzifələri müəyyən etmişdir:

- Tibb elmləri üzrə tədqiqatların təkmilləşdirilməsi üçün müasir texnoloji cihazların, laboratoriyaların və texnologiyanın qurulması;
- Fənlərarası tədqiqatların və bilik mübadiləsinin təşviqi üçün yerli və beynəlxalq tədqiqat institutları, universitetlər və sahə tərəfdaşları ilə əməkdaşlıqların təmin edilməsi;
- İnnovativ tədqiqat layihələrinin dəstəklənməsi və elmi nailiyyətlərin təşviq edilməsi üçün müəllimlərin tədqiqat müavinətlərindən və maliyyələşdirmə imkanlarından aktiv şəkildə istifadə olunmasının təşviq edilməsi;
- ATU-nun tədqiqat sahəsinə etdiyi töhfələri nümayiş etdirmək və tanınma dərəcəsini artırmaq üçün konfranslarda tədqiqat nəşrlərinin, təqdimatlarının və elmi forumlarda iştirakın təşviq edilməsi;
- "Tədqiqat universiteti" statusunun alınması: innovasiya mədəniyyətinin təmin edilməsi, yenilikçi elmi tədqiqatların köməyi ilə biliklərinin artırılması, habelə, müstəsna bacarıqlara malik müəllimlərin, tədqiqatçıların və təhsilalanların cəlb edilməsi və əldə saxlanması yolu ilə universitetimizin tanınmış tədqiqat universitetinə çevrilməsi (https://amu.edu.az/storage/files/6/1%20Universitet/Srtategiya/ATU%20Strategy%20Handbook%20Booklet%20chap.pdf).

Komissiya elmi-tədqiqat məqsədlərinin ATU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğunu qeyd etmişdir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

ATU-da mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir. ATU-da ali təhsil pilləsində elmi araşdırmalar təhsil idarəetmə orqanlarının tabeliyində fəaliyyət göstərən elmi tədqiqat strukturlarında, ATU-nun elmi-tədqiqat laboratoriyalarında, universitet klinikalarında, kafedralarda və s. aparılır. ATU-nun elm sahəsində fəaliyyəti onun profilinə uyğun elmin müvafiq sahələrinin inkişafına, elmi-tədqiqatların nəticələrinin tədris prosesinə tətbiqinə yönəldilir. Aparılan elmi-tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır. ATU

aparılan elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata və tədris prosesinə (mühazirə, məşğələ, seminar, laboratoriya dərslərinə, kurs layihələrinə, kurs və buraxılış işlərinə, magistr dissertasiyalarına) tətbiq olunmasını və monoqrafiyalar, elmi məqalələr, dərsliklər, dərs vəsaitləri, metodik vəsaitlər şəklində dərc olunmaqla və elmi forumlarda məruzə edilərək yayılmasını təşkil edir. Fakültələrdə Tələbə Elmi Cəmiyyətinin özünəməxsus rolu vardır ki, onlar tərəfindən hər il universitetdə magistrant, rezident və doktorantlar elmi-tədqiqat və elmi yaradıcılıq işlərinə aktiv cəlb olunurlar. Tələbə Elmi Cəmiyyəti tərəfindən təşkil olunan konfrans və müxtəlif elmi seminarlarda gənc tədqiqatçıların apardıqları elmi tədqiqatlar və əldə olunmuş nəticələr müzakirə olunur.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Elmi-tədqiqat strategiyası hazırlandıqdan sonra ATU-da akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığının təmin olunması tövsiyə olunur.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

2017-2022-ci illərini əhatə edən elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığından müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyətini məqsədəuyğun olmamışdır.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ATU-da elmi-tədqiqat strategiya sənədinin hazırlanması zamanı daxili və xarici maraqlı tərəflərin rəylərinin öyrənilməsi üçün müxtəlif tədbirlərin keçirilməsi tövsiyə olunur.

## *4.2 Tədqiqat resursları*

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

ATU-da Elmi işlər üzrə prorektorluq, Elmi hissə, Elmi-Tibbi tədqiqatların əlaqələndirilməsi şöbəsi, Elmi-Tədqiqat Mərkəzi, Kitabxana, Doktorantura şöbəsi, Patentlər, İxtisaslaşmış müdafiə şuraları, Konfranslar və simpoziumlar, Səhiyyə təşkilatına kömək, Elmi-Tədqiqat laboratoriyaları, Tibbi statistika və Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Özünütəhlil hesabatında qeyd olunduğu kimi ATU-nun zəngin maddi texniki bazası, tədris korpusları və dörd klinikaları ilə Azərbaycanın ən nəhəng elm və tibbi ocaqlarından biridir. ATU-nın əsas elmi-eksperimental bazası olan Elmi Tədqiqat Mərkəzi və elmi laboratoriyaları, müasir cihazlar və avadanlıqlarla təchiz edilib ki, bu da elmi axtarışların əhəmiyyətini artırmağa, tibb sahəsində kifayət qədər kadr potensialı yaratmağa imkan verir. ETM-də böyük əhəmiyyət kəsb edən fundamental və eləcə də tətbiqi elmi-tədqiqat işləri aparılması nəzərdə tutulur. Aparılan

tədqiqatların səriştələrinin və mədəniyyətinin təkmilləşdirilməsi məqsədi ilə ATU-nın nəzdində Lokal Etik Komitə fəaliyyət göstərir və universitetin təsisçi olduğu dörd elmi jurnalları mövcuddur. Qeyd edək ki, ATM-in elmi-tədqiqat məqsədləri və strategiyası üçün uyğunluğu vəziyyətinin ölçülməsi üçün rəsmiləşdirilmiş strategiyası sənədinin olmamasından indikatoru ölçmək mümkün olmamışdır. Bununla belə, elmi-tədqiqat üçün büdcədə müəyyən vəsait nəzərdə tutulmuşdur. Aşağıda qeyd olunan diaqramda 2018-2022-ci illər üzrə ATU-nun elmi-tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı qeyd olunmuşdur.




### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Azərbaycanda tibb elmləri üzrə alimlərin əsas heyəti ATU-da fəaliyyət göstərir. ATU-nun tədqiqatçıları nüfuzlu xarici universitetlərdə və klinikalarda elmi təcrübələrini aparılar. Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı 1166-dır.

2017-2022 –ci illərdə Azərbaycan Tibb Universitetinin dissertasiya işlərini müdafiə edən və elmi ad alan əməkdaşlarının sayı haqqında məlumat aşağıdakı diaqramda qeyd olunmuşdur.




### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Ali təhsil qarşısında duran ən mühüm vəzifələrdən biri müasir tələblərə cavab verən yüksək ixtisaslı kadrlar hazırlamaq, onlara nəzəri və təcrübi vərdişlər aşılamaqdır. İxtisaslı mütəxəssislərin hazırlanmasında tələbə elmi işlərinin çox mühüm əhəmiyyəti vardır. ATU-da elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların elmi-tədqiqat işinin təşkilini əsasən Tələbə Elmi Cəmiyyəti həyata keçirir. TEC-in əsas məqsədi istedadlı və ixtisaslaşmış tibb kadrlarının hazırlanması keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-konfransların həyata keçirilməsi, TEC-üzvlərinin elmi tədqiqat fəaliyyətinin müasir inovativ metodlara uyğunlaşdırılmasında ali təhsil müəssisələrinin işinə kömək etməkdən ibarətdir. Tələbə elmi cəmiyyəti (TEC) – könüllü ictimai cəmiyyətdir və hal-hazırda 1200 tələbə TEC-in üzvüdür. Gənclərin elmi şurasının sədrı tələbələr tərəfindən seçilir. Tələbə şurasını 10 nəfər təşkil edir. İl ərzində keçirilən tədbirlər şurada müzakirə olunur. TEC-ə üzv olan tələbə elmi işinə daxil olan pasiyentlərin laborator analizlərini ATU-nun laboratoriyasında ödənişsiz aparmaq hüququna malikdir. Elmi rəhbər tərəfindən TEC-in üzvü olan tələbə ədəbiyyatla təmin olunur. 2017-2023-cü illər ərzində mütamadi olaraq hər il bütün fakültələr də elmi konfranslar keçirilmiş ən yaxşı göstəricilərə malik tələbələr müxtəlif Tibb Konqresində iştirak etmək hüququ qazanmışlar. Tibb Konqresində Türkiyə, Rusiya, Almaniya, İran, Özbəkistan, Pakistan və s. ölkələrdən olan həkimlər, gənc alim və tələblər iştirak etmişlər. Qeyd etmək istiyərdik ki, aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti yüksək səviyyədə təşkil olunur.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

ATU-nun kitabxana fondu (01.06.2023-ci il tarixinə) 437232 yerli və xarici çap nəşrlərinin surətləri o cümlədən 308835 dərsliklərdən ibarətdir. ATU-nun kitabxanasında və korpuslarında EPSCO nəşriyyat bazasına çıxış mövcuddur. ATU tərəfindən ildə 1 dəfə üzvlük haqqı ödənilir.

Bununla bərabər professor- müəllim heyəti РИНЦ, Scopus analitik sistemlərinə, PUB MED, Web of Sience bazalarından istifadə edillər.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdırmaq üçün bir sıra tədbirlər görülür. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 185-ci maddəsini əsas tutaraq, Azərbaycan Tibb Universitetinin Elmi Şurasının 25.02.2021-ci il tarixli qərarına əsasən, ildə üç dəfə - Qurban, Ramazan və Novruz bayramlarında Azərbaycan Tibb Universitetinin Qəbul portalında əcnəbi və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı və onlayn müsahibələri prosesi tam şəffaflıq şəraitində icra edilməsini nəzərə alaraq, komissiyanın üzvlərinin hər birinin mükafatlandırılması işləri həyata keçirilir.
Universitetin ictimai həyatında uzun müddətli aparıcı rolunu, səmərəli elmi–pedaqoji fəaliyyətini nəzərə alaraq və anadan olmalarının yubileylərinin münasibətilə, “təşəkkür”lə, “Fəxri Fərman”la təltif və bir aylıq əmək haqqı məbləğində mükafatlandırılmalar olur. Belə ki, 2018-ci ildə 4 alimin yubiley tədbiri keçirilmişdir, 2019-cu ildə 6, 2020-ci ildə 2, 2021-ci ildə 2 və 2022-ci ildə 3 mükafatlandırmalar həyata keçirilmişdir.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Son üç ildə elmi-tədqiqat fəaliyyəti, qrant və layihələr nəticəsində əldə olunan gəlirlər ilə bağlı artan dinamika müəyyən edilmişdir. Elmi-tədqiqat fəaliyyəti nəticəsində 2018-2019-cu ildə olmamış, 2020-ci ildə 2215 AZN, 2021-ci ildə 12882 AZN və 2022-ci ildə 9498AZN məbləğində gəlir əldə olunmuşdur. Qrant və layihələrdən 2020-ci ildə 36799 AZN, 2021-ci ildə 144405 AZN və 2022-ci ildə 144420AZN məbləğində gəlir əldə olunmuşdur. Əldə olunan gəlirlərin artım dinamikası aşağıdakı diaqramda qeyd edilmişdir.



### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Hesabat dövrünün əlavə sənədlərində tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların sayı 21 olaraq illər üzrə qeyd edilmişdir. Lakin, səfər zamanı bir neçə ali təhsil müəssisəsi və elmi müəssisələr ilə tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu əks etdirən sənədlər qeyd edilsə də, müvafiq sahədə bəzi əməkdaşlıq müqavilə sənədləri təqdim edilməmişdir. Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların sayıları illər üzrə faizlə göstəricisi aşağıda qeyd olunmuşdur.




## *4.3 Elmi-tədqiqat fəaliyyəti*

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üçün bir neçə struktur vahidi - Elmi işlər üzrə prorektorluq, Elmi-Tibbi tədqiqatların əlaqələndirilməsi şöbəsi, Elmi-Tədqiqat Mərkəzi, Doktorantura və dissertantura şöbəsi, Elmi-tibbi məlumat, patent, innovasiya və qrant qrupu, İxtisaslaşmış müdafiə şuraları, Problem komissiyası, Antiplagiat komissiyası, Yerli etik komitə, Dissertasiya işlərinin ilkin sənədlərinin yoxlanılması komissiyası, Elmi-Tədqiqat laboratoriyaları, Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. SİP-də qeyd olunmuş əsas fəaliyyət planları 2023-2030-cu illəri əhatə edir. Elmi-tədqiqat üzrə strategiya sənədinin və illik fəaliyət planları sənədinin olmadığı üçün  hazırlanması tövsiyə olunur

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Azərbaycan Tibb Universitetində 2017-2022-ci illərdə ümumilikdə 146 Respublika səviyyəli və 79 beynəlxalq nüfuzlu konfranslar keçirilmişdir. Hesabat dövrü ərzində ATU-da keçirilmiş konfranslar, seminarların, görüşlərin və s. illər üzrə statistikası aşağıdakı kimi qeyd olunmuşdur:




### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

2017-2022-ci illərdə elmi-tədqiqat xarakterli tədbirlərdə Türkiyə, Rusiya, İran, Almaniya, Özbəkistan, Meksika, Pakistan kimi ölkələr daxil olmaqla müxtəlif xarici ölkələrdən, eləcə də ölkəmizin müxtəlif mərkəzi xəstəxanalarında çalışan, Naxçıvan MR Dövlət Universiteti Tibb fakültəsinin əməkdaşları, Şirvan Diaqnostik Mərkəzinin əməkdaşları, Şəki, Qusar, Quba, Ağdam, Ağdaş, Bərdə rayon mərkəzi xəstəxanalarında çalışan həkimlər, müxtəlif tədqiqatçılar iştirak etmişdir. Müştərək konfrans materialları cərrahiyyə, pediatriya, stomatologiya, onkologiya, psixiatriya, ginikologiya, oftolmologiya, endokrinologiya, nevrologiya, epidemiologiya, hematologiya, kardiologiya, mikrobiologiya, histologiya, biokimya, əczaçılıq, genetika, tibbi statistika və s. ixtisaslar üzrə nəşr olunmuşdur. Aşağıda təsvir olunan diaqramda hesabat dövrü ərzində tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirak etmə vəziyyəti əks olunmuşdur. Hərbi-Tibb fakültəsində təhsil alan həkim-rezidentlər tərəfindən xarici ölkələrdə elmi məqalə ilə konfransda çıxış etmək istəyənlər dövlət hesabına bu konfranslara göndərilirlər.




### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında da aşağıda təsvir olunan diaqramda Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə iştirak etmiş gənc təhsilalan-tədqiqatçıların illər üzrə dinamikası öz əksini tapmışdır.




### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Azərbaycan Tibb Universitetinin əməkdaşları 2017-2022-ci illər ərzində ümumilikdə 11 layihə üzrə, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Təhsil və Elmi-Tədqiqat Layihələri, AXSANA EUBREAST3 Tədqiqat Protokolu və JİCA qrant layihələrinin qalibləri olmuşlar:

- Qeyri-alkoqol mənşəli yağlı qaraciyər xəstəliklərində sirrozun inkişafında rol oynayan gen polimorfizmlərinin proqnostik rolunun tədqiqi

- Qaraciyər transplantasiyasından sonra biliar fəsadlarının profilaktikası və erkən diaqnostikasında mikro-RNT-lərin rolu
- Azərbaycanda klinik materiallardan və ətraf mühitdən izolyə edilən Aspergillus fumigatus ştamlarının genotipik xüsusiyyətlərinin öyrənilməsi
- Yeni peptid əsaslı antimikrobial agentlərin dizaynı və in vitro/in vivo öyrənilməsi
- Oynaq xəstəlikləri zamanı sinobial mayedə və qan plazmasında sərbəst amin turşuların və zülal fraksiyalarının dəyişmə dinamikasının öyrənilməsi və diaqnostik terapevtik məqsədi ilə tədqiqi
- Bukkal epitelidə siqnal molekulların ekspressiyası: homeostazın stabilliyinin qiymətləndirilməsi və sosial-əhəmiyyətli insan xəstəliklərinin diaqnostikası və proqnozunun optimallaşdırılması
- Bədxassəli şişlər zamanı xərçəng kök hüceyrələrinin İNF- vasitəsilə aktivləşdirilməsinin müalicəvi və proqnostik əhəmiyyəti
- Xitozan və onun modifikantları əsasında nanoölçülü daşıyıcıların sintezi və onların qalxanabənzər vəzin müalicəsində uzunmüddətli terapevtik tətqiqi
- Xərçəng kök hüceyrələrinin mədəaltı vəzin xərçəngində rolunun araşdırılması və yeni müalicə üsulunun işlənilməsi
- Neoadyuvant kimyaterapiya ilə müalicə olunan klinik olaraq limfa düyünü pozitiv süd vəzi xərçəngi xəstələrində müxtəlif aksulyar mərhələndirmə üsullarını qiymətləndirilməsi
- Yenidoğulanlarda hemodinamik dəyişikliklə-rin monitorinqi üçün qeyri-invaziv kardio-monitorun alınması

Elm və təhsil sahəsində iştirak edilən beynəlxalq qrant layihələrin sayı 9-dur və aşağıdakı cədvəldə illər üzrə statistikası qeyd olunmuşdur.

| **İllər** | **Elm və təhsil sahəsində iştirak edilən beynəlxalq qrant layihələrin sayı** |
|---|---|
| 2017 | 2 |
| 2018 | 4 |
| 2019 | - |
| 2020 | - |
| 2021 | 2 |
| 2022 | 1 |

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Universitetin əməkdaşları tərəfindən 2018-2022-ci illər ərzində, 40 yerli patent və 32 xarici patent alınmış və illər üzrə aşağıdakı diaqramda əks olunmuşdur.




### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

2017-2022-ci illərdə yalnız tədqiqat sahəsində 21 elmi müəssisə və təşkilatlarla əməkdaşlıq etmişdir. Qeyd edək ki, ATU-da institusional əməkdaşlığın aparılması və birgə təşəbbüslərin həyata keçirilməsinə dair dəstəyin göstərildiyi müşahidə edilmişdir. ATU-da TEC-in ölkədaxili- Naxçıvan Dövlət Universitetinin tibb fakültəsi, BDU və xarici- Türkiyə, Özbəkistan, Tacikistan, Hollandiya tibb universitetləri və s. ilə əlaqələri ilə sıx əlaqələri vardır. Qeyd edək ki, 18 may 2023 il tarixində “Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” adlı görüşdə Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən əksər elmi-tədqiqat institutları və müəssisələr, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Təhsilin İnkişaf Fondu, dövlət və özəl xəstəxanaların, iri klinikalar və tibb xidmətləri sferasındakı bir sıra qurumların rəhbərləri iştirakı ilə aparılan müzakirələr əsasında təklif olunmuş missiya və baxışın ölkənin əmək bazarına, cəmiyyətin gözləntilərinə və iqtisadiyyatın inkişafına uyğun olduğu müəyyənləmişdir. Həmin görüşün əsasında inkişaf strategiyasının prioritet istiqamətləri müəyyənləşmişdir.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

Hesabat dövründə müxtəlif xarici və yerli elmi təşkilatlar və müəssisələrlə birgə tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcud olsa da, yalnız 2019-cu ildə birgə tədqiqat proqramı həyata keçirildiyi haqqında məlumat ATU-nun təqdim etdiyi Excel cədvəldə də öz əksini tapmışdır.

| № | İllər | Birgə tədqiqat proqramlarının sayı |
|---|---|---|
| 1. | 2017 | - |
| 2. | 2018 | - |
| 3. | 2019 | 1 |
| 4. | 2020 | - |
| 5. | 2021 | - |
| 6. | 2022 | - |

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Özünütəhlil Hesabatında bu haqda məlumata rast gəlinməmişdir. Lakin 2019-cu ildə 1 nəfər və 2021-ci ildə də 1 nəfər beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak haqqında məlumat ATU-nun təqdim etdiyi Excel cədvəldə qeyd olunmuşdur. Bu meyar üzrə nəticələr o qədərdə qənaətbəxş hesab edilməmişdir

| № | İllər | Beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak etmiş tədqiqatçıların sayı |
|---|---|---|
| 1. | 2017 | - |
| 2. | 2018 | - |
| 3. | 2019 | 1 |
| 4. | 2020 | - |
| 5. | 2021 | 1 |
| 6. | 2022 | - |

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Universitet rəhbərliyi tələbələri yeni işlənmiş, bütün fənlər üzrə tədris prosesinin təşkil edilməsi üçün lazımı ədəbiyyatla təmin edir. Bu baxımdan tələbələrin təminatını məqbul hesab etmək olar. Pandemiya dövründə ölkəmizin bütün ali məktəblərində olduğu kimi Azərbaycan Tibb Universitetində də həm 2019-2020-ci ilin yaz, həm də 2020-ci ilin payız semestrlərində dərslər onlayn qaydada aparılıb. 2021-ci ilin yaz semestrində Nazirlər Kabinetinin müvafiq qərarı və Təhsil Nazirliyinin təsdiq etdiyi qaydalara uyğun olaraq 3, 4, 5 və 6-cı kurslarda ənənəvi əyani dərslərə başlanıldı. 1 və 2-ci kurslarda isə onlayn dərslər davam etdirildi.

Bu dövrdə digər universitet kitabxanalarından fərqli olaraq Əsaslı Kitabxana tələbələrin dərs yükünün ağırlığını nəzərə alaraq universitet rəhbərliyinin tövsiyə və göstərişlərinə uyğun olaraq, onların dərsliklərlə təmin olunmasına çalışmışdır. 5 illik tədris illərini əhatə edən hesabatdakı fərq məlum pandemiya dövründə oxucu gəlişinin nisbətən aşağı olması ilə əlaqədardır. Kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti 3,7 təşkil edir.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

ATU-nun təsisçi olduğu dörd jurnal mövcuddur, bu da elmi-tədqiqatın materiallarını dərc edilməsinə imkan yaradır. Bundan savayı ATU-nun təşkil etdiyi konfransların materiallarında tezisləri dərc etmək imkanını yaradılır. Tələbələrin apardıqları elmi işlərin nəticələri kafedra və fakültə iclasında müzakirə olunur və hər il keçirilən yekun konfransın materiallarında dərc olunur. Ümumi və tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası aşağıdakı cədvəllərdə verilib**.**

| **İllər** | **Monoqraqfiya/ xaricdə** | **Dərslik və dərs vəsaiti** | **Kitablar/ xaricdə** | **Tezislər/ xaricdə** |
|---|---|---|---|---|
| **2018** | 7/1 | 72 | 4/3 | 934/294 |
| **2019** | 6/1 | 57 | 4/1 | 1484/344 |
| **2020** | 3/- | 37 | 4/3 | 633/219 |
| **2021** | 5/- | 40 | 12/4 | 930/305 |
| **2022** | 11/1 | 65 | 9/1 | 1105/417 |

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Akkreditasiya komissiyasının əməkdaşları müəyyən etmişdir ki, 2018-2022-ci ATU-nun əməkdaşlarının dərc olunmuş 3507 yerli jurnallarda məqalələr, 1433 məqalə xarici jurnallarda, ümumilikdə 4940 məqalə çap edilmişdir ki, onlardan 548 məqalə Web of Science və 259 məqalə isə Scopus bazalarına daxil olan nüfuzlu jurnallarda çap edilmişdir. İllər üzrə ayrı-ayrılıqda nəticələr aşağıdakı kimidir:

| **İllər** | **Yerli məqalələr** | **Xarici məqalələr** | **İmpakt faktoru olan jurnallarda** | |
|---|---|---|---|---|
| | | | **Web of Science** | **Scopus** |
| **2018** | 706 | 272 | 136 | - |
| **2019** | 759 | 257 | 199 | - |
| **2020** | 658 | 296 | 47 | 66 |
| **2021** | 678 | 311 | 109 | 28 |
| **2022** | 706 | 297 | 57 | 165 |

2018-2022-ci illərdə Azərbaycan Tibb Universitetində çalışan əməkdaşların elmi məqalələrinə ümumilikdə 13164 istinad olmuşdur. Scopus və Web of Science bazalarına daxil olan jurnallarda dərc olunmuş məqalələrinə istinadetmə indeksinin (“citation index"-in) dinamikası aşağıdakı diaqramda qeyd olunmuşdur.




**4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti**

Magistratura pilləsinə qəbul “Magistr hazırlığı haqqında AR NK 13 fevral 1997-ci il tarixli QƏRARI” və “Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında əsasnamə”ni rəhbər tutaraq aparılır.

Rezidentura pilləsinə qəbul Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin əmrlərinə əsasən icra olunur. “Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli qərarını rəhbər alaraq həyata keçirilir. Doktorantura, rezidentura və magistratura təhsilinin təşkili gənc kadrların hazırlanmasında vacib rol oynayır. ATU-da magistraturanın təşkili, tədris proqramların səviyyəsi və elmi təfəkkürün formalaşmasının təməlini qoyaraq, elmə maraq oyadır, bu da öz əksini magistr dissertasiyalarında tapmışdır. Hər il ATUREG konfranslarının keçirilməsi, konfransın materiallarını tezislər toplusu şəklində dərc olunması gənclərdə elmlə məşgul olmaq həvəsini artırır. Lokal Etik Komitəsinin, antiplagiat proqramının ATU-da mövcud olması standartlara uyğundur, bu da yerinə yetirilən elmi işlərin keyfiyyətini və dürüstlüyünü yüksəldən amillərdən biridir. Hər il hesabat verilməsi rezidentlər və magistrların bilik səviyyəsinin qiymətləndirməsi, onların həm güclü, həmdə zəif tərəflərini aşkar edir.

ATU-nun beynəlxalq əlaqələrin yaradılması doktorantların, magistrlərin və rezidentlərin yüksək reytinqi olan universitetlərdə təcrübə keçməsi onların tibb elmində biliklərini daha da artırır. Akkreditasiya dövründə magistratura və rezidentura səviyyələrində ixtisasların tədris proqramlarına yerində sənədlərə baxış zamanı ixtisaslar üzrə tədqiqat metodları fənlər keçirildiyi məlum olmuşdur. Doktorantura səviyyəsində isə bütün fəaliyyəti elmi tədqiqatlara yönəlmiş olur ki, bu da doktorantın təhsili müddətində peşə biliklərinə dərindən yiyələnməli, müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli və elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəyərək fərdi iş planını tam yerinə yetirməlidir.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

Həm universitet daxilində, həm də tibb təhsili sahəsində tədqiqat təcrübəsi olan tibb mütəxəssisləri, pedaqoji-psixoloqlar və sosioloqlar, tibbi təhsil və praktiki tibb sahəsində ekspertləri cəlb edilməklə təhsil təcrübəsinə çıxışın təhlili aparılır. Tibb təhsili və praktiki tibb sahəsində mühüm problemlərə aid müəllimlərin təkmilləşdirmə kursunun proqramları müəyyən edilir. Professor-müəllim heyətinin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlər, seminarlar və müxtəlif sistematik tədbirlər həyata keçirilir. Sürətlə dəyişən səhiyyə və tibb təhsili mühitində əsasən də COVİD-19 pandemiyasından sonra, ATU yeni tədris və müalicə üsullarını nəzərə alaraq yeni inkişaf strategiyasını və fəaliyyət planını tərtib etdi. Bununla bərabər missiyasını və baxışını yenilədi. Baxışını, missiyasını, inkişaf strategiyasını və fəaliyyət planını yeniləmək üçün universitetin idarəedici heyətinə, struktur bölmə rəhbərlərinə və onların əməkdaşlarına 10 həftəlik "Effektiv Strateji planlaşdırma və proqram qiymətləndirilməsi" adlı təlim keçirilmişdir. Təlim ATU-da ABŞ-ın Azərbaycan Respublikasında səlahiyyətli səfirliyi tərəfindən həyata keçirilən English Language Fellow proqramı üzrə fəaliyyət göstərən Tiffany Tillman tərəfindən aparılmışdır.

ATU-da akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş mütəmadi sistemli təlimlər keçirilir. Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yaranmasından öncə "Təlimçinin təlimi" proqramı 2021-ci ilin dekabrından 2022-ci ilin iyuluna qədər on bir (11) qrupda həyata keçirilmişdir. Təlimdə Azərbaycan Tibb Universitetində fəaliyyət göstərən dekanlar, dekan müavinləri, müxtəlif kafedraların tədris işləri üzrə müdir müavinləri, professorlar, dosentlər, assistentlər və baş laborantlar olmaqla ümumilikdə 127 nəfər iştirak etmişdir. Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yarandıqdan (07.09.2022) sonra isə 24 yanvar-10 fevral 2023 tarixlərində 3 qrup olmaqla ümumilikdə 45 nəfər müxtəlif kafedraların dosent və assistentlərinə "Pedaqoji peşəkarlığın inkişafı" kursu verilmişdir. Bununla yanaşı, 24 yanvar-10 fevral 2023 tarixlərində müalicə profilaktika, əczaçılıq və stomatologiya fakültələrinə bağlı olan kafedraların ekspertlərinə "Çoxseçimli testlərin hazırlanması, tətbiqi və analizi" kursu keçirilmişdir. Kursda ümumilikdə 100 ekspert iştirak etmişdir.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Doktoranturada təhsil Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmiş proqramlara əsasən aparılır. İş planları 2017, 2018, 2019, 2021, 2022-ci illər üçün təqdim olundu.

**4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti 1**

ÖTH-də ATU-da elmlər doktoru və professorların sayının qeyd edilməmişdir. Lakin, fakültələrin tədris prosesində iştirak edən və əsas iş yeri müəssisə olan akademik heyətin, ümumi akademik heyətin tədris illəri üzrə dəyişməsi faizlə aşağıdakı cədvəldə göstərilmişdir.

**Tədris prosesində iştirak edən və əsas iş yeri müəssisə olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə)**

| Fakültələr | 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 |
|---|---|---|---|---|---|---|
| I MPF | 95.5 | 95.5 | 95.6 | 95.7 | 95.7 | 95.8 |
| II MPF | 96.3 | 96.5 | 96.9 | 96.6 | 95.4 | 95.8 |
| Stomatologiya | 87 | 90 | 89 | 90 | 91 | 91 |
| Əczaçılıq | 82 | 97 | 99 | 94 | 93 | 92 |
| İctimai səhiyyə | 95.6 | 95.7 | 94.3 | 94.7 | 89.9 | 95.4 |
| Hərbi tibb fakültəsi | 100 | 100 | 100 | 100 | 100 | 100 |

**4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

2017-2022-ci illər üzrə elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə olan nisbətinin dəyişmə vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır. Cədvəldə fakültələri illər üzrə dəyişmə nəzərə çarpandır və bu məlumatların təhlilinə əsasən, elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyətini qənaətbəxş hesab etmək olar.

**Elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə)**

| Fakültələr | 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 |
|---|---|---|---|---|---|---|
| I MPF | 68.8% | 57.4% | 56.7% | 62.6% | 65.8% | 68.8% |
| II MPF | 86.4% | 84.7% | 81.5% | 78.9% | 88.7% | 89.5% |
| Stomatologiya | 25% | 22% | 23% | 26% | 21% | 20% |
| Əczaçılıq | 50% | 36% | 67% | 66% | 66% | 68% |
| İctimai səhiyyə | 53% | 53.9% | 52.8% | 51.0% | 53.8% | 53.2% |
| Hərbi tibb fakültəsi | 8% | 8% | 11% | 11% | 11% | 11% |

### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

ATU-də fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura, dissertanturada və rezidentura kadr hazırlığı aparılan ixtisasları vardır və rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasları aşağıdakı cədvəldə qeyd olunmuşdur;

| **Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar:** |
|---|

| |
|---|
| 060901-Anesteziologiya-reanimatologiya<br>060902-Ümumi cərrahiyyə<br>060903-Neyrocərrahiyyə<br>060904-Plastik cərrahiyyə<br>060905-Ürək-damar cərrahiyyəsi<br>060906-Uşaq cərrahiyyəsi<br>060907-Otorinolarinqologiya<br>060908-Travmatologiya və ortopediya<br>060909-Onkologiya<br>060910-Urologiya<br>060911-Oftalmologiya<br>060912-Mamalıq-ginekologiya<br>060913-Psixiatriya<br>060914-Nevrologiya<br>060915-Daxili xəstəliklər<br>060916-Kardiologiya<br>060917-Nefrologiya<br>060918-Qastroenterologiya<br>060919-Hematologiya<br>060920-Dermatovenerologiya<br>060922-Allerqologiya və İmmunologiya<br>060923-Yoluxucu xəstəliklər<br>060924-Revmatologiya<br>060925-Endokrinologiya<br>060926-Narkologiya<br>060927-Fizioterapiya və tibbi bərpa<br>060928-Ftiziatriya<br>060929-Patoloji anatomiya və məhkəmə tibbi ekspertiza<br>060930-Pediatriya<br>060931-Şüa-terapiyası<br>060932-Şüa diaqnostikası<br>060935-Sosial-gigiyena və səhiyyənin təşkili<br>060937-Tibbi mikrobiologiya<br>060939-Tibbi genetika<br>060941-Ailə təbabəti<br>060942-Nüvə təbabəti<br>060949-Uşaq və yeniyetmə psixiatriyası<br>060950-Neonotologiya<br>060951-Uşaq endokrinologiyası<br>060952-Uşaq kardiologiyası<br>060953-Uşaq nefrologiyası<br>060954-Uşaq nevrologiyası<br>060955-Uşaq qastroenterologiyası<br>060956-Uşaq urologiyası |

| |
|---|
| 060957-Uşaq yoluxucu xəstəlikləri |
| 060958-Uşaq ürək-damar cərrahiyyəsi |
| 060934-Üz-çənə cərrahiyyəsi |
| 060935-Sosial-gigiyena və səhiyyənin təşkili |
| 060943-Endodontiya |
| 060944-Parodontologiya |
| 060945-Restorativ stomatologiya |
| 060946-Ortopedik stomatologiya |
| 060947-Uşaq stomatologiyası |
| 060948-Ortodontiya |
| 060935-Sosial-gigiyena və səhiyyənin təşkili |
| 060936-Gigiyena |
| 060937-Tibbi mikrobiologiya |
| 060938-Laboratoriya işi |
| 060940-Epidemiologiya |
| 060923-Yoluxucu xəstəliklər |

Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyası, Azərbaycan Respublikası prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuş proqramlar əsasında həyata keçirilir və müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluq təşkil edir.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATU-də elmi dərəcəsi olan professor-müəllim heyətinin, o cümlədən; elmlər doktoru, elmlər namizədi, PhD, hər il öz ixtisası üzrə elmi tədqiqatlarda iştirakı, monoqrafiyalar, elmi məqalələr, dərsliklər, metodik vəsaitlərin müəllifi olunması, konfranslarda, seminarlarda iştirak etməsi barədə hesabatlar verilir. Hər 5 ildən bir dosent və professor elmi adı olan ATU-nun hər bir işçisi attestasiya keçir və Prezidentin yanında olan Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunur.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

Doktorantura dissertasiyaları Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tatixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”yə uyğun olaraq imtahanlar verərək elmi tədqiqatlarının nəticələrini əks etdirən məqalələr dərc etdirməli və elmi tədqiqatlarının nəticələrini aprobasiya etdirərək elmi tədqiqat işini tamamlamalıdır”. Proses zamanı doktorant tərəfindən 3 ay ərzində seçdiyi mövzunun annotasiyası hazırlanır, kafedranın ümumi yığıncağında müzakirə olunur və işdə iradlar olmazsa, problem komissiyasına təqdim olunur. Problem komissiyasının müsbət qərarı olarsa, doktorant dissertasiya işinin mövzusunu təsdiq etmək məqsədi ilə ATU-nun Elmi Şurasına

müraciət edir. Elmi Şuranın iclasında mövzu təsdiq olunandan sonra AMEA-nın elmi tədqiqatların əlaqələndirmə şurasına son təsdiq üçün göndərilir. 6 ay ərzində doktorant elmi işinin mövzusunu təsdiq etməzsə, doktorantura şöbəsi tərəfindən araşdırılır və səbəblərdən asılı olaraq tədbir görülür.

Doktorantura zamanı təsdiq olunmuş dissertasiyanın mövzusuna aid ilkin material toplanır, statistik işlənməsindən sonra tezislər, məqalələr dərc olunur və alınan nəticələr seminarlarda, konfranslarda və s. təqdim olunur. Dissertasiyanın ilkin materialları yaradılmış komissiya tərəfindən yoxlanılır, dissertasiya isə Plagiat proqramında yoxlanılır. Dissertasiyanın ilkin müzakirəsi kafedra iclasında keçirilir, uğurlu keçərsə 2-ci aprobasiya elmi şuranın nəzdində elmi seminarda müzakirə olunur. Bu mərhələdə uğurla keçərsə, doktorant elmi işin müdafiəsi üçün ərizə ilə rektora müraciət edir.

Hal-hazırda ATU-də 6 elm sahələrində elmi şura mövcuddur. Yoxlama zamanı doktorantura dissertasiya şurasının elmi katibi tərəfindən dissertasiya müdafiəsinə aid sənədlər təqdim olundu.

### *4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

Azərbaycan Tibb Universitetinin işçi heyətindən və tələbələrindən akademik dürüstlük prinsipinə riayət etmələri tələb olunur. Hazırda ATU-da akademik dürüstlük siyasətinin çərçivəsində dissertasiya işlərinin (doktorant, dissertant, magistr) yoxlanılması üçün “Plagiat.pl” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında bağlanmış müqavilə əsasında StrikePlagiarism antiplagiat internet sistemi üzərindən istifadəsi təmin olunur (https://strikeplagiarism.com/en/). Sonradan bu müqavilə, bir qayda olaraq, hər il yenilənir. Universitetdə antiplagiat siyasəti və antiplagiat sisteminin tətbiqi qaydaları 16.12. 2019-ci il tarixli 541/A nömrəli "Azərbaycan Tibb Universitetində Antiplagiat Sisteminin tətbiq edilməsi haqqında" əmri ilə təsdiq olunmuşdur. Həmin əmrlə Elmi işlər üzrə prorektor sədr olmaqla Antiplagiat komissiyası yaradılmış, ATU üzrə antiplagiat qaydaları (meyarları və oxşarlıq əmsalları) müəyyən olunmuşdur. Universitetində Antiplagiat Proqramının qaydaları haqqında "Plagiat Əsasnamə" sənədi mövcuddur. Sənəddə hüquqi əsaslar, işlərin yüklənməsi proseduru (istifadəçi hesabları antiplagiat sistemində yaradılır), işlərin plagiata dair qiymətləndirmə metodologiyası, elmi işlərin plagiata dair qiymətləndirmə meyarları, tələbə işlərinin qiymətləndirilməsi elmi işlərin qiymətləndirilməsindən fərqlənir, tələbə işlərin plagiata dair qiymətləndirmə meyarları, diskvalifikasiya etmək, qəbul etmək və yekunlaşdırmaq, düzəliş üçün geri qaytarmaq, işlərinin plagiata dair qiymətləndirmə meyarları və apelyasiya proseduru haqqında qaydalar öz əksini tapmışdır (https://amu.edu.az/news/1319/azerbaycan-tibb-universiteti-antiplagiat-internet-sistemine-qosulur).

### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

Azərbaycan Tibb Universitetində səfər zamanı müsahibələr və müvafiq sənədlərin təhlili nəticəsində qeyd etmək lazımdır ki, akademik dürüstlüyün təmin edilməsində tədris prosesində də köçürmə hallarının qarşısının alınması məqsədi ilə antiplagiat sistemləri fəal istifadə olunur. Rektor tərəfindən təsdiq edilmiş bu qaydalar, doktorant, dissertant, magistr dissertasiyalarının müdafiəyə buraxılması üçün qərarın qəbul edilməsi zamanı işin orijinallığına dair müəlliflərin bəyanatı, elmi işin müdafiəyə (imtahana) buraxılması üzrə rəy və antiplagiat sistemindən qısa hesabat tələb edilir. Antiplagiat sisteminin əsas məqsədi digər mənbələrə oxşarlığının yoxlanılmasını, köçürülmə hallarının aşkarlanmasını təşkil etməkdir. Antiplagiat proseduru bütün magistr, rezident, fəlsəfə, doktorluq və digər elmi işlərin yoxlanılmasını nəzərdə tutur. Rektor tərəfindən təyin olunmuş sədr və sədr müavininin müsbət rəyi elmi işin müdafiə (diplom müdafiəsinə) buraxılması üçün zəruri hesab olunur. Antiplagiat yoxlanışının aparılması məqsədi ilə Elmi Seminardan öncə elmi işlər sistem inzibatçısına təhvil verilməlidir. Sistem icraçısı tərəfindən işin qəbul edilməsi protokolu hazırlanır, daha sonra təqdim olunan mətni analiz üçün İnternet Antiplagiat Sisteminin internet səhifəsində yerləşdirir. Hesabat hazır olduqda, sistem inzibatçısı bu hesabatı elektron və çap olunmuş şəkildə sədr və sədr müavininə göndərir. Müqayisə, işlərin yüklənmə və hesabatların sədr və sədr müavininə göndərilmə prosesi, işlərin təhvil verilməsindən sonra beş iş günü ərzində tamamlanır. Oxşarlıq hesabatı əsasında rəy hazırlanır, işin düzəlişə ehtiyacı olduğu zaman, işin müdafiəyə (imtahana) buraxılış protokolu əldə etdikdən sonra müəllif (tələbə) lazım olan dəyişiklikləri yerinə yetirir və düzəlişlərin elmi rəhbər tərəfindən təsdiqləndiyi halda işin düzəldilmiş variantını antiplagiat sistemində yoxlamaq üçün yenidən təqdim edilir. Antiplagiat sistemindən keçməyən işlər müdafiəyə buraxılmır. İşə düzəliş etmək məqsədi ilə Universitet tərəfindən müəllifə (tələbəyə) 3 şans verilir və hər cəhd yenidən bütün yoxlama dövrünü keçməyi tələb edir. ATU-da dərc olunan elmi jurnallarda (universitetdə 4 elmi jurnal dərc olunur) çap olunan elmi əsərlərin (elmi jurnallarda çap üçün təqdim olunan məqalələrin, konfranslara təqdim olunan məruzə və tezislərin və s.) yoxlanılması antiplagiat sistemindən keçirilməsi zəruri hesab olunur. Yoxlamanın nəticəsi barədə Antiplagiat Komissiyasının rəyi hazırlanır. Rəy müsbət olduqda doktorant, dissertant, magistr dissertasiyalarının müdafiəyə buraxılması qəbul edilir.

### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

ATU-də mövcud olan StrikePlagiarism antiplagiat sistemindən magistratura, rezidentura, doktorant, tələbələr və professor-müəllim heyəti yararlana bilir. Bakalavr, magistr, rezident və doktorant səviyyələrində tədqiqat işləri, tədqiqat layihələri, kurs işləri, məqalə, tezis və dissertasiya işlərinin, fəlsəfə doktoru dissertasiyaları və elmlər doktoru dissertasiyaları, həmçinin digər təhsil və elmi-tədqiqat müəssisələrinin də mütəxəssislərinin elmi-tədqiqat işləri

plagiat sistemində yoxlanılır. Qeyd edək ki, nə ÖTH-də nədə ki, əlavə olunmuş sənədlərdə plagiat yoxlanılması aparılmış sənədlər dair statistik məlumatlar qeyd edilməmişdir.

## İDARƏETMƏ SİSTEMİ

### *5.1 İdarəetmə orqanları*

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

Həmin idarəetmə orqanları fəaliyyətlərini "Təhsil haqqında Azərbaycan Respublikasının Qanun"a (https://e-qanun.az/framework/18343), "Elm haqqında Azərbaycan Respublikasının Qanun"a (https://e-qanun.az/framework/33488), Ali təhsil müəssisələri haqqında Əsasnaməyə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmr və sərəncamlarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına, Universitetin Nizamnaməsinə və lokal normativ sənədlərə, informasiya aşkarlığı, resurslara əlçatanlığın bərabərhüquqluluğu, qarşılıqlı məsuliyyət, bir nəfərin idarəçiliyi ilə kollegiallığın uzlaşdırılması prinsiplərinə əsaslanaraq həyata keçirilir. ATU-nun Nizamnaməsi əməkdaşlara və təhsilalanlara kollegial idarəetmə orqanlarında iştiraka zəmanət verir. İnformasiya aşkarlığı Universitetin rəsmi saytı, qəzet və digər çap olunmuş materiallar, respublika kütləvi informasiya vasitələri ilə təmin edilir. Universitetin idarəetmə sistemi rəsmi saytda yerləşdirilmişdir (https://amu.edu.az/ ). ATU-da idarəetmə orqanları: Universitetin Elmi Şurası, Rektoryanı Şura fəaliyyət göstərir.

Universitetin idarəetmə sistemi: təşkilati, təhsil-tərbiyə, təhsil-metodiki, elmi-tədqiqat, maliyyə-iqtisadi, təsərrüfat-idarəetmə, kadrlarla iş, inşaat-təmir və s. alt sistemlərindən ibarətdir. Universitetin idarə edilməsi sisteminə rəhbərliyi Rektor həyata keçirir. Rektor Universitetin inzibati-funksional idarəetmə strukturunu və ştat cədvəlini təsdiq edir. Universitetin Nizamnaməsinə müvafiq olaraq Universitetin prorektorları rektorun təqdimatı əsasında Səhiyyə Nazirliyi tərəfindən təyin olunur, onlar arasında sahələr üzrə iş bölgüsü rektor tərəfindən müəyyən olunur.

Elmi Şura və Rektoryanı Şura universitetin fəaliyyətinin idarə edilməsini Tədris departamenti və innovasiya və keyfiyyətin idarəolunması şöbəsi, fakültələr, kafedra və digər struktur bölmələri ilə birlikdə əlaqəli şəkildə həyata keçirir.

Universitetdə klassik üç səviyyəli idarəetmə sistemi: Elmi Şura və rektorat, fakültələr, kafedralar modeli ilə kollegial idarəetmə sistemi üzvi şəkildə uzlaşır.

Eyni zamanda Universitetdə tələbə dekanlığı fəaliyyət göstərir. Tələbə dekanlığı daimi fəaliyyət göstərən tələbələrin seçkili özünüidarəetmə orqanıdır.

Universitet əməkdaşlarının vəzifə funksiyaları işlənib hazırlanmışdır. Bu funksiyalarda ixtisas tələbləri, vəzifə öhdəlikləri, hüquq və məsuliyyətləri müəyyən olunmuşdur. Universitetin, struktur bölmələrinin, dekanlıqların, kafedraların idarə etmə sistemi ümumi

idarə etmə sisteminə uyğundur. İdarəetmə orqanlarının əsasnamələri, kitabça şəklində tədris ili üçün çap olunmuş iş planları mövcuddur. Strukturu, vəzifə bölgüsü, əsas vəzifələri və fəaliyyət istiqamətləri Universitet Nizamnaməsinin 6.5 bəndini rəhbər tutaraq əmirləşdirilib.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

Rektor yanında İctimai Nəzarət və Məsləhət Şurası yaradılmışdır ki, tərkibi millət vəkili, valideyn və media nümayəndələrindən ibarətdir. Bundan başqa, hər fakültədən tələbələrin səsverməsi yoluyla "Tələbə dekanı" seçilir və tələbə dekanları Rektoryanı Şurada iştirak edir. İctimai Nəzarət Şurası anonim qutulara atılmış tələbə, valideyn və müəllimlərin şikayətlərini araşdırır və müvafiq tədbirlər görür.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

İdarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına uyğun həyata keçirilir. Elmi Şuranın iclasında müzakirə olunaraq qəbul olunan və Rektor tərəfindən təsdiqlənən müvafiq tədris ili üçün iş planı kitabça şəklində tərtib olunaraq dərc olunur. Kitabçada həftənin günlərinə uyğun iş planı, tədbirlərin adı və vaxtı, icraçılar, icra müddəti, məsul şəxs, iştirak edənlər və s. qeyd olunur.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

Komissiya ATU-nun ali idarəetmə orqanı Elmi Şura və digər idarəetmə orqanlarının sənədləri ilə tanışlıqdan sonra bu qənaətə gəlmişdir ki, iş planlarına müvafiq olaraq məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mövcuddur. İdarəetmə orqanlarında müzakirə olunmuş məsələlər üzrə qəbul olunmuş qərarlar universitetin müvafiq bölmələrinə çatdırılır.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

ATU-nun Elmi Şurasının qərarlarının struktur bölmə rəhbərlərinə təqdim olunması və icra vəziyyətinə nəzarət mexanizmi mövcuddur. Komissiya müəyyən etdi ki, sənədlərin tərtibi zamanı Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət idarə, müəssisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"dan kənara çıxmalar var. Protokolların tərtibi zamanı qeyd olunan Təlimatın həm texniki, həm də məzmun müddəalarının gözlənilməsi tövsiyə olunur. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların icrasına nəzarətin daha təkmil təşkilinə ehtiyac var.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

ATU-nun idarəetmə orqanları arasında qarşılıqlı və effektiv kommunikasiya əlaqəsi qurulmuşdur. Qəbul olunmuş qərarlar elektron kommunikasiya vasitələri ilə və kağız daşıyıcılarında uyğun bölmələrə çatdırılır. İdarəetmə orqanlarının aydın iyerarxiyaya, idarəetmə prinsiplərinə sahib olması, vəzifə və səlahiyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi onların qarşılıqlı informasiya mübadiləsini, kommunikasiyanın qurulmasını zəruri edir, qəbul edilmiş qərarların icrası üçün zəmin yaradır, Universitetin missiyasının yerinə yetirilməsinə, strategiyasının həyata keçirilməsinə şərait yaradır. Bu sahədə işlərin daha effektiv aparılması tövsiyə olunur.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

ATU-da idarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş Universitetin Nizamnaməsi və müvafiq əsasnamələr ilə tənzimlənir. İdarəetmə orqanlarının səlahiyyət və vəzifə bölgüsü Universitetin bütün fəaliyyət istiqamətlərini əhatə edir və Universitetin strateji inkişaf planlarını həyata keçirməyə imkan yaradır.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

Komissiya müəyyən etdi ki, idarəetmə orqanlarının fəaliyyətinin monitorinq və qiymətləndirilməsinin aparılması üçün mexanizm hələ mövcud deyil. İdarəetmə orqanlarının fəaliyyətinə dair illik hesabatlar müvafiq şura iclaslarında müzakirə edilərək qəbul olunur, protokollaşdırılır və hesabat aidiyyəti üzrə təqdim olunur. Universitetdə idarəetmə orqanları öz fəaliyyətlərini ATU-nun Nizamnaməsi və öz əsasnamələri əsasında qurur. İdarəetmə orqanları şəffaf və nəticəyönümlü fəaliyyət göstərir, onların fəaliyyəti, qəbul etdikləri qərarlar haqında mütəmadi olaraq məlumat verilir. İdarəetmə orqanlarının fəaliyyətinin davamlı olaraq təkmilləşdirilməsi, idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin tezliklə işlənib hazırlanması tövsiyə olunur.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti

Hesabat dövründə idarəetmə orqanlarının fəaliyyətinin konkret monitorinqi və qiymətləndirilməsi mexanizminin olmadığına görə hazırkı dövrdə ATU-nun idarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətini qiymətləndirmək üçün mexanizmin hazırlanması tövsiyə olunur.

### *5.2 İnsan resurslarının idarə edilməsi*

#### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

ATU-da kafedra müdiri, dekan və dekan müavini vəzifələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na, professor-müəllim vəzifələrinin tutulması isə Azərbaycan Respublikası Təhsil Nazirinin 1996-cı il 07 avqust tarixli 401 saylı "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq aparılır. Hərbi Tibb Fakültəsinin hərbi rütbəli vəzifələri Müdafiə naziri tərəfindən verilən əmrlə təyin olunmuş hərbi həkimlər tərəfindən tutulur. Mülki müəllim və yardımçı tədris heyətinin işə götürülməsi Azərbaycan Tibb Universitetinin rektoru tərəfindən aparılır.

Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prossesi:

-Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 19.06.2017-ci il tarixli 8 № li Qərarı ("Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə)

-Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 29.11.2005- ci il tarixli 3204 №-li qeydiyyatı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası-nın 15.11.2005- ci il tarixli 24-2 №-li Qərarına ( Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası)

- Azərbaycan Respublikası Səhiyyə Nazirinin 70 N-li 19 sentyabr 2012-ci il tarixli əmri ilə təsdiq edilmiş "Tibb müəssisələrində çalışan tibb, əczaçılıq və digər ixtisaslar üzrə işçilərin nümunəvi vəzifə təlimatları" na uyğun olaraq aparılır.

Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən tənzimlənir.

Qeyri-akademik heyətin işə qəbulu prosesinin şəffaf və əlçatan formada həyata keçirilməsi üzrə mexanizmin hazırlanması tövsiyə olunur.

#### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

ATU-nun İnkişaf Strategiyasında müəyyənedici strateji amil kimi əməkdaşların inkişafının və Universitetin maliyyə dayanıqlılığının təmin olunması müəyyən edilmişdir. İnkişaf Strategiyasının müəyyənedici strateji amillərinin həyata keçirilməsi üçün ölçü vasitələri və ölçü vasitələrinin təsviri verilmişdir. ATU-nun İnkişaf Strategiyasında çevik və effektiv idarəetmənin təmin olunması, əməkdaşlar üçün etimad edilən idarəçiliyin yaradılması əsas hədəflərdəndir. Bunun üçün mütəmadi olaraq struktur islahatları həyata keçirilmiş, insan resursları, maliyyə resursları və informasiya resurslarının idarə edilməsində səmərəliliyi artırmaq məqsədilə

optimallaşdırma aparılmış, akademik və inzibati heyət Universitetin strateji inkişaf proqramına, maliyyə resurslarına və tədris yükünə uyğunlaşdırılmışdır.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

ATU-da işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sistemi mövcuddur. Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Differensial Əməkhaqqı Sisteminin tətbiq edilməsi tövsiyə olunur.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

ATU-da işçilərin motivasiyası və mükafatlandırılması sistemi mövcuddur. Bu sistem Universitetin Nizamnaməsinə uyğun olaraq tənzimlənir. Akademik heyətin səmərəliyinin vaxtaşırı qiymətləndirilməsi Universitet Elmi Şurasının 24.06.2023-cü il tarixli qərarı ilə qəbul edilmiş “Azərbaycan Tibb Universitetinin Keyfiyyət Təminati Siyasəti” və “Elmi-pedaqoji personalın kompetensiya səviyyəsinin bal-reytinq cədvəlinə əsasən qiymətləndirilməsi Qaydaları”-na müvafiq olaraq aparılır. ATU-da mükafatlandırılmış professor-müəllim heyəti və əməkdaşlarının məlumatları sənədinə görə 2017-2023 illərdə ümumilikdə 360 əməkdaş mükafatlandırılmışdır. Sənəddə professor-müəllim heyətinin işlədiyi kafedra, vəzifəsi, mükafatın nəyə əsasən və hansı qərara əsasən verildiyi qeyd olunmuşdur.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması sistemi mövcud deyil. ATU-da işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün xüsusi meyarlara əsaslanan mexanizmin hazırlanması tövsiyə olunur.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununun 48-ci maddəsinə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 179-cu maddəsinin “h” bəndinə uyğun olaraq, ATM-in professor-müəllim heyəti ixtisasartırma və peşəkarlıq səviyyələrini artırmaları üçün mütəmadi olaraq Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirilməsi İnstituta və orta tibb heyəti “Tibb bacısının işi” üzrə ixtisasartıma kurs keçmələri üçün isə 2 saylı Bakı Baza Tibb Kollecinə əməkhaqqı saxlanılmaqla göndərilirlər.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

Universitet səviyyəsində və Həmkarlar İttifaqı Komitəsi tərəfindən, habelə struktur bölmələrdə işçilər üçün Milli və Dövlət Bayramları münasibətilə və yubileylərlə bağlı tədbirlər, digər sosial-mədəni tədbirlər təşkil edilir. ATU əməkdaşlarının sosial-maddi vəziyyətini yaxşılaşdırmaq üçün birdəfəlik maddi yardım verilir.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Qeyri-akademik heyətin işə qəbulu prosesinin şəffaf və əlçatan formada həyata keçirilməsi üzrə mexanizmin hazırlanması tövsiyə olunur.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sistemi mexanizminin işlənib hazırlanması tövsiyə olunur.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

İşçilərlə əmək münasibətləri və mülki münasibətlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri gözlənilməklə rəsmiləşdirilir, eləcə də bu münasibətlərə xitam verilir.

Əmək müqavilələri sərbəst bağlanılır. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində nəzərdə tutulan əmək müqavilələri istisna olmaqla, digər vəzifələr üzrə işçilərlə bağlanılmış əmək müqavilələri, onlarda dəyişikliklər edilməsi və ya xitam verilməsi Universitet tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilir. Əmək münasibətlərində ayrı-seçkiliyə yol verilmir.

## *5.3 Maliyyə resurslarının idarə edilməsi*

### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

ATU-nun maliyyə resursları mənbələri onun Elmi Şurasının 23 may 2016-cı ildə qəbul olunmuş və 25 avqust 2016-cı ildə Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş Nizamnaməsinə uyğundur. Nizamnamənin 8.1 bəndinə uyğun olaraq ATU-nun əmlakı dövlət, bələdiyyə, təsisçi, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan və nizamnaməsində öz əksini tapan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir. Nizamnamənin 8.11-ci bəndinə əsasən universitetin maliyyələşdirilməsi təhsilin hər səviyyəsi

üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər “Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarına əsasən (https://e-qanun.az/framework/38404) hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla müəyyən edilir.

ATU-nun maliyyələşməsinin əsasını dövlət büdcəsi vəsaiti, dövlət sifarişi ilə təhsil alan tələbələr və ödənişli əsaslarla təhsil alan tələbələrdən daxil olan təhsil haqqı və büdcədənkənar daxilolmalar, qrant və layihələrdən əldə olunan gəlirlər və s. formalaşdırır. Hesabat dövründə, yəni 2018-2022-ci illər ərzində ATU-nun ümumi gəliri 35142422-dən 61237188-ə qədər artmışdır. Uyğun olaraq xərclər isə 35004780-dan 50555355-ə qədər artmışdır. Bu illər ərzində universitetin büdcəsi 42751836-dan 84338601-ə qədər artmışdır. Universitet “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/5458 ) ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Universitet “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa (https://e-qanun.az/framework/8882) uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

ATU-nun dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s. maliyyə resursları mənbələri onun Nizamnaməsinə uyğundur. Maliyyə mənbələrinin təyinatı üzrə aparılmış planlaşmadakı müddəalar Universitetin inkişaf istiqaməti və perspektivləri nöqteyi-nəzərindən də Nizamnaməyə uyğunluğu müəyyən edilmişdir.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırılması məqsədilə ATU-da vaxtaşırı iclaslar keçirilir və cari maliyyə vəziyyətinin təhlili aparılır, sonradan maliyyə resurslarının planlaşdırılması yuxarı rəhbərlik səviyyəsində həyata keçirilir. ATU-nun maliyyə resursları qısa və ortamüddətli dövr üçün gəlir və xərclərin 1 və 3 illik planlaşdırılması kimi Maliyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin birgə razılıq protokoluna uyğun olaraq aparılır. Göstərilən dövr üçün açılmış vəsaitə uyğun olaraq, bölmələr üzrə illik xərc smetası tərtib edilməklə iqtisadi təsnifata uyğun olaraq istifadə olunur. Universitetin büdcə gəlirləri təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti 2022-ci ildə 1.75% (1092068) olmuşdur. İl ərzində müəyyən səbəbdən istifadə olunmayan dövlət büdcəsinin vəsaiti isə ilin sonunda dövlət büdcəsinə geri qaytarılır. Universitet 5.3.1. bölməsində qeyd olunduğu kimi “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/5458 ) ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Universitet “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa (https://e-qanun.az/framework/8882 ) uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

ATU-nun Strateji İnkişaf planında müəyyənedici strateji amillərdən biri də universitetdə maliyyə dayanıqlığının təmin edilməsidir. Məqsəd maliyyə sabitliyinin təmin edilməsi üçün maliyyə resurslarının optimallaşdırılmasına, gəlir mənbələrinin artırılmasına və xərclərin effektiv şəkildə idarə olunmasına yönəlib. ATU-nun SİP-də nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətlərin maliyyələşdirilməsi müəyyənləşdirilərək illik icra göstəricilərinin reallaşdırılması məqsədilə müvafiq təhlillər aparılır. Hesabat dövrü üzrə təqdim olunmuş maliyyə hesabatlarına baxış əsasında ATU-da 2018-cı ildən başlayaraq maliyyə resurslarının analitik təhlilinin aparıldığı müşahidə edilmişdir. Bu isə öz növbəsində maliyyə resurslarının planlaşdırılması və ATM-in büdcəsinin artımı tendensiyasından xəbər verir. 2018-2022-ci illər ərzində universitetin büdcəsi 42751836-dan 84338601-ə qədər artmışdır.

Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlər universitetin SİP-ə uyğun şəkildə aparılır. Komissiya hesab edir ki, Universitetin SİP-ə uyğun maliyyə planlaşdırılması və bu sahədə fəaliyyətin monitorinqinin aparılması və yarımillik və illik monitorinq hesabatlarının hazırlanıb müzakirə edilməsinə ehtiyac var.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

Komissiya ATU-ya sahə səfəri zamanı təqdim edilmiş maliyyə hesabatlarının təhlilinə əsasən maliyyə göstəricilərində artım meylini müşahidə etdilər. ATU-da 2018-ci ildəki büdcədən kənar vəsaitlər 2022-ci ilə kimi 17003744-dən 25064851-ə qədər artmışdır. ATU-da əlavə maliyyə resursları əldə etmək üçün əcnəbi təhsilalanların qəbulu və onlar üçün elmi-tədqiqat və təhsil imkanlarının genişləndirilməsi, ATU-nun klinikalarına tibbi sığorta hesabına xəstələrin qəbulunun artırılması tövsiyə olunan məsələlərdir.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Maliyyə daxilolmaları haqqında məlumatlar daxili və xarici maraqlı tərəflər üçün şəffafdır. ATU-nun rektoru cari fəaliyyəti haqqında Elmi Şurada illik hesabat verir, qanunvericiliyə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarına da müvafiq hesabatlar təqdim olunur. Komissiya müəyyən etdi ki, zəruri ehtiyaclarla bağlı malların (iş və xidmətlərin) satınalınması “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir və hər büdcə ilinin yekunu üzrə Azərbaycan Respublikası Hesablama Palatasına hesabat verilir.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Universitetin missiyasına əsaslanaraq, fiziki və texnoloji resursların daimi qiymətləndirilməsi, hazırkı dövr üçün tələblər və gələcək planlar büdcənin real planlaşdırılmasının və bölüşdürülməsinin əsasını təşkil edir. Maliyyə cəhətdən universitetin fəaliyyətinin stabil və dayanıqlı olması tələbələrə göstərilən xidmət və verilən təhsilin

keyfiyyətinin artırılmasını təmin edir. Universitetin maliyyə vəsaitləri əsasən akademik məqsəd və proqramlara ayrılır. Maliyyə resurslarından istifadə ATU-nun Nizamnaməsinə uyğundur. Universitetin inkişaf istiqaməti üzrə stimullaşdırıcı tədbirlər çərçivəsində və qəbul olunmuş qərarlara əsasən resursların bölgüsü planlaşdırılır və həyata keçirilir.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Universitetin əmlakı nizamnamə fondundan, ona təsisçinin verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, habelə ödənişli təhsildən əldə olunan vəsaitdən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianələrdən, qrantlardan və universitetin nizamnaməsi ilə müəyyən edilmiş digər mənbələrdən daxil olan vəsaitdən formalaşdırılır. Universitet üzrə maliyyə resurslarının əldə etmək imkanının şəffalığı Universitet rəhbərliyinin razılığı əsasında tərtib olunan smeta və müqavilələrlə tənzimlənir.

Maliyyə resurslarında istifadə ATU-nun Nizamnaməsinə uyğun istifadə olunur. Universitetin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (https://e-qanun.az/framework/13421 ) ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə smetaların hazırlanması və təsdiq olunması ATU-nun 2016-cı ildə təsdiq olunmuş II oxunuş yeni nizamnaməsinə müvafiq olaraq tərtib edilərək istifadə olunur. Nizamnamənin 5.3-cü bəndi nəzərə alınmaqla, Universitetin əmlakı üzərində sahiblik və istifadə hüquqları məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə Səhiyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirir.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru ATU-nun Nizamnaməsinə uyğundur.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Maliyyə resurslarından təyinatı üzrə istifadəsinə cari nəzarət büdcə üzrə tərtib olunan smetaların təyinatına uyğun istifadəsinə Nəsimi rayon Yerli Xəzinədarlıq Orqanı, büdcədənkənar daxilolmalar üzrə daxilolmalar və xərclər üzrə smetasının həyata keçirilməsinə nəzarət isə Universitetin rəhbərliyi tərəfindən aparılır.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Universitet üzrə tələb olunan malların alınması görülən işlərin və xidmətlərin görülməsi üzrə satınalma prosedurlarının qanunvericiliyə uyğun təşkili və sənədlərin aparılması "Dövlət satınalmaları haqqında" (https://e-qanun.az/framework/1029) Azərbaycan Respublikasının

Qanununa müvafiq olaraq aparılır.Tərtib olunmuş katirovka və tender sənədlərinə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən nəzarət olunur.

Hesabatlar təsdiq edilmiş formada aidiyyəti orqanlara təqdim olunur.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATU-da "Mühasibat uçotu haqqında" (https://e-qanun.az/framework/5458) Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır. Universitet üzrə malların alınması, işlərin görülməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericilikdə tələb olunan mühasibatlıq sənədlərinə uyğun aparılır. Bununla əlaqədar olaraq ATU-da Tender Komissiyası fəaliyyət göstərir. Tender Komissiyası hər ilin sonunda müvafiq hesabatlar və təhlil arayışlarını tərtib edərək, universitetin rəhbərliyinə təqdim edir. Satınalma proseslərində iştirak edən bütün xarici təchizatçılar tərəfindən təmin olunan proses, məhsul və xidmətlər üzrə qiymətləndirmə mexanizmi tətbiq olunur.

İllər üzrə tələb olunan maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun tərtib olunaraq, aidiyyəti dövlət qurumlarına vaxtı-vaxtında təqdim olunur.

Universitetə sahə səfəri zamanı müvafiq istiqamətdə tərtib olunmuş hesabatlar və təhlil arayışlarına baxış keçirilmişdir

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Qiymətləndirmə zamanı Komissiya müəyyən etdi ki, baxılması nəzərdə tutulan əsaslar yəni, maliyyə resurslarının formalaşdırılması və istifadəsinin hüquqi əsası, büdcə smetaları və büdcədənkənar vəsaitlər üzrə daxilolma və xərclərin istiqamətlərini təsdiq edən sənədlər və maliyyə-mühasibat hesabatları universitetin rektoru tərəfindən təsdiq olunur. Universitetdə maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunduğu və aidiyyəti orqanlarla işin qurulmasının qənaətbəxş vəziyyətdə olduğu müəyyən edildi.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

ATU Nizamnaməsinə əsasən "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və tələb olunan yerlərə təqdim edir.

Verifikasiya zamanı aydın olmuşdur ki, maliyyə hesabatlarının dərc olunması həyata keçirilmir.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

ATU-da maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili auditin həyata keçirilməsi tövsiyə olunur.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu indikatorunun təhlili üçün ATU tərəfindən yazılı qeydlər və təsdiqedici sənədlər təqdim olunmamışdır.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

ATU-da maliyyə resurslarının əldə olunması mənbələrinin, onların istifadə istiqamətlərinin daima təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir və maliyyə resurslarının yeni mənbələrinin formalaşması, ondan səmərəli istifadə olunması Universitetin inkişafının əsas hədəflərindəndir. Bu istiqamətdə Universitetin maliyyə resurslarının mövcud vəziyyəti, onların tərkibi və quruluşu (kreditor və debitor borclarının düzgün idarə olunması, onun ehtiyatlarının vəziyyəti), maliyyə resurslarının idarəedilməsi problemləri təhlil edilir, onların idarə edilməsinin səmərəliliyi qiymətləndirilir.

## *5.4 İnformasiya idarəetmə sistemi*

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ATU rektorunun 07 fevral 2018 – ci il tarixli 47 nömrəli əmri ilə ATU – nun İnformasiya sistemlərinin formalaşdırılması üçün struktur dəyişikliyi aparılmışdır. Bu əmrə əsasən İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzi yaradılmışdır. Rektorun 30.05.2023 – cü il tarixli 326/K nömrəli əmri ilə yenidən struktur dəyişikliyi aparılmışdır. 01.06.2023 – cü il tarixindən İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzi yenidən təşkil edilərək, onun bazasında “İnformasiya Texnologiyaları Departamenti” yaradılmışdır. Departament 3 şöbədən ibarətdir: Proqram təminatı şöbəsi; Elektron resursların idarəetmə şöbəsi; Sistem inzibatçılığı və texniki dəstək şöbəsi Departamentdə 17 ştat iş yeri var, rəhbəri Rəmzi Əliyevdir. Departamentin əsasnaməsi, departamentin əməkdaşlarının vəzifə təlimatları, fəaliyyət planları var və illik olaraq hesabatlar verilir. Departament öz fəaliyyətində aşağıda qeyd olunan normativ sənədləri rəhbər tutur: Universitetin Nizamnaməsi; Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün İnkişaf Strategiyası; Kollektiv müqavilə; Universitetin Daxili İntizam Qaydalarını; Elmi Şuranın və Rektor yanı Şuranın qərarları; Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 539-VQD nömrəli “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi

haqqında” Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının qanunvericilik və digər normativ hüquqi aktları; Departamentin fəaliyyət sahəsinə aid beynəlxalq normalar: Avropa ali təhsil məkanında informasiya texnologiyaları üzrə standartlar və təlimatlar və standartların verilməsi ilə məşğul olan beynəlxalq standartlaşdırma təşkilatının təlimatları (əsasnamələr, təlimatlar, qaydalar, standartlar və s.); ISO 20000 – İnformasiya Texnologiyaları xidmətlərinin idarə edilməsi; ISO 27001 – İnformasiya təhlükəsizliyi sistemləri.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

İnformasiya idarəetmə sistemi (bundan sonra - sistem) ATU – nun bütün infrastrukturunu əhatə edir. İnzibati bina, tədris binaları, universitet klinikalarında kabel internet sistemi Microtech şirkəti tərəfindən, yataqxanalarda isə simsiz internet (Unify Access point) departamentin əməkdaşları tərəfindən qurulmuşdur. İnfrastruktur daxilində istifadə olunan proqram təminatı və sistemlər aşağıdakılardır:

Vmware esxi - Virtual maşınların idarəedilməsi sistemi
Vsphere hypervisor - Virtual sistemlərin mərkəzi idarəedilməsi sistemi
Prtg monitoring service - Daxili şəbəkə və infrastrukturun monitorinq sistemi
Netdisco - Daxili şəbəkə avadanlıqlarının inventarizasiya sistemi
Unify Network App controller - Simsiz wi-fi avadanlıqlarının mərkəzi idarəetmə sistemi
Sophos - İnternetə çıxışın filtrasiyası və nəzarəti sistemi
OPNsense - İnternetə çıxışın filtrasiyası və nəzarəti sistemi
HikCentral Professional - Turniket sistemlərinin mərkəzi idarəetmə sistemi
Linux Debian 9 - Linux based əməliiyyat sistemi
Linux Ubuntu əd - Linux based əməliiyyat sistemi
Linux Debian 10 - Linux based əməliiyyat sistemi
Windows 10 Professional - Windows based əməliiyyat sistemi
PfSense - İnternetə çıxışın filtrasiyası və nəzarəti sistemi
Windows Server 2016 - Server əməliiyyat sistemi
Symantec Endpoint - Mərkəzi Antivirus sistemi
Hikvision client - Bina daxili kameraların mərkəzi idarəetmə sistemi
Ocs inventory - Bina daxili avadanlıqlarının inventarizasiya sistemi
Linux Mint - Linux based əməliiyyat sistemi
Koha Central Library System - Mərkəzi Kitabxana Sistemi

Məlumatların yenilənməsi sistem tərəfindən avtomatik olaraq icra edilir. Sistemin serverindən ATU – da olan bütün kompyüterlərə nəzarət edilir. Orda yaranmış xətalar avtomatik olaraq məlumat kimi sistemdə çalışanlara daxil olur. Xətaların hesabatı aparılır və binalar üzrə siyahısı mövcuddur.

Bundan başqa xüsusi Kereo antivirus proqramı vasitəsilə “yad müdaxilə” və virus daşıyıcılar vasitəsilə təhlükələrin avtomatik olaraq qarşısı alınır. Bütün proqramların funksionallığının təmin edilməsinə nəzarət edilir. Müvafiq lisenziyalar mövcuddur.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

İnformasiya idarəetmə sisteminin fəaliyyət sahələrindən biri universitetin əməkdaşlarına vəzifə səlahiyyətlərinə uyğun olaraq informasiya sistemlərinə daxil olma hüquqlarının verilməsini təmin etməkdir. Sistem tərəfindən müəllim və idarəetmə orqanları arasında səlahiyyət bölgüsü aparılmışdır. Belə ki, müəllimlər ancaq öz qruplarına, kaferdra və tədris hissə müdirləri bütün qruplara, dekanlar aidiyyəti fakültə üzrə elektron giriş imkanları vardır. İnzibatçılar tərəfindən sistemə girişlər və məhdudiyyətlər nizamlanır.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

Tədris proseslərində rəqəmsallaşdırmanın vəziyyəti qənaətbəxşdir. Tələbələrin dərslərə davamiyyəti, qiymətləndirmə, sərbəst işlərin aparılması, imtahanlar İnformasiya idarəetmə sisteminin yaratdığı modullar vasitəsilə icra edilir.
Auditoriyalar və mühazirə zallarının əksəriyyətində monitorlar, kameralar və proyektorlar mövcuddur. 1 GB tutumuna malik olan yerli internet şəbəkəsi 300-ə yaxın stasionar kompüterlə özündə birləşdirir. Mühazirələr və bir sıra praktiki məşğələlər prezentasiyalar ilə aparılır. Müəllim və tələbələr ATU – nun veb saytı vasitəsilə onlayn qaydada kitabxana resurslarından istifadə edə bilər.
Distant təhsilin keçirilməsi üçün aidiyyəti üzrə Zoom proqramından istifadə edilir. Kompüter və kameraların vəziyyəti, proqram təminatı distant təhsilin aparılması üçün qənaətbəxş hesab edilə bilər.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

Bütün universitet ərazisində, eləcə də yataqxanalarda internet şəbəkəsi mövcuddur. Müəllim və tələbə heyətinin hamısı informasiya idarəetmə sisteminin imkanlarından istifadə əlçatanlığına malikdir. Tələbələr öz notebookları vasitəsilə auditoriyalarda kabel vasitəsilə ATU – nun internet şəbəkəsinə qoşula bilir.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

İnformasiya idarəetmə sistemi tərəfindən lokal şəbəkələrin istifadəsi ilə mütəmadi monitorinqlər aparmaqla cari vəziyyət barədə keyfiyyətin təminatına məlumatlar ötürə bilir. Universitetin informasiya sistemlərində qəza hallarının və səhvlərin təsirinin azaldılması tədrisin keyfiyyətinin təmin olunmasında yardımçı olur. Şöbə, fakültə, kafedra və departamentlərin fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaqla hesabatlılığın təmin edilməsinə şərait yaratmış olur.

Departamentin əməkdaşları tərəfindən İnformasiya idarəetmə sisteminin imkanlarını müəllim və tələbələrə çatdırılması məqsədilə təlimlər keçirilmiş, broşura və videokliplər hazırlanmışdır. Qeyd edilən təlimlər və təbliğat prosesi mütəmadi davam edir.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

İnformasiya idarəetmə sisteminin məqsədi müasir standartlara cavab verən informasiya sistemlərinin yaradılması, onların etibarlı və davamlı, habelə təhlükəsiz fəaliyyətinin təmin edilməsi, beynəlxalq aləmdə baş verən inkişaf meylləri nəzərə alınmaqla mövcud sistemlərin daim təkmilləşdirilməsi və sistemlərarası inteqrasiyanın təşkil edilməsindən ibarətdir. Sistem vasitəsilə Dövlət İmtahan Mərkəzi, Elm və Təhsil Nazirliyinin informasiya idarəedilməsi sistemləri arasında əlaqə mövcuddur.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

ATU–nun İnformasiya idarəetmə sistemlərinin təhlükəsizliyi Kerio Control AntiVirus proqramı vasitəsilə tənzimlər. Lisenziyalı CloudLinux OS proqramı məlumatların “Bulud” – da saxlanılmasını təmin edir. Şəbəkə təhlükəsizliyi (Firewall) avadanlıqları üzərindən KernelCare və digər lisenziyaları proqramlar vasitəsilə həyata keçirilir.

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

ATU-nun rəsmi saytı https://amu.edu.az/ domeni ilə fəaliyyət göstərir. Saytın yaradılmasının məqsədi universitetdə baş verən bütün yeniliklərin ictimaiyyətə operativ şəkildə çatdırılması olmuşdur. Burada Universitet, təhsil, elm və araşdırmalar, fakültələr haqqında ən yeni məlumatlar verilir. ATU-dakı yeniliklərlə yanaşı, universitet əməkdaşlarının yazıları, tələbə, məzun və abituriyentlərin iştirak edə biləcəyi layihələr haqqında məlumatlar, universitetin müxtəlif sahələrdə əldə etdiyi uğurlar, müsahibələr və digər mövzuları əhatə edən məlumatlar, eləcə də müxtəlif məzmunlu elanlar yer alır. Saytda rəhbərlik, inzibati struktur, fakültə, kafedralar, universitetlə əlaqə, tədris binaları, akademik heyət və digər istiqamətlər üzrə məlumatlar əks olunmuşdur. ATU-da mövcud təhsil proqramları və onun əsasında hazırlanmış tədris planları təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlılığının təmin edilməsi məqsədilə saytda yerləşdirilmişdir.

Saytın fəaliyyəti Azərbaycan, rus və ingilis dilində nəzərdə tutulsa da, rus və ingilis dilinə azərbaycanca yerləşdirilmiş mətnlər tam tərcümə olunmur. Azərbaycanca mövcud olan başlıqların bir çoxunun alt başlığı mövcud deyil. Komissiya bu çatışmazlığın aradan qaldırılmasını təklif edir.

ATU-nun rəsmi saytı bütün struktur bölmələri haqqında məlumatları əhatə edir. Rəsmi saytın əsas səhifəsində Rektora yaz bölməsi vasitəsilə Universitetlə bağlı suallara operativ cavab tapmaq, problemlər haqqında rektoru məlumatlandırmaq mümkündür. ATU-da fəaliyyət göstərən 6 fakültənin ayrı-ayrılıqda səhifəsi (https://amu.edu.az/page/2/fakulteler ) və onlar haqqında, fakültələrin mövcud kafedraları, tələbə-elmi cəmiyyəti və digər məlumatlar yerləşdirilmişdir. ATU-da ictimaiyyətlə əlaqələr şöbəsi fəaliyyət göstərir. şöbənin Universitetin rəsmi saytında səhifəsi (https://amu.edu.az/press) ictimaiyyətlə əlaqəli məsələləri əhatəli işıqlandırır. Şöbənin və rəsmi saytda səhifəsinin keyfiyyətcə yaxşı təşkil olunması təqdirəlayiq haldır.

Azərbaycan Tibb Universitetinin mətbuat orqanı olan "Təbib" qəzeti nəşr olunur. Qəzet universitetin vəsaiti hesabına çap edilir və universitet daxilində pulsuz yayılır. Qəzet universitetin ictimai həyatı, elmi yeniliklər, ən müxtəlif tədbirlər, aktual mövzular, tədris prosesi, tələbə dünyası, ölkədə və dünyada səhiyyə sahəsi ilə bağlı məlumatları mütəmadi olaraq öz oxucularına çatdırır. Qəzetin səhifələrində yer alan həkim məsləhətləri, tanınmış alimlərin çıxışları təkcə tibb ictimaiyyəti, tələbələr arasında deyil, həmçinin geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanır. "Təbib" qəzeti təkcə universitet həyatı ilə kifayətlənmir, Azərbaycan səhiyyəsi_ilə bağlı və cəmiyyətin maraq dairəsində olan aktual məsələlərə daim diqqət ayırır. Müasir dövrün texnoloji imkanlarından istifadə edilərək, qəzetin materialları universitetin amu.edu.az saytı və ölkəmizin digər elektron informasiya resursları vasitəsilə mütəmadi olaraq daha geniş auditoriyaya çatdırılır.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

ATU-nun rəsmi saytında məlumatlar dəqiq, faktlar və mənbələr əsasında hazırlanır, abituriyentlər, təhsilalanlar və ictimaiyyət üçün aktualdır və mütəmadi olaraq yenilənir. Saytın xəbərlər bölməsində Universitetin elm, təhsil, sosial həyatı, beynəlxalq əlaqələri haqqında xəbərlər və elanlar operativ şəkildə işıqlandırılır. ATU-nun rəsmi saytında mövcud olan məlumatlar mütəmadi yenilənir. Universitetin ictimai həyatında baş vermiş xəbərlər gündəlik olaraq rəsmi saytda öz əksini tapır. Həmin məlumat və xəbərlərin ingilis dilində də operativ yayımlanması tövsiyə olunur. Saytın bəzi bölmələri işlənilmir. Komissiya bu nöqsanın tezliklə aradan qaldırılmasını məsləhət görür.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

Azərbaycan Tibb Universitetinin mətbuat orqanı olan "Təbib" qəzetinin ilk sayı 1933-cü ildə işıq üzü görüb. 90 illik tarixə malik olan qəzet hesabat dövründə də ayda iki dəfə olmaqla A3 formatda və rəngli çap olunmaqda davam edib.

Qəzetdə Universitet həyatı, o cümlədən tədrisin təşkili, həkimlərin fəaliyyəti daha dolğun və operativ şəkildə işıqlandırılır. ATU-nun şəhid məzunları haqda silsilə məqalələr, müxtəlif

rubrikalar altında maraqlı yazılar oxucuların ixtiyarına verilir. Qəzetdə tələbələrə yer verilməsinə xüsusi diqqət yetirilir. Onlar "Tələbə tribunası", "Tələbə-dekan", "İstedadlı tələbə", xarici ölkə vətəndaşı olan tələbələr üçün "Dünyadan bizimkilər" və digər rubrikalar altında daim qəzetin səhifələrində görünürlər. Hər il universitetdə bayrama çevrilən Buraxılış (Məzun) günü qəzetin səhifələrində öz əksini tapır. Dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlərlə tanışlıq, beynəlxalq konfrans və konqreslərə, təlimlərə, Tələbə Elmi Cəmiyyətinin və Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə keçirilən tədbirlərə dair çeşidli yazılar həm maarifləndirmə, həm də məlumatlandırma xarakteri daşıyır.

Kafedra rəhbərləri və professor-müəllim heyəti, həmçinin tələbələrlə sıx əməkdaşlıq edən qəzetin yaradıcı heyəti vaxtaşırı sorğular apararaq, oxucuların maraq dairəsini nəzərə alır, yeni ideyalar həyata keçirir. Qəzetdə universitetin müsabiqə elanları, əməkdaşların yubileyləri, yeni nəşrlər, eləcə də başsağlıqları, itmişdir elanları öz əksini tapır.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

ATU-da ictimaiyyətin məlumatlandırılması, ictimai təşkilat və birliklərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi, birgə layihələrin keçirilməsi məqsədilə ictimaiyyətlə iş şöbəsi tərəfindən fəaliyyət planı hazırlanır. Fəaliyyət planında görüləcək işlər, icra müddəti və icraçılar əks olunmuşdur. Fəaliyyət planı strukturun Əsasnaməsi ilə uyğunluq təşkil edir. Plana müvafiq olaraq tədbirlər həyata keçirilir.

İctimai təşkilatlarla birgə təhsilalanların ictimai fəallığının artırılması, onların ölkəmiqyaslı sosial layihələrdə fəal iştirakının təmin edilməsi, Azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin, vətənpərvərlik ruhunun təbliği, onlara sağlam həyat tərzinin təşviq edilməsi, elmə, biliyə marağın artırılması və s. istiqamətində birgə layihələr həyata keçirilir.

ATU-nun mətbuat və ictimaiyyətlə əlaqələrini daha da təkmilləşdirmək üçün İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən müxtəlif KİV-lərlə əks-əlaqə qurulur və onların təklifləri nəzərə alınır.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

ATU-nun rəsmi sosial şəbəkələrinə, "Rektora yaz" rubrikasına daxil olan müraciətlərin hər biri müvafiq qaydada araşdırılaraq cavablandırılır. Kütləvi informasiya vasitələrindən universitetlə bağlı daxil olan sorğular aidiyyəti strukturlara yönləndirilərək cavablandırılması təmin olunur. Buna baxmayaraq məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək istiqamətində bir konkret sənəd və mexanizm yoxdur. ATU-nun fəaliyyəti ilə bağlı maraqlı tərəflərlə görüşlərin keçirilməsi, onların fəaliyyətini qiymətləndirmək üçün mexanizmin işlənib hazırlanması tövsiyə olunur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

ATU-nun məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti üzrə daxili auditin keçirilməsinə dair hesabat təqdim olunmadı, ümumi təhlil və monitorinq hesabatları üzrə yazılı sürətdə sübutlar ilə tanış olmaq mümkün olmadı. İctimaiyyətlə əlaqələr şöbəsinə bu fəaliyyətini nizamlamaq və daha sistematik etmək məqsədi ilə xüsusi fəaliyyət planı, mexanizm işlənməsi tövsiyə olunur.

## İNFRASTRUKTUR

### *6.1 Tədris infrastrukturu*

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

ATU-nun tədris prosesinin təşkil olunduğu binalarının sayı 5, ümumi sahəsi 42568 kv.m. təşkil edir ki, onun da faydalı sahəsi 22986 kv.m. olmaqla dövlət standartlarına uyğunluq təşkil edir. Binaların texniki pasport və inventarizasiya aktları mövcuddur. ATM-in bütün tədris binaları, o cümlədən tədris otaqları tədrisin təşkili üçün əsasən uyğundur. Belə ki, mühazirə və məşğələ dərsləri üçün nəzərdə tutulmuş auditoriyaların sahəsi: mühazirə 4750, məşğələ 7620, laboratoriya 1582 kv.m. təşkil edir ki, mövcud sahə təlim-tədris prosesinin təşkili üçün kifayətdir. ATU-da hər təhsilalana düşən ümumi sahə 22,8, faydalı sahə 14,1 kv.m. təşkil edir ki, bu da normativlərə uyğundur. Sahə səfəri zamanı baxış keçirilən auditoriyaların kompyuter və ağıllı lövhələrlə təchiz olunması əyani formada müşahidə edilmişdir. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 95 (ümumi sahəsi 2865,1 kv.m.), akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 241 (ümumi sahəsi 3856 kv.m. )-dir. . ATM-də 9 ədəd akt zalı, 1 idman kompleksi, 1 üzgüçülük hovuzu mövcuddur ki, müvafiq zallara sahə səfəri zamanı baxış keçirilmiş və normalara uyğun olduğu müəyyən edilmişdir. Tədris prosesinin təşkil olunduğu Klinikalar ( kliniki fənlər) 4-dür. Onların ümumi sahəsi 79595, faydalı sahəsi isə 46165 kv.m.-dir. Bu klinikaların məşğələ və mühazirə zalları da mövcud normativlərə uyğundur.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

Kitabxana 1700 kv.m. sahəni əhatə edir, oxu zallarının sahəsi isə 486 kv.m.-dir. Kitabxanada hər təhsilalana düşən faydalı sahə 0,05 kv.m.-dir. Təhsilalanların istifadəsi üçün internetə çıxışı olan 16 kompüter vardır. Kitabxanada olan ümumi kitabların sayı 437232 və dərslik və dərs vəsaitlərinin sayı 308835 ümumi kitab sayına olan nisbəti 3,7-dir (elektron variant daxil olmaqla). Kitabxanada 54534 monoqrafiya vardır. Rus dilində 329446, ingilis dilində isə 64748 ədəbiyyat vardır. Kitabxananın genişləndirilməsinə və kitab fondunun artırılmasına ehtiyac vardır.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Spesifik ixtisaslar üçün uyğunlaşdırılmış auditoriyalar, laboratoriyalar mövcuddur və lazımi avadanlıqlarla təchiz olunmuşdur. Müvafiq laboratoriya və auditoriyaların tələbələr tərəfindən istifadə olunduğu müşahidə edilmişdir.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATU–nun tədris binalarında 11 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Bu laboratoriyalar arasında 4 – ü Farmakologiya və Əczaçılıq ixtisasları üzrə tələbələrin ixtiyarındadır. Qeyd edilən laboratoriyalarda tələbələrin işləməsi üçün müvafiq şərait yaradılmışdır. Sahə səfəri zamanı tələbələrin aktiv olması diqqəti çəkmişdir. Digər laboratoriyalar arasında pataloji fiziologiya, insan anatomiyası, bioloji kimya laboratoriyalarında tədris prosesi zamanı tələbələrin aktiv işləməsi izlənmişdir. Normal fiziologiya laboratoriyasında avadanlıqlar müasir olmasına baxmayaraq, patoloji fiziologiya laboratoriyasında cərrahi proseduralar üçün nəzərdə tutulmuş avadanlıqlar köhnəlmişdir və fəaliyyət göstərmir. Pataloji anatomiya laboratoriyasında və Elektron mikroskopiya kabinetində Elmin inkişaf fondu tərəfindən müasir avadanlıqlar mövcuddur. Bu laboratoriyaların işində tələbələr aktiv iştirak edirlər. Mikrobiologiya laboratoriyasında isə vəziyyət əsasən uyğundur və müasir tədqiqatların aparılması üçün lazımi infrastruktur vardır. Bütün laboratoriyalarda tələbələrin işləməsi üçün şərait qənaətbəxşdir.

Laboratoriyalarda "laboratoriyalardan istifadə qaydaları" "təhlükəsizlik texnikası" haqqında instruksiyaların asılması tövsiyə olunur.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ATU–nun tələbələrinin praktiki hazırlığının təmin edilməsi və istehsalat təcrübəsinin keçməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 26.02.2018 – ci il 11 nömrəli əmri ilə tibb və əczaçılıq müəssisələrinin istehsalat bazası kimi siyahısı təsdiq edilmişdir. 2018 – 2022 – ci illər üzrə siyahıya Tibb Universitetinin tədris binaları ilə yanaşı, Bakı şəhəri üzrə 11 Elmi-tədqiqat, müalicə-profilaktika, sanitariya-epidemioloji xidmət müəssisələri, əczaçılıq müəssisələri və respublikanın digər şəhər və rayonlarında yerləşən tibb müəssisələri aid edilmişdir. 2023 – cü ildən etibarən isə Səhiyyə Nazirliyinin 10 Aprel 2023 – cü il tarixli 3-28/3-1-195/2023 – cü il nömrəli əmri ilə yeni siyahı tərtib edilmişdir. Bu siyahıda isə Bakı Sağlamlıq Mərkəzi, ATU – nun Tədris Cərrahiyyə və Stomatoloji klinikaları, Gigiyena və epidemiologiya mərkəzləri və və bir sıra özəl laboratoriyalar daxil edilmişdir. Tələbələrdən aparılmış sorğulara əsasən istehsalat-təcrübə bazalarında yaradılmış şəraitdən razı olmalarına baxmayaraq, xəstə sayının azlığı və proseduralarda iştirak ilə bağlı narazı qaldıqlarını bildirmişlər.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

ATU – da tədris laboratoriyaları və auditoriyalarında internetə çıxışı olan 365 sayda kompüterlər, 8 kompüter laboratoriyası mövcuddur. Müəssisədə istifadə olunan internet şəbəkəsinin orta sürəti (wi-fi, lan) 100 mb/s.–dir. ATU–da proyektorla təmin edilmiş

auditoriyaların ümumi auditoriyalara faiz nisbəti 8%; Ağıllı lövhələrlə təmin edilmiş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti 5%; İnternetlə təchiz olunmuş auditoriyaların ümumi auditoriyalara faiz nisbəti 85% təşkil edir. Distant təhsilin aparılması üçün lazımi modullar hazırlanmışdır. Distant təhsilin özü isə lisenziyalı Zoom proqramı vasitəsilə aparılır.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATU–nun tədris bazaları kompakt şəkildə bir-birinə yaxın binalarda yerləşdiyi üçün, tələbələrin məşğələ və mühazirələrə hərəkətində nəqliyyata əsasən ehtiyac olmur. İstehsalat bazaları siyahısına daxil olan tibb müəssisələri isə əsasən Avtobus dayanacaqlarına yaxın ərazidə yerləşmişdir. Tələbələr üçün xüsusi nəqliyyat xidməti (servis) mövcud deyil. Sumqayıtdan gələn tələbələr qrup şəklində öncədən razılaşdırılmış avtobuslardan istifadə edirlər. ATU-nun 2 mikroavtobusu və 10–na yaxın minik avtomobili mövcuddur ki, kütləvi tədbirlər zamanı müəllim heyətinin daşınması üçün xidmət göstərir.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATU-nun bütün tədris binalarında və klinikalarda mövcud tədris infrastrukturu təhsilalanlar, akademik və inzibati heyət üçün əlçatandır.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

ATM-ə sahə səfəri zamanı sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu müşahidə olunmamışdır. Bu onunla izah edildi ki, ATU-da sağlamlıq imkanları məhdud təhsilalanlar az saydadır. Komissiya müvafiq şəraitin yaradılmasının vacibliyini qeyd edir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

ATU-da ümumi sahəsi 1224, faydalı sahəsi isə 994 kv.m. olan 9 yeməkxana fəaliyyət göstərir.

Mövcud qanunvericiliyə (AR NK 23.04.2012 tarixli 87 saylı) əsasən bütün yeməkxanalarda qida qəbulu zalı, mətbəx, istehsalat və köməkçi otaqları, bufet mövcuddur və sanitar normalara cavab verir. Qanunvericiliyə əsaslanaraq demək olar ki, bütün yeməkxanalarda oturma yerləri tələbə sayına nisbətdə azdır. Yeməkxanaların bəzilərində qidalanma xidmətinin müvafiq normativlərə uyğun təşkil edildiyini təsdiq edən sənədlərin mövcud olduğu qeyd edilmişdir.

Yeməkxanaların fəaliyyət göstərməsinə icazə verən sertifikatların və Qida Agentliyinin verdiyi sənədin elanlar lövhəsinə vurulması tövsiyə olunur.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

Universitetin ümumi sahəsi 18606m2 və yaşayış sahəsi 16851m2 olan 6 tələbə yataqxanası var, yataqxanalardakı çarpayıların sayı 1251-dir. Bunlardan 2-si hal-hazırda təmirdədir

| № | Yataqxanalar | Tələbə sayı |
|---|---|---|
| **1** | 1 saylı yataqxana | 138 |
| **2** | 2 saylı yataqxana | 131 |
| **3** | 5 saylı yataqxana | 260 |
| **4** | 6 saylı yataqxana | 217 |
| | **Cəmi** | 746 |

Yataqxanalarda iş ATU-nun tələbə yataqxanası haqqında Əsasnamə və tələbə yataqxanasında Daxili Nizamnamə ilə tənzimlənir. Otaqlarda yaşayan tələbələrin sayı sanitar normalara uyğundur. Bütün yataqxanalar normalara uyğun təmizlik, yuyucu və dezinfeksiyaedici vasitələrlə tam təmin olunur, yataq dəstləri və mebellərlə təchiz olunub. Bütün yataqxanalarda turniketlərdə, elektron keçidlərdən istifadə etməklə girişə nəzarət rejimi təşkil olunub, mühafizə təşkilatlarının əməkdaşları tərəfindən nəzarət olunur. Yataqxanalarda tələbə özünü idarə orqanları (tələbə-dekanları) yaradılmış, universitet və yataqxanaların rəhbərliyi ilə sıx əlaqədə fəaliyyət göstərir ki, onların bütün arzu və təklifləri universitet rəhbərliyi tərəfindən daim nəzərə alınır. Yataqxanalar yaşayış üçün yanğın təhlükəsizliyi tələbələrinə və sanitar-gigiyenik normalara uyğundur. Yataqxanaların birinci mərtəbələrində tələbələr üçün oxu zalları təşkil olunmuşdur internetə qoşulmuşdur.

Hərbi-Tibb Fakültəsinin Kursantları Fakültə ərazisində yerləşən kazarmalarda məskunlaşmışdır. Tibbi xidmət kursantlara Müdafiə Nazirliyinin Mərkəzi Hərbi poliklinikasında və Baş Klinik Hospitalda təşkil olunub. Kursantlar Fakültənin internet şəbəkəsinə qoşulmuş kompüterlərlə təchiz olunmuş elektron kitabxanasından istifadə imkanına malikdirlər.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

Universitetin klinikalarında tələbə və əməkdaşlara imtiyazlı eləcə də güzəştli tibbi xidmət göstərilir.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

ATU-nun bütün tədris binalarında İnformasiya və kommunikasiya texnologiyaları mərkəzinin nəzarətində olan kompüterlər, proyektorlar və kompüter laboratoriyaları mövcuddur. ATU-da yüksək sürətli internet, korporativ email xidməti təhsilalanlar, akademik və inzibati heyət üçün təmin olunub. Ümumi infrastruktur üzrə təchizat tam təmin olunmasa da, bu istiqamətdə işlərin görülməsi və inkişaf dinamikası müşahidə olunmuşdur..

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastrukturunun istifadəsinin və istifadəyə yararlığının monitorinqi Təsərrüfat və texniki təchizat şöbəsi və İnventarizasiya komissiyası tərəfindən aparılır. Monitorinq ancaq istismar müddəti bitmiş və ya istifadəyə yararsız avadanlıqların qeydiyyata alınması və təhvil verilməsi ilə yekunlaşır. Auditoriya, laboratoriya, kafedra otaqları, kitabxana, sanitar qovşaqları və digər xidməti otaqların gündəlik təmizliyi və monitorinqinin aparıldığı Komissiya tərəfindən qeyd edilir.

## *6.2 Elmi-tədqiqat infrastrukturu Elmi tədqiqatların aparılmasna imkan verən laboratoriyalar mövcuddur.*

### 6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

ATU–nun Elmi-tədqiqat mərkəzi Elmi-Tədqiqat mərkəzinin ərazisi 3194 $m^2$ – dir ki, ondan 1980 $m^2$ – i faydalı sahə kimi istifadə edilir. Mərkəzdə təcrübə otaqları və laboratoriyalar fəaliyyət göstərir. Cihaz və avadanlıqlar əsasən köhnəlmişdir. Tək-tək yeni avadanlıqlar və əməkdaşların özləri tərəfindən hazırladıqları qurğular mövcuddur. Əsasən siçan, siçovul və dovşanlar üzərində mərkəzə ATU və digər qurumlardan daxil olmuş sifarişlər əsasında tədqiqatlar aparılır. Mərkəzin potensialı böyükdür. Lazımi təchizat olduğu təqdirdə geniş həcmli fundamental tədqiqatların aparılması mümkündür.

### 6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

ATU-da elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalar mövcuddur.

## BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1 Beynəlmiləlləşmə siyasəti*

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ATU-nun beynəlmiləlləşmə siyasəti müxtəlif ölkələrin müvafiq təşkilatları ilə tərəfdaşlıq əlaqələrinin qurulması, Azərbaycan Tibb Universitetinin əməkdaşlarının və təhsilalanlarının peşəkar səriştələrinin təkmilləşdirilməsi, beynəlxalq layihə və tədbirlərdə iştirakının təmin edilməsi məqsədini daşıyır. Bu siyasət universitet daxilində beynəlmiləlləşmə səylərini istiqamətləndirmək və təşviq etmək məqsədi ilə tərtib olunmuşdur. ATU-ya sahə səfəri zamanı təqdim olunan H/3-4072023BƏŞ/S qeydiyyatlı sənəddə ATM-in beynəlmiləlləşmə siyasətinin əsas məqsədləri, fəaliyyət dairəsi və ümumi müddəaları öz əksini tapmışdır. Bu siyasət Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üzrə Strateji inkişaf planına uyğun Beynəlxalq əlaqələr şöbəsi tərəfindən tərtib olunmuşdur. Beynəlmiləlləşmə siyasəti 2023-2026-cı illər üçün tərtib olunub və 2027-ci il üçün yenilənəcəkdir.

#### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Azərbaycan Tibb Universitetinin Beynəlmiləlləşmə siyasətinə əsasən ATM beynəlxalq təşkilatlar eyni zamanda universitetlərlə müqavilələr və memorandumların imzalanmasını təmin edir. Özünütəhlil Hesabatının təhlili və yerində verifikasiya zamanı ATU-nun illər üzrə müxtəlif ölkələrin ali təhsil müəssisələri, tibb və elmi-tədqiqat mərkəzləri ilə imzaladığı memorandum və digər uyğun sənədlərinə baxılmışdır. İllər üzrə dinamika aşağıdakı kimidir:
2017-ci il - 4 ölkə - 7 memorandum;
2018-ci il - 4 ölkə - 7 memorandum;
2019-cu il - 9 ölkə - 26 memorandum, həmçinin Mevlana mübadilə proqramı çərçivəsində - 2, Erasmus+ proqramı üzrə 1 müqavilə;
2020-ci il - 8 ölkə - 15 memorandum, 1 Mevlana mübadilə proqramı müqaviləsi;
2021-ci il - 9 ölkə - 20 memorandum, 5 Mevlana mübadilə proqramı müqaviləsi, 1 Erasmus+ müqaviləsi;
2022-ci il - 11 ölkə - 23 memorandum, 1 – Mevlana mübadilə proqramı müqaviləsi, 3 ölkə ilə 4 Erasmus+ müqaviləsi, 2 – Orhun mübadilə proqramı müqaviləsi;
2023-cü il - 5 ölkə - 10 memorandum (2 ölkə ATM ilə 4 Erasmus+ müqaviləsi imzalanma prosesindədir);
Bu memorandumlar çərçivəsində ATU tələbələri xarici ölkələrdə əsasən Türkiyə və Almaniyada yay təcrübəsi keçiblər. Həmçinin, ATU-ya təcrübə keçmək üçün Qazaxıstan və BƏƏ-dən tələbələr qəbul olunub:
2017-2018-ci tədris ili – təcrübə üçün gedən tələbələr – 35, gələnlər – 18 nəfər;
2018-2019-cu tədris ili – gedən tələbələr – 129, gələnlər – 17 nəfər;
2019-2020-ci tədris ili – gələn tələbələr – 11 nəfər;

2021-2022-ci tədris ili – təcrübə üçün gedən tələbələr – 264, gələn tələbələr – 30 nəfər; Orhun mübadilə proqramında 1 tələbə iştirak edib.
2022-2023-cü tədris ili – təcrübə üçün gələn tələbə sayı – 25 nəfər; Erasmus+ ilə gedən tələbə - 1 nəfər.
İkitərəfli əməkdaşlıq protokolları əsasında ATM-in rezidentləri xarici ölkələrin (əsasən Türkiyə və Almaniya) universitet kafedralarında və digər xəstəxanaların müvafiq şöbələrində müxtəlif müddətlərdə klinik rotasiya keçiblər:
2019-2020-ci ildə - 51 rezident;
2021-2022-ci ildə - 72 rezident;
2021-2022-ci ildə -81 rezident.




Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələr şöbəsi beynəlxalq elm, təhsil və səhiyyə məkanına bərabərhüquqlu tərəfdaş kimi inteqrasiyasına töhfə verən fəaliyyəti inkişaf etdirmək və beynəlxalq tərəfdaşlarla davamlı əlaqələri təmin etmək üçün yaradılmışdır.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

2017-2018-ci tədris ilindən etibarən hər il əcnəbi tələbələrin sayında artım dinamikası müşahidə olunur. ATM-ə sahə səfəri çərçivəsində müsahibə zamanı əsas səbəb kimi təhsil səviyyəsinin yüksəkliyi və bakalavr səviyyəsini bitirmiş tələbələrin diplomlarının sonradan növbəti pillə üçün müraciət etdikləri digər xarici ölkələrdə rahat şəkildə tanınması göstərilir. Bu artım dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır və komissiya tərəfindən müsbət bir hal kimi qiymətləndirilir.




### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

Universitetin beynəlmiləlləşmə siyasəti mövcuddur və bu istiqamətdə işlər aparılır. Komissiya tərəfindən aparılan işlərin təkmilləşdirilməsi tövsiyə olunur.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

ATU professor-müəllim heyəti mövcud mobillik proqramları, o cümlədən mübadilə imkanları, təcrübə proqramları, tədqiqat əməkdaşlığı və ya digər müvafiq fəaliyyətlər haqqında məlumatla təmin edilirlər. ATU Elmi Şurasının qərarı ilə “Qonaq professor” akademik vəzifəsi təsis olunmuşdur. Hal-hazırda ATU-da 7 qonaq professoru və 1 dəvətli mühazirəçi vardır.

Həmçinin, ATU-nun ikitərəfli müqavilələr əsasında əməkdaşlıq etdiyi universitetlərin akademik heyəti tələbələrə mühazirə, ustad dərsləri və praktik məşğələlər keçmək üçün dəvət olunurlar. Sahə səfəri zamanı ATM-in mübadilə proqramlarında iştirak edən professor-müəllim heyətinin sayının az olması diqqətçəkən vacib məsələlərdəndir.

2018-2019-cu tədris ilində ABŞ Çikaqo Dövlət Universitetinin 1 professoru Fulbright Qonaq Təqaüdçü Proqramı çərçivəsində ATU-da elmi tədqiqatla məşğul olmuş, həmçinin mühazirələr və praktik dərslər keçmişdir.

Akademik heyətin mübadilə proqramları çərçivəsində mobilliyi aşağıdakı kimi olmuşdur:

Orhun mübadilə proqramı:

2021-2022-ci il – gedən 2 nəfər, gələn 2 nəfər

2022-2023-cü il – gələn 1 nəfər

Erasmus+ proqramı:

2021-2022-ci il – gedən 1 nəfər, gələn 2 nəfər

2022-2023-cü il – gedən 1 nəfər

Visegrad mübadilə proqramı:
2020-2021-ci il – gedən doktorant – 1 nəfər.
2020-2021-ci tədris ilinin payız semestrində ATU-nun 4 müəllimi Ukraynanın Xarkov Milli Tibb Universitetinin tələbələrinə onlayn dərslər keçmişdir.
2022-2023-cü tədris ilində ATU-nun 2 müəllimi S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetində dəvətli professor statusunda akademik fəaliyyət göstəmişdirlər.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

ATU-nun maddi-texniki bazasının, elmi-tədqiqat mərkəzlərinin olması ATM-in xarici şəbəkələrdə təmsil olunmasını təsdiq edən əsas meyarlardandır.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Azərbaycan Tibb Universitetində ikili diplom proqramı hal-hazırda mövcud deyil. Müsahibə zamanı ATU-nun əməkdaşlıq etdiyi nüfuzlu beynəlxalq universitetlər ilə ikili diplom proqramlarının təşkil olunmasında maraqlı olduğu bildirilmişdir. Bu istiqamətdə ATU-da yeni açılmış “Tibb bacısı işi” və “Fizioterapiya və tibbi reabilitasiya” ixtisasları üzrə Türkiyənin Qazi Universiteti ilə intensiv müzakirələr aparılır.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Yuxarıda qeyd olunan beynəlmiləlləşmə siyasətinin ümumi müddəalarının 2027-ci ildə dövri yenilənməsi nəzərdə tutulur. Yerində baxış zamanı Beynəlmiləlləşmə siyasətinə aid sənəddə Beynəlxalq əlaqələr şöbəsinin və digər şöbələrin komanda şəklində ATM-in növbəti il üçün beynəlmiləlləşmə hədəflərini müəyyən edən planlar toplusunun hazırlanacağı bildirilmişdir.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Şöbənin quruluşunun və ştat dəyişdirilməsi kadrlar, plan-iqtisadiyyat şöbələrinin müdirləri və mərkəzləşmiş mühasibatlığın baş mühasibi ilə razılaşdırılaraq, rektorun əmri ilə təsdiqlənir. ATU-da beynəlmiləlləşmə proseslərini Beynəlxalq əlaqələr üzrə prorektorluq həyata keçirir. Beynəlxalq əlaqələr üzrə prorektor Beynəlxalq əlaqələr şöbəsinin və Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq işini koordinasiya edir.

Şöbənin fəaliyyətinə rektor tərəfindən vəzifəyə təyin edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdirinin səlahiyyətləri rektor tərəfindən təsdiq edilmiş vəzifə təlimatları ilə müəyyən olunur.

Şöbə müdirinin tabeliyində aşağıdakı vəzifələrdə əməkdaşlar fəaliyyət göstərir:

-şöbə müdirinin müavini

-mübadilə proqramları üzrə koordinator
-kompüter operatorları

Şöbənin əməkdaşları öz vəzifələrini rektor tərəfindən təsdiq edilmiş vəzifə təlimatları əsasında yerinə yetirirlər. Şöbədə əməkdaşlar arasında vəzifə bölgüsü şöbə müdiri tərəfindən aparılır.

Əcnəbi tələbələrlə iş dekanlığının strukturu: dekan, 4 dekan müavini, 2 tyutor, 1 miqrasiya mütəxəssisi, 3 operator. Qeyd olunan bütün məlumatlar həm Özünütəhlil Hesabatında, həm də müsahibə zamanı təqdim olunan kadr uçot vərəqlərində öz əksini tapmışdır.




### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Yuxarıda qeyd edilən təşkilati strukturlar beynəlmiləlləşmə siyasətinə aid olan bütün mövzularda, davamlı, qərəzsiz yekdil qərarlar verir.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Tələbə kreditlərinin transferi: ATU mobillik proqramları zamanı əldə edilmiş akademik kreditlərin tanınmasını və transferini müvafiq qaydalara və təlimatlara uyğun olaraq həyata keçirir. Məsul akademik kafedralar kredit ekvivalentini və iştirakçıların akademik proqramına inteqrasiyanı müəyyən etmək üçün mobillik dövründə həyata keçirilən fəaliyyətləri nəzərdən keçirirlər. Tələbələr mobillik təcrübəsinin onların akademik kurrikulumlarına rahat keçidini və inteqrasiyasını təmin etmək üçün müəyyən edilmiş kredit transferi prosedurlarına və təlimatlarına əməl etməlidirlər.

Professor-müəllim heyətinin peşəkar inkişafı: ATU professor-müəllim heyətinin mobillik proqramları vasitəsilə əldə etdikləri peşəkar inkişafını qəbul edir və dəstəkləyir. ATU mobillik dövründə əldə edilmiş bilik, bacarıq və səriştələri qiymətləndirir və tanıyır.

ATM-də sahə baxışı zamanı mübadilə proqramlarında iştirak edən tələbələrin, rezidentlərin, professor-müəllim heyətinin əldə etdiyi sertifikatlar, proqramda iştirak etməsi barədə arayışlar tam dəqiqliyi ilə təqdim olunmuşdur.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

ATM təlim-tədris prosesinin keyfiyyətini artırmaq məqsədilə əcnəbi müəllim-professor heyətini daima təhsil proseslərinə cəlb edir. ATU Elmi Şurasının qərarı ilə "Qonaq professor" akademik vəzifəsi təsis olunmuşdur. Hal-hazırda ATU-nun 7 qonaq professoru və 1 dəvətli mühazirəçi vardır. Hal-hazırda qeyd olunan say qənaətbəxş deyildir. Amma müsahibə zamanı növbəti illərdə tədris prosesinə dəvət olunacaq əcnəbi professor-müəllim heyətinin sayının artırılmasının əsas prioritet istiqamət olduğu vurğulanıb.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

**Hesabat tələbləri**: İştirakçılardan mobillik proqramı zamanı təcrübələrini, nailiyyətlərini və qarşılaşdıqları çətinlikləri sənədləşdirən dövri hesabatlar və ya qiymətləndirmələr təqdim etmələri tələb olunur. Bu hesabatlar proqramın qiymətləndirilməsinə, təkmilləşdirilməsinə və gələcək iştirakçılarla dəyərli fikirlərin paylaşılmasına kömək edir.

**Mobillik proqramlarının qiymətləndirilməsi**: ATU mobillik proqramlarının effektivliyini, iştirakçıların məmnunluğunu və ümumi nəticələrini qiymətləndirmək üçün onların qiymətləndirilməsini həyata keçirir. Gələcək mobillik imkanlarının davamlı təkmilləşdirilməsi üçün iştirakçılar, qəbul edən qurumlar və müvafiq maraqlı tərəflərin rəyləri nəzərə alınır.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

Universitetdə hal-hazırda ikili təhsil proqramı mövcud deyildir. Komissiya ikili diplomların alınması istiqamətində işlərin aparılmasını tövsiyə edir.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

2017-2018-ci illər ərzində Erasmus+ proqramı çərçivəsində 1 kafedra əməkdaşı İspaniyada, 2018-2019-cu və 2019-2020-ci illərdə müvafiq olaraq 2 kafedra əməkdaşı Fulbright Qonaq TəqaüdçüProqramı çərçivəsində ABŞ-da elmi-tədqiqatla məşğul olmuşdur. 2018-2019-cu tədris ilində ABŞ Çikaqo Dövlət Universitetinin 1 professoru Fulbright Qonaq Təqaüdçü

Proqramı çərçivəsində ATU-da elmi tədqiqatla məşğul olmuş, həmçinin mühazirələr və praktik dərslər keçmişdir. Ümumilikdə, hesabat dövründə akademik heyətin mübadilə proqramlarına cəlb olunma dinamikasının aşağı olması nəzərdən qaçmır. Aparılan statistik

nəticələrə uyğun olaraq və müsahibə zamanı 2017-2023-cü illər ərzində beynəlmiləlləşmə proseslərində iştirak edən akademik heyətin sayında kəskin azalma görünür.




### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

**Professor-müəllim heyətinin uyğunluğu:** Professor-müəllim heyətinin üzvləri öz ixtisaslarından, peşəkar təcrübələrindən və xüsusi mobillik tələblərindən asılı olaraq mobillik proqramlarında iştirak etmək hüququna malikdirlər. Onlar uyğunluq və müraciət prosedurlarını müəyyən etmək üçün öz kafedraları və ya müvafiq qurumlarla məsləhətləşməlidirlər.

**Müraciət prosesi:** Təhsilanlar və professor-müəllim heyəti ATU-nun müəyyən etdiyi müraciət prosedurlarına və son tarixlərə riayət etməlidirlər. Buraya ərizə formalarının, akademik transkriptlərin, tövsiyə məktublarının, dil bilikləri sertifikatlarının və hər hansı digər tələb olunan sənədlərin təqdim edilməsi daxil ola bilər. Akademik heyətlə görüş zamanı bu prosesin şəffaf, adekvat, qərəzsiz olduğu aydınlaşdırıldı.

**Proqram seçimi və yerləşdirmə**

**Proqram seçimləri:** ATU təhsilalanlar və professor-müəllim heyətini mövcud mobillik proqramları, o cümlədən mübadilə imkanları, təcrübə proqramları, tədqiqat əməkdaşlığı və ya digər müvafiq fəaliyyətlər haqqında məlumatla təmin edir.

**Seçim prosesi:** Mobillik proqramları üçün iştirakçıların seçilməsi müraciətlərin nəzərdən keçirilməsi, müsahibələr və ya rəqabətli qiymətləndirmə prosesi ilə həyata keçirilə bilər. Yekun qərar uyğunluq, ixtisaslar, proqramın mövcudluğu və qəbul edən təşkilat və ya proqram tərəfindən müəyyən edilmiş hər hansı xüsusi meyarlara əsaslanır.

**Yerləşdirmə:** ATU seçilmiş iştirakçıların üstünlüklərini, akademik/peşəkar məqsədlərini və iştirakçılar ilə ev sahibi qurumlar/proqramlar arasındakı uyğunluğu nəzərə alaraq müvafiq qəbuledici təşkilatlarda və ya proqramlarda yerləşdirilməsinə kömək edir.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası təlim və tədris prosesi AKTS-in tələblərinə uyğun təşkil olunur.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ATU-nun beynəlxalq reytinq şkalalarındakı mövqeyini yüksəltmək üçün Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi (IAAR) ilə rəsmi müqavilə imzalanmışdır.

Avrasiya Universitetləri arasında keçirilən “IAAR EUR -2022” Reytinqinə yekun vurulub. Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (Independent Agency For Accreditation and Rating - IAAR) keçirdiyi ekspert qiymətləndirməsinin nəticələrinə əsasən Azərbaycan Tibb Universiteti qaliblərdən biri olub, İAAR-ın Avrasiya tibb universitetləri arasında ilk üçlükdə yer alıb. ATU rəsmi olaraq Beynəlxalq Akkreditasiya və Reytinq Agentliyi yüksək akademik nailiyyətləri və IAAR reytinq araşdırmalarının aparılmasına qatılaraq, qətiyyətli dəstək nümayiş etdirdiyinə görə Azərbaycan Tibb Universiteti “İAAR Avrasiya Tibb Universiteti” mükafatına layiq görülüb. Həmin mükafat və fakültələr üzrə əldə olunan sertifikatlar əyani olaraq komissiya üzvlərinə təqdim olunmuşdur.

IAAR tərəfindən Avrasiya universitetləri arasında aparılan araşdırmaya əsasən, ATU tibb universitetləri sırasında III yer, ümumi (müxtəlif profilli) universitetlər arasında isə ilk onluğa daxil edilmişdir.

## *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

- İnzibati heyətin beynəlxalq səfərləri;
- Universitetin rəsmi dəvəti ilə gələn əcnəbi qonaqların nəqliyyat, yaşayış və yemək xərcləri;
- Orhun mübadilə proqramı ilə gələn və gedən akademik heyətin xərcləri (gələn müəllimlərin yaşayış və yemək xərcləri, gedən müəllimlərin yol xərcləri);
- Beynəlxalq elmi tədbirlərdə (konfrans, seminar, təlim, olimpiada və s.) iştirak edən akademik heyət və tələbələrin səfər, yaşayış və yemək xərcləri;
- Beynəlxalq elmi tədbirlərin keçirilməsinə ayrılan xərclər;
- Beynəlxalq əlaqələr şöbəsinə sahə səfəri zamanı ayrılan xərclərə dair olan sərəncamlar, əmrlər yoxlanmışdır.

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

Sahə səfəri zamanı kadrlar şöbəsindən alınan nəticəyə görə 17 nəfər (Beynəlxalq prorektorluq, Beynəlxalq əlaqələr üzrə şöbə, Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq) işçinin olduğu göstərilmişdir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Sahə səfəri zamanı beynəlxalq əlaqələr şöbəsində aşağıdakı infrastrukturun olması təsdiq olunmuşdur.

Maddi-texniki təchizat resursları:
- kompüterlər
- printerlər

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Universitet rəhbərliyi müvafiq struktur bölmələri və maraqlı tərəflərlə əməkdaşlıq edərək bu siyasətin həyata keçirilməsinə cavabdehdir.

Beynəlmiləlləşdirə səylərinin səmərəliliyini qiymətləndirmək və təkmilləşdirilməli sahələri müəyyən etmək üçün müntəzəm monitorinq və qiymətləndirmə aparıldığı özünü təhlil hesabatında və müsahibə zamanı vurğulanmışdır.

Siyasət universitetin inkişaf edən ehtiyac və məqsədlərinə uyğunluğunu təmin etmək üçün vaxtaşırı nəzərdən keçirilməlidir.

## *7.4 Beynəlmiləlləşmə performansı*

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

ATU-nun tələbələri müxtəlif ölkələrdə keçirilən beynəlxalq tələbə konfransları, olimpiadalar və digər tədbirlərdə uğurla iştirak edirlər. ATU-nun tələbələrdən ibarət “ATU alovları” komandası 2017, 2018 və 2019-cu illərin may aylarında Rusiya Federasiyasının Stavropol Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə ilkin tibbi yardımın göstərilməsi üzrə tibb tələbələrinin Beynəlxalq “Asklepiy" olimpiadasında uğurla iştirak etmişlər. 03-06.07.2018-ci il ildə ATU-nun əczaçılıq fakültəsinin tələbələri Rusiya Federasiyasının Krasnodar vilayətinin Soçi şəhərində “Yaxşıların seçimi. İrəli getmək zamanıdır” adlı II Beynəlxalq ali məktəblərarası GxP-sammitində iştirak ediblər. 20-21.02.2020-ci ildə ATU-nun tələbələrdən ibarət komandası Rusiya Federasiyasının Mahaçqala şəhərində Dağıstan Dövlət Tibb Universitetinin təşkil etdiyi ilk yardımın göstərilməsi üzrə “Xilas et və qoru” adlı IV Beynəlxalq olimpiadada iştirak etmişlər.

2014-cü ildən başlayaraq ATU-nun Tələbə Elmi Cəmiyyəti hər il tələbələr və gənc həkimlər üçün Beynəlxalq Tibb Konqresləri keçirir.

### 7.4.2 Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasını, mövcud strukturunu və lazımi resurslarının olmasını nəzərə alsaq təhsilalanların, professor-müəllim heyətinin ehtiyaclarının qarşılanması baxımından imkanlara sahib olduğu sahə səfəri zamanı görülmüşdür. Beləliklə, hansı ehtiyacların olduğu və bunun həlli üçün müxtəlif şöbə və mərkəzlərin (Beynəlxalq əlaqələr şöbəsi, Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq və s..) vəhdət şəkildə işləməsi labüddür.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1.ATU-nun İnkişaf Strategiyası rəsmiləşdirilmiş sənədinin (SİP) mövcudluğu;<br>2.Missiya, gələcəyə baxış, strateji istiqamətlər və məqsədlərin müəyyən edilməsi;<br>3.SİP-də 6 strateji prioritetin müəyyənləşdirilməsi;<br>4.SWOT təhlilin aparılması;<br>5.SİP-in təhsilin keyfiyyətinin artırılması və elmi-tədqiqat sahəsində inkişafın əldə edilməsinə uyğun olması;<br>6.Müəyyən edilmiş strateji baxışın əmək bazarına uyğunluğu;<br>7.SİP-in beynəlxalq reytinqin artırılmasına uyğun olması. |
| **Zəif tərəflər** | 1.SİP-ə dair tədbirlər planının (orta və uzunmüddətli) olmaması;<br>2.Bəzi struktur bölmələrin əməkdaşlarının və təhsilalanların strateji prioritetləri və məqsədləri mənimsəməməsi;<br>3.Strateji prioritetlər üzrə müəyyən edilmiş strateji məqsədlər haqqında müzakirə və fəaliyyətlərin yetərli olmaması;<br>4.SİP-də müəyyən olunmuş strateji fəaliyyətlərin icrasında gecikmələrin olması;<br>5.Beynəlxalq əlaqələr üzrə strateji məqsədlərin icrasında çatışmazlıqların olması;<br>6.Strukturlar üzrə SİP-ə dair ayrı hesabatlılığın olmaması;<br>7.SİP-in icrasının monitorinqi mexanizminin olmaması. |
| **İmkanlar** | 1.Ölkənin beynəlxalq arenada müsbət imicinin formalaşması nəticəsində universitetlər üçün beynəlxalq əməkdaşlıq imkanlarının yaranması;<br>2.Ölkənin iqtisadi inkişafı nəticəsində ali təhsilə və keyfiyyətli kadrlara tələbin artması. |
| **Təhdidlər** | 1.Xaricdə təhsil imkanlarının genişlənməsi və rəqabət mühitinin kəskinləşməsi;<br>2.ATM-in özünümaliyyələşdirmə imkanlarının yetərsiz olması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. SİP-in monitorinqindən sonra ehtiyac olarsa, yeni tədbirlər planının hazırlanması, icrası və nəzarət mexanizminin formalaşdırılması ;<br>2. ATM-in SİP üzrə müəyyən strateji fəaliyyətlərinin orta və uzunmüddətli tədbirlər planı vasitəsilə tam ölçülə bilən hala gətirilməsi və inkişaf dinamikasının mərhələli formada qiymətləndirilməsi;<br>3.SİP-in icrasında maliyyə və insan resurslarının bölüşdürülməsinin optimallaşdırılması. |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | 1.Rəsmiləşdirilmiş keyfiyyət təminatı siyasəti sənədinin olması;<br>2.İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin mövcudluğu;<br>3.E-universitet platformasının mövcud olması. |
| **Zəif tərəflər** | 1.Keyfiyyət təminatı siyasəti sənədinin hazırlanmasında maraqlı tərəflərin cəlb edilməməsi;<br>2.Keyfiyyət təminatı üzrə Komissiyanın yaradılmaması;<br>3.Keyfiyyətin idarə edilməsi sistemi haqqında müvafiq struktur bölmələrinin kifayət qədər məlumatlandırılmaması;<br>4.E-universitet platformasının mövcud imkanlarından aktiv istifadə edilməməsi və imkanlarının yetərsizliyi. |

| | |
|---|---|
| **İmkanlar** | 1. Azərbaycanda çoxprofilli Tibb Universiteti olması baxımından geniş imkanlara malik olması;<br>2. Sahə üzrə klinikalarla, işə götürənlərlə geniş əməkdaşlıq imkanları;<br>3. E-universitet platformasının imkanlarının genişləndirməsi, tədris prosesində sistemlilik, şəffaflıq və obyektivliyini, məlumatın əlçatanlığını təmin edilməsi və müəssisədə keyfiyyət təminatı mədəniyyətinin formalaşmasına xidmət etməsi. |
| **Təhdidlər** | 1.Ölkədə çoxprofilli Tibb Universiteti olması baxımından rəqabətliliyə meyilli olmaması ilə bağlı inkişaf və təkmilləşmə prosesinin ləngiməsi;<br>2.İkili diplom proqramlarına dair imkanların zəifləməsi;<br>3.Xaricə tələbə axının çoxalması. |
| **Komissiyanın tövsiyəsi** | 1.Keyfiyyət təminatı üzrə Komissiyanın yaradılması, onun Əsasnaməsinin, fəaliyyət planının formalaşdırılması;<br>2.Universitetin bütün strukturlar və dekanlıqlardan keyfiyyət üzrə məsul şəxsin daxil olduğu işçi qrupun yaradılması və tərkibinə bütün maraqlı tərəflərin cəlb edilməsi;<br>3.Daxili audit və ya monitorinq mexanizminin formalaşdırılması ilə vaxtaşırı SWOT təhlilin aparılması və illik özünütəhlil hesabatının hazırlanması;<br>4.Bütün maraqlı tərəflərlə əks-əlaqənin həyata keçirilməsi və sorğuların nəticələrinin təhlili əsasında fəaliyyət planının təkmilləşdirilməsi;<br>5.İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin idarəetmə və inzibati strukturları ilə koordinasiyasının, kommunikasiyasının, məsuliyyət bölgülərinin müəyyən edilməsi və təkmilləşdirilməsi. |

| 3. Təlim və tədris | |
|---|---|
| **Güclü tərəflər** | 1.Tələbə qəbulu üzrə proqnoz yerlərinin müəyyənləşdirilməsində və tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakının təmin edilməsi;<br>2.Kredit borcu olan tələbələrin sayında və həmçinin kredit borcu yaranmış fənlərin ümumi həcmində ciddi azalmanın müşahidə edilməsi;<br>3.İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi tərəfindən ildə iki dəfə hər bir semestrin sonunda tələbələr arasında rəy sorğusunun keçirilməsi;<br>4.Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilməsi, ümumi və ixtisas fənləri arasında balansın saxlanılması;<br>5.Müəllimlərin davamlı olaraq hər semestrin sonu bal reytinq sistemi vasitəsilə onlayn olaraq qiymətləndirilməsi;<br>6.Tələbələrin rəyi əsasında tədbirlərin keçirilməsinin artma dinamikası;<br>7.Xarici ölkədə staj keçən tələbələrin olması;<br>8.Tədris ilində keçilən fənlərin adları, kreditləri və tələbələrin sayını göstərən, FTP və ixtisasın tədris planı əsasında hazırlanmış və təsdiq olunmuş ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planının mövcudluğu. |
| **Zəif tərəflər** | 1.Bir neçə fakültədə (Stomatologiya, I Müalicə-profilaktika, II Müalicə-profilaktika fakültələri) bir semestrdə imtahanların sayının normadan artıq olaraq 9, hətta 10 olması;<br>2.İstehsalat təcrübəsində çatışmazlıqlar və çöl təcrübəsinin olmaması (Əczaçılıq fakültəsi);<br>3.İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin universitetin rəsmi internet saytında yerləşdirilməməsi;<br>4.Hərbi tibb ixtisası üzrə boş qalan yerlərin sayının faktiki qəbuldan yüksək olması;<br>5.Sağlamlıq imkanları məhdud olan təhsilalanlar üçün lazımi təlim və tədris resurslarının və infrastrukturun zəif olması. |
| **İmkanlar** | 1.Müəllimlər üçün standartlaşdırılmış qiymətləndirmə prosesi;<br>2.Tədris olunan fənlərin müntəzəm qiymətləndirilməsi. |

| | |
|---|---|
| | 1.Təkmilləşdirilməli sahələri müəyyən etmək üçün müəllimlərin, tələbələrin və administrativ heyətin rəyindən istifadə edilməsi;<br>2.Sağlamlıq imkanları məhdud olan tələbələrin lazımi infrastruktur/şəraitlə təmin edilməsi;<br>3.Universitetin tədris resurslarının keyfiyyətini və aktuallığını daha çox sərmayə qoyaraq artırması və tələbələrin ehtiyaclarını ödəmək üçün elektron resursların genişləndirilməsi;<br>4.Əlavə resurslar əldə etmək, tədris və təlim mühitini yaxşılaşdırmaq üçün digər yerli və xarici qurumlar və ali təhsil müəssisələri ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi;<br>5.Rəsmi internet səhifəsi və digər vasitələrlə ATM-də mütəxəssis hazırlığı həyata keçirilən ixtisaslar, təhsil, təlim nəticələri və s. haqqında informasiyanın əlçatanlığının təmin olunması;<br>6.Müxtəlif proqramlar, o cümlədən Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almış şəxslərin əmək fəaliyyətinə cəlb edilməsi. |
| **Təhdidlər** | 1.Qabaqcıl texnologiya və infrastruktura malik olan universitetlərin rəqabəti nəticəsində tələbə və müəllim heyətinin itirilməsinə gətirib çıxarması;<br>2.Mühazirə və seminar otaqlarında proyektorların və smart lövhələrin məhdud sayda olması, eləcə də kompüter laboratoriyalarında tam işlək kompüterlərin sayının az olması nəticəsində tələbələrin öyrənmə təcrübəsinə təsir göstərməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1.İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin Universitetin rəsmi internet səhifəsində yerləşdirilməsi;<br>2.Təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsində işəgötürənlərin iştirakının təmin olunması;<br>3.Hərbi tibb ixtisası üzrə boş qalan yerlərin sayı faktiki qəbuldan yüksək olması ilə əlaqədar bu ixtisas üzrə proqnoz yerləri sifariş verərkən nəzərə alınması;<br>4.Bakalavr təhsil səviyyəsində bütün ixtisaslar üzrə hər semestrdə imtahanların sayının 7-8-dən çox olmamasının təmin edilməsi;<br>5. E-universitet sisteminin təkmilləşdirilməsi. |

| | |
|---|---|
| | 6.Universitet klinikalarında təhsilalanların pasiyentlərlə təmasının artırılması hesabına praktiki nəticələrə nail olunması istiqamətində fəaliyyətin intensivləşdirilməsi;<br>7.Seçmə fənn blokundan fənlərin seçim sərbəstliyinin təmin edilməsi və bu istiqamətdə mexanizmin yaradılması;<br>8.Tələbəmərkəzli sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin yaradılması;<br>9.İstifadəçilərin, xüsusilə təhsilalanların elektron kitabxanalara çıxışının təmin edilməsi;<br>11.Professor-müəllim heyətinin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən seçim sərbəstliyinin təmin olunması;<br>12.Təhsil proqramlarının monitorinqi, auditi və təkmilləşdirilməsi, bu proseslərə maraqlı tərəflərin cəlb olunması;<br>13.Təhsilalanlara və məzunlara karyera xidmətinin göstərilməsi istiqamətində işlərin genişləndirilməsi;<br>14.Məzunlar assosiasiyasının fəaliyyətini artıraraq məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi ilə bağlı əhatəli və sistemli işlərin aparılması;<br>15.Mühazirə və seminar otaqlarında proyektor və smart lövhələrin, eləcə də kompüter laboratoriyalarında tam işlək kompüterlərin sayının artırılması;<br>16.Təhsil proqramlarının SWOT analizinin aparılması və illik özünütəhlil hesabatının hazırlanması;<br>17.Qəbul planında azalma müşahidə edilən (hərbi tibb ixtisası üzrə faktiki qəbul plan yerlərindən azdır) yeni açılan ixtisaslar üzrə sifariş yerlərinin sayının müəyyən edilməsində monitorinq və təhlillərin aparılmasının genişləndirilməsi;<br>18.Fənn üzrə tədris materiallarının hazırlanması və təkmilləşdirilməsinə bütün akademik heyətin cəlb edilməsi;<br>19.İngilis dili fənninin tədrisində keyfiyyətin artırılması. |

| 4. Elmi tədqiqat | |
|---|---|
| **Güclü tərəflər** | 1.Elmi-tədqiqat mərkəzinin və elmi tədqiqat laboratoriyalarının olması;<br>2.Elmi tədqiqatla məşğul olan akademik heyətin (elmi rəhbər və elmi məsləhətçilər) olması;<br>3.Elmi tədqiqat işlərinin aparılması üçün maddi-texniki bazanın olması;<br>4.Birgə elmi tədqiqatlar, imzalanmış memorandumlar, yerli və xarici qrant layihələrin həyata keçirilməsi;<br>5.ATU-da təhsil alan tələbələrin elmi tədqiqatların nəticələrinin çap edilməsi üçün yaradılmış şərait;<br>6.Rezidentura və magistratura təhsilinin mövcud olması və inkişaf etdirilməsi;<br>7.Lokal Etik Komitəsinin, antiplagiat proqramının mövcudluğu və standartlara uyğun olması. |
| **Zəif tərəflər** | 1.Azərbaycan Tibb Universitetinin 2017-2023-cü illər üzrə “Elmi-tədqiqat Strategiyası” sənədinin olmaması və 2023-2030-cu illər üzrə yeni “Elmi-tədqiqat Strategiyası” sənədinin təsdiq edilməməsi;<br>2.Elmi-tədqiqat mövzularının müəyyən olunması zamanı əmək bazarı və sənayenin tələblərinin nəzərə alınmasında çatışmazlıqların olması;<br>3.Elmi tədqiqatçıların beynəlxalq elmi məlumat bazalarına çıxışın olmaması. |
| **İmkanlar** | 1.ATU-da 6 fakültə, 60 kafedra, 12 şöbə, 2 departament, 1 elmi-tədqiqat mərkəzi, 11 elmi-tədqiqat laboratoriyası, elmi tədqiqat bazasında mövcud olan müxtəlif təyinatlı cihaz, material və avadanlıqların mövcudluğu baxımından təhsilalanların və professor-müəllim heyətinin elmi-tədqiqata cəlb olunma imkanlarının olması;<br>2.Planlaşdırılmış və Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş sərbəst elmi-tədqiqat işləri aparmaq imkanı;<br>3.Elmi-Tədqiqat Mərkəzində ATU kafedralarından və eləcə də Səhiyyə Nazirliyinin tabeliyində olan idarə və təşkilatlardan ezam olunmuş fəlsəfə və elmlər doktorluğu və dissertantura üzrə tədqiqat aparan əməkdaşlara elmi-tədqiqat işlərinin aparılmasında elmi, metodik və texniki kömək göstərmək, müqavilə əsasında Azərbaycanın müxtəlif ET İnstitutları ilə elmi-tədqiqat işləri aparmaq imkanı. |

| | |
|---|---|
| | 4.Hərbi–Tibb fakültəsinin elmi tədqiqatların aparılması üçün professor-müəllim heyəti, həmçinin rezident və kursantlar fakültənin klinik bazası olan Müdafiə Nazirliyinin balansında olan hospital, poliklinika və tibb müəssisələrinin imkanlarından istifadə edə bilməsi, əməkdaşların rəhbərlik tərəfindən müəyyən göndəriş əsasında tədqiqat aparmaq məqsədilə ezam olunma imkanları. |
| **Təhdidlər** | 1.Doktorantura pilləsində təhsilalanlar üçün müxtəlif bacarıqların və vərdişlərin təkmilləşdirilməsi üçün fənlərin tədris edilməməsi;<br>2.Antiplagiat proqramının mövcud olmasına baxmayaraq bəzi dissertasiya işlərinin AAK tərəfindən geri göndərilməsi;<br>3.Maddi resursların düzgün bölüşdürülməməsi dərsliklərə, elmi tədqiqatlara, məlumat bazalarına ayrılan vəsaitin həcminin azalması nəticəsində universitetdə tədrisin və elmi-tədqiqat işlərinin keyfiyyətinin aşağı düşməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1.Antiplagiat proqramında yoxlama zamanı birinci oxşarlıq əmsalının 50%-dən 25%-ə endirilməsi;<br>Google Scholar bazasında akademik heyətinin şəxsi profilləri yaradılması və ORCID identifikasiya nömrəsinin əldə edilməsinin təmini;<br>2.Elmi-tədqiqatçıların beynəlxalq elmi məlumat bazalarına çıxışının təmin edilməsi;<br>3.Elmi-tədqiqat siyasəti, onun məqsədlərini və prioritet tədqiqat sahələrini, təşviq mexazimlərini və tədqiqat fəaliyyətinin idarə olunmasını özündə əks etdirən elmi-tədqiqat üzrə strategiya sənədinin yaxın və orta müddət üçün fəaliyyət planının hazırlanması və hər kəs üçün əlçatanlığının təmin edilməsi;<br>4.Elmi-tədqiqat strategiyası hazırlanarkən maraqlı tərəflərin iştirakının təmin edilməsi;<br>5.Elmi-tədqiqat fəaliyyəti üzrə əldə edilmiş patentlərin kommersiyalaşdırma mexanizminin yaradılması;<br>6.İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin yaradılması;<br>7.Hər təqvim ilinin sonunda əməkdaşların elmi-tədqiqat fəaliyyətinin monitorinqi və reytinq qiymətləndirilməsinin təkmilləşdirilməsi və nəticələrə görə stimullaşdırması;<br>8.Nüfuzlu beynəlxalq jurnallarda impakt-faktoru səviyyəsindən asılı olaraq dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin rəğbətləndirilməsi;<br>9.Təhsilalanlara tədqiqatyönümlü fənlərin tədris olunması. |

| | |
|---|---|
| | 10.Tədqiqat işlərinin nəticələrindən, nüfuzlu jurnallardakı məqalələrdən mühazirə və seminarlarda əlavə tədris materialı kimi istifadə olunması;<br>11.Azərbaycan Elm Fondu və digər qurumlar tərəfindən, o cümlədən beynəlxalq fondlar tərəfindən maliyyələşdirilən qrant layihələrində iştirak mexanizminin təkmilləşdirilməsi və stimullaşdırılması; |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1.Universitet Azərbaycan Respublikası qanunvericiliyinə, Elm və Təhsil Nazirliyinin, Səhiyyə Nazirliyinin müvafiq əmr və təlimatlarına və normativ sənədlərinə əsaslanaraq idarə edilməsi, ATU-nun Nizamnaməsinə uyğun idarəetmə strukturlarının mövcudluğu;<br>2. Universitetin, struktur bölmələrinin, dekanlıqların, kafedraların idarəetmə sisteminin ümumi idarəetmə sisteminə uyğunluğu;<br>3.İdarəetmə orqanlarının əsasnamələrinin, kitabça şəklində tədris ili üçün çap olunmuş iş planlarının, illik hesabatların mövcudluğu;<br>4.Universitetin idarə olunmasının informasiya təminatının şəffaflığı, resurslara əlçatanlığın bərabərhüquqluluğu, qarşılıqlı məsuliyyət, bir nəfərin idarəçiliyi ilə kollegiallığın uzlaşdırılması prinsiplərinə əsaslanaraq həyata keçirilməsi;<br>5.Əməkdaşların, təhsilalanların, işəgötürənlərin, ictimaiyyətin və digər maraqlı tərəflərin nümayəndələrinin kollegial idarəetmə orqanlarında iştiraka cəlb edilməsi;<br>6.Tələbə dekanlığı təcrübəsinin mövcud olması;<br>7.Maliyyə resurslarının ATU-nun Nizamnaməsinə uyğun planlaşdırılması, maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə smetaların hazırlanması və təsdiq edilməsinin Ali Təhsil Müəssisələrinin Nizamnaməsinə uyğun tərtib edilərək istifadə olunması;<br>8.Universitetin nəzdində klinikaların və klinik kafedraların olması və təhsilalanların bu klinikalardan səmərəli istifadə etmələri. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1.ATU-da professor-müəllim və inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin olmaması;<br>2.İdarəetmə orqanlarının öz fəaliyyətlərini qiymətləndirmək məqsədilə SWOT təhlilin aparılmamas;<br>3.İdarəetmə strukturları arasında kommunikasiyanın zəif olması;<br>4.Universitetin rəsmi internet saytının təkmil olmaması;<br>5.Daxili audit mexanizminin olmaması;<br>6.Maliyyə əməliyyatları üzrə monitorinq və təhlillərin lazımi səviyyədə olmaması;<br>7.Universitetin maliyyə vəziyyətinin ictimaiyyət üçün açıq olmaması;<br>8.Qeyri-akademik heyətin işə qəbulu prosesi üzrə şəffaf mexanizmin olmaması;<br>9.İKT təminatının və elektron resursların (kitab, jurnal, data bazalara çıxış) yetərsizliyi. |
| **İmkanlar** | 1.İdarəetmə strukturlarının təkmilləşdirilməsi və onların fəaliyyətlərinin monitorinqinin aparılması imkanlarının mövcud olması;<br>2.Xarici təhsilalanların cəlb edilməsini stimullaşdırmaq üçün yataqxana kompleksinin yaradılması imkanlarının olması;<br>3. Maliyyə resurslarının çeşidinin və həcminin artırılması imkanlarının olması;<br>4.Təhsildə, elmi-tədqiqatda və idarəetmədə müasir İT proqramlarının əldə edilməsi imkanlarının olması və informasiya təhlükəsizliyi sahəsində beynəlxalq standartların tələblərinin tətbiq olunması;<br>5.Universitetin Strateji inkişaf planına idarəetmənin optimallaşdırılması və təkmilləşdirilməsi hədəfinin daxil edilməsi. |
| **Təhdidlər** | 1.Kadr hazırlığında xarici universitetlərlə rəqabət riskinin olması;<br>2.Digər klinikalarla müqayisədə universitet klinikalarının rəqabətə davam gətirməmələri. |
| **Komissiyanın tövsiyəsi** | 1.İnzibati heyətin işə qəbul prosesi qaydalarının hazırlanması və tətbiq edilməsi;<br>2.İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarının təkmilləşdirilməsi, köməkçi və texniki heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarının hazırlanması;<br>3.Təşkilati strukturun təkmilləşdirilməsi və strukturlar arasında koordinasiyasının yaxşılaşdırılması. |

| | |
|---|---|
| | 4.İnsan resurslarının idarə edilməsi üzrə konkret illik fəaliyyət planlarının görüləcək işlər və nəticə indikatorları (ölçüləbilən) əks olunmaqla hazırlanması və həyata keçirilməsi;<br>5.Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin tətbiqi;<br>6.İşçilərin xarici ölkələrdə ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi istiqamətində səylərin artırılması;<br>7.Universitet klinikalarına xəstə qəbulunun optimallaşdırılması üçün tədbirlər planının hazırlanması;<br>8.Praktiki baza kimi universitet aptekinin yaradılması;<br>9.Maliyyə resurslarının monitorinqinin aparılması, nəticələrin təhlil olunması və planlamada nəzərə alınması;<br>10.Mövcud sənədlərin kargüzarlığa dair normativlər əsasında hazırlanması, onların məzmun və struktur cəhətdən təkmilləşdirilməsi, struktur bölmələrə tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin keçirilməsi, təlimatların hazırlanması;<br>11.İnformasiyanın əldə edilməsi və informasiyanın idarə edilməsi mexanizminin təkmilləşdirilməsi;<br>12.ATU-nun təhsil proqramları, gözlənilən təlim nəticələri və xarici tələbələr üçün yaradılmış tədris imkanları ilə bağlı məlumatların ictimaiyyətə təqdim etmə prosesinin təkmilləşdirilməsi. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1.Təlim və tədris üçün kifayət qədər əlverişli maddi-texniki bazanın mövcudluğu;<br>2.Müasir avadanlıqlarla təchiz olunmuş elmi- tədqiqat mərkəzinin, elmi- tədqiqat laboratoriyalarının mövcudluğu;<br>3.ATM-nin auditoriya fondunun kifayət qədər geniş və tədrisin təşkili üçün uyğun olması;<br>4.Spesifik xüsusiyyətlərə uyğun təlim və tədris laboratoriyalarının kifayət qədər olması;<br>İdman kompleksinin olması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1.Tədris infrastrukturunun istifadəsinin monitorinqi mexanizminin olmaması;<br>2.Sağlamlıq imkanları məhdud təhsilalanlar üçün uyğunlaşdırılmış infrastrukturun olmaması;<br>3.Kitabxananın son dövr nəşrləri ilə təmin olunmasının məhdud olması;<br>4.Nəqliyyat vasitələrinin çeşidinin və miqdarının az olması;<br>5.Tədris binalarında liftlərin istismar müddətinin bitməsi və istifadəyə yararsız olması. |
| **İmkanlar** | 1.Elmi Mərkəz və laboratoriyaların dövrün tələblərinə tam uyğunlaşdırılması imkanının olması;<br>2.Universitetin Nabrandakı istirahət mərkəzinin genişləndirilməsi;<br>3.Universitetin geniş məlumat və biblioqrafik avadanlıqlarla zəngin Elmi Kitabxanası və Elektron kitabxanasının müasirləşdirilməsi;<br>4.Təhsilalanları innovativ ideyaları həyata keçirilməsi üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;<br>5.İşğaldan azad olunmuş ərazilərdə kadr təminatının həyata keçirilməsi üçün müvafiq işlərin aparılması. |
| **Təhdidlər** | 1.Sağlamlıq imkanları məhdud olan professor-müəllim heyəti və təhsilalanlar üçün uyğunlaşdırılmış infrastrukturun çatışmazlığı, potensial tələbələr və əməkdaşlar üçün Universitetə marağın azalmasına, həmçinin, inklüzivlik statusuna göstərə biləcəyi mənfi təsir;<br>2.Professor-müəllim heyətinin və təhsilalanların digər ali təhsil müəssisələrinə və xarici ölkələrə axını. |
| **Komissiyanın tövsiyəsi** | 1.Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış təlim və tədris infrastrukturunun və resursların təmin edilməsi;<br>2.Müasir tədqiqatların aparılması üçün yeni avadanlıqlar və cihazlar ilə təminatın gücləndirilməsi;<br>3.Elmi tədqiqatların aparılması üçün müasir avadanlıqlarla təchiz olunmuş yeni laboratoriyaların yaradılmasının təmin edilməsi;<br>4.Öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçiyönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin tətbiq olunması.<br>5.Bütün auditoriyaların İKT vasitələri ilə təchiz olunması; |

| | |
|---|---|
| | 6.İnternet xidmətinin təkmilləşdirilməsi;<br>7.İstehsalat təcrübə bazasının yaradılması istiqamətində işlərin genişləndirilməsi. |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1.Beynəlxalq əlaqələr şöbəsinin ATM-nin beynəlxalq elm, səhiyyə, təhsil məkanına inteqrasiyasını təmin edən əsasnaməsinin və siyasət bəyənnaməsinin olması;<br>2.2017-2018 tədris ilindən başlayaraq ATM-ə əcnəbi tələbə qəbulunda nəzərəçarpan artımın olması;<br>3.Xarici ATM-lər ilə hər il yenilənən ikitərəfli memorandumların imzalanması;<br>4.2017-2023 illərində tədris və təcrübə mübadiləsində iştirak edən bakalavrların, rezidentlərin, doktorantların sayının artması. |
| **Zəif tərəflər** | 1.İkili diplom proqramının olmaması;<br>2.Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə az cəlb edilməsi;<br>3.ATM inzibati heyətinin mübadilə proqramlarında iştirakının olmaması;<br>4.ATM maliyyə resurslarının planlaşdırılması, bölüşdürülməsi ilə məşğul olan şöbənin və maliyyə resurslarının olmasına baxmayaraq, professor-müəllim heyətinin mübadilə və səfər xərclərinin qismən qarşılanması;<br>5.Xarici tələbə yataqxanasının mətbəx-bufet şəraitinin qənaətbəxş olmaması və ingilis dilli işçilərin olmaması;<br>6.Beynəlxalq təqaüd proqramları olmasına baxmayaraq onlardan istifadənin və müraciətin azlığı. |
| **İmkanlar** | 1.Maliyyə resurslarının bəzi professor-müəllim heyətinə kifayət edəcək qədər ayrılması;<br>2.İkili diplom proqramı istiqamətində fəaliyyətin intensivləşdirilməsi. |
| **Təhdidlər** | 1.Qafqaz və orta Asiya regionda ingilis dilində tibb təhsili verən universitetlərin olması;<br>2.Əcnəbi professor-müəllim heyətinin cəlb olunmamasının təcrübə mübadiləsinə və nəzəri biliklərə mənfi təsiri. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1.Beynəlmiləlləşmə sahəsində yaxın və ortamüddətli hədəflərin müəyyən olunduğu müvafiq Strateji fəaliyyət planının hazırlanması;<br>2.İkili diplom proqramlarının həyata keçirilməsi;<br>3.ATU-nun fakültələri və inzibati struktur heyətinin xarici dil biliklərinin və xidmət potensialının gücləndirilməsi;<br>4.Xarici tələbələrin də istifadəsi üçün yataqxananın, mətbəx-bufet şəraitinin yaxşılaşdırılması;<br>5.Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb olunması;<br>6.Beynəlxalq veb-platformalarda lazımi dərəcədə təmsil olunmaq, tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi baxımından rəsmi saytda ingilis dillinin keyfiyyətinin yaxşılaşdırılması, məlumatların əhatəliliyinin və intensivliyinin artırılması;<br>7.Beynəlxalq əlaqələr şöbəsinin fakültələrlə əlaqələrinin optimallaşdırılması;<br>8.Universitetin əhatə dairəsini və resurslarını genişləndirmək üçün nüfuzlu universitetlər, tədqiqat institutları və şirkətlərləri müəyyən edərək tərəfdaşlıq əlaqələri qurulması istiqamətində işlərin davam etdirilməsi. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 3; Keyfiyyət təminatı istiqaməti üzrə 5; Təlim və tədris istiqaməti üzrə 19; Elmi tədqiqat istiqaməti üzrə 11; İdarəetmə istiqaməti üzrə 12; İnfrastruktur istiqaməti üzrə 7; Beynəlmiləlləşmə istiqaməti üzrə 9 tövsiyə olmaqla, ümumilikdə 65 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin ATU tərəfindən həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, ATU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "əsasən uyğundur" hesab edilməsi;

- ATU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.